**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

## H E S A B A T

**(2024-cü il üzrə)**

**Bakı – 2025**

Hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-ci ildə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Komitəsinin (CAT), İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitənin (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW), Uşaq Hüquqları üzrə Komitənin (CRC), Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin (CRPD), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə (UPR) İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

## MÜNDƏRİCAT

**Ön söz**.....4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar.....5

**BÖLMƏ 1. MİLLİ PREVENTİV MEXANİZM MANDATININ HÜQUQİ ƏSASLARI**.....7
1.1. Fakültativ Protokolun tələbləri.....7
1.2. Milli qanunvericilik.....8
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri.....9

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**.....10
2.1 Preventiv başçəkmələrin təşkili.....10
2.1.1. Plan üzrə başçəkmələr.....10
2.1.2. Plandankənar başçəkmələr.....10
2.2. Başçəkmələrin həyata keçirilməsi.....11
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri.....12
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri.....24
2.2.3. Səhiyyə Nazirliyinin müəssisələri.....36
2.2.4. Elm və Təhsil Nazirliyinin müəssisələri.....45
2.2.5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri.....55
2.2.6. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin tabeliyindəki müəssisə.....59
2.2.7. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisə.....60
2.2.8. Müdafiə Nazirliyinin Müəssisələri.....61
2.2.9. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri.....62

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**.....63

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**.....69

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**.....74

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**.....76

Əlavə 1.....80

Əlavə 2.....82

## ÖN SÖZ

"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokoluna uyğun olaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən milli preventiv mexanizmin (MPM) funksiyalarını həyata keçirən təsisat olaraq, fəaliyyətini daha da genişləndirmişdir.

Hər il olduğu kimi Müvəkkil milli preventiv mexanizmin mandatı çərçivəsində dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, media subyektləri, eləcə də beynəlxalq və regional təşkilatlar, xarici ölkələrin Ombudsmanları və milli insan hüquqları təsisatları ilə bu istiqamətdə əməkdaşlıq əlaqələrini genişləndirmişdir.

Qanunvericiliyin tələblərinə əsasən, Ombudsmanın və onun Milli preventiv qrupunun üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə daxil olmaq, orada saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin psixiatriya müəssisələrində saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdikləri tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq, texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq, həmin müəssisələrinin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququna malikdir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi bütün yerlərdə saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən hesabatın ehtiva etdiyi əsas ideyadır.

Bu baxımdan Fakültativ Protokolun məqsədlərinə uyğun olaraq ilin yekunları əsasında hazırlanmış bu hesabat Azərbaycan MPM-nin 2024-ci il ərzində fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr, onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi digər fəaliyyət istiqamətləri üzrə tədbirləri özündə əks etdirir.

İnanıram ki, hazırkı hesabat verdiyimiz təklif və tövsiyələr əsasında müxtəlif istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Səbinə Əliyeva**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**AİHM** – Avropa İnsan Hüquqları Məhkəməsi

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**AR** – Azərbaycan Respublikası

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**BİT**- Bakı İstintaq Təcridxanası

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**İHOSM** – İnzibati həbs olunanların saxlanma Mərkəzi

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

# BÖLMƏ 1.

# MİLLİ PREVENTİV MEXANİZM MANDATININ HÜQUQİ ƏSASLARI

## 1.1. Fakültativ Protokolun tələbləri

2024-cü ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə” Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat kimi fəaliyyətini uğurla davam etdirmişdir.

Məlum olduğu kimi, FP-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (İQA) və MPM-lər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqlərini aparır. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;
- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;
- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə maneəsiz daxil omaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, əməkdaşlıq etmək və onunla görüşmək.

## 1.2. Milli qanunvericilik

Azərbaycan Respublikası tərəfindən FP 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.

Müvafiq qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Ötən dövrlər ərzində Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis idarələrinə, bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə (CÇM), qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır. Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın (CPT) təklif və tövsiyələri də nəzərə alınmışdır.

### 1.3. MPM-in fəaliyyət istiqamətləri

MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

• Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;

• Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;

• Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin, o cümlədən onlayn tədbirlərin təşkil olunması, müvafiq əyani vəsaitlərin (buklet və broşürlərin) hazırlanıb paylanılması;

• İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də və internet resurslarında işıqlandırılmasının təşkili.

## BÖLMƏ 2.

## MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

### 2.1. Preventiv başçəkmələrin təşkili

Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

Preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları plan üzrə başçəkmələr və plandankənar başçəkmələr olmaqla iki qrupa bölmək olar.

#### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun məxfiliyi MPQ-nin üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

#### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, Qaynar Xəttinə (Çağrı Mərkəzinə) daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində, internetdə rast gəlinən

və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

### 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

Başçəkməyə hazırlıq adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən, sosial şəbəkələrdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

Başçəkmənin həyata keçirilməsi özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baxış keçirilir. Bu zaman müəssisədə saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq

söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək nöqsanlar onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müəssisənin tabe olduğu müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

Beynəlxalq təcrübəyə görə başçəkmədən sonrakı tədbirlər başçəkmənin bilavasitə özündən daha əhəmiyyətlidir. Çünki MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil, müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesi təşkil etməkdir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində 2024-cü il ərzində Daxili İşlər Nazirliyinin tabeliyində polis idarə və şöbələrinin müvəqqəti saxlama yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla 90 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı rəftar məsələləri, saxlanma şəraiti və sənədləşmə monitorinq edilmiş, bu müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının, o cümlədən işgəncə və pis rəftara məruz qalmamaq, müraciət etmək, hüquqi yardım almaq və s. hüquqlarının təmini və gələcəkdə pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Aşkar edilmiş nöqsan və çatışmazlıqlarla bağlı Daxili İşlər Nazirliyinə məktub ünvanlanmış, onların aradan qaldırılması istiqamətində təklif və tövsiyələr verilmişdir. Cavab məktubunda bəzi çatışmazlıqların tam aradan qaldırıldığı, müvəqqəti saxlama yerlərinin fəaliyyətinin nəzarətdə saxlanılması barədə ərazi polis orqanlarının rəhbərlərinə əlavə tapşırıqların verildiyi bildirilmişdir.

Ombudsmanın tapşırığına əsasən MPQ üzvləri tərəfindən ***Nəsimi Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə və həmin idarənin 22-ci Polis Şöbəsinə*** başçəkmə həyata keçirilmişdir.

Nəsimi RPİ-nin Müvəqqəti saxlama yerinə başçəkmə çərçivəsində iki nəfər saxlanılan şəxslə konfidensial görüş keçirilmiş, müraciətləri dinlənilmiş, onlardan İlya Dyaçenkonun ərizəsi qəbul edilmişdir. Qəbul olunmuş şəxslər saxlanma şəraiti və rəftar şikayət etməmiş, barələrində başlanmış cinayət işi üzrə istintaqın qeyri-obyektiv aparılmasından narazı qaldıqlarını bildirmişlər.

Baxış zamanı MSY-nin yeni təmir olunduğu, saxlanmanın müvafiq standartlara cavab verdiyi, kameraların daxilində təmizliyə riayət olunduğu müşahidə olunmuşdur.

Bununla yanaşı, MSY-də saxlanılan şəxslərin qeydiyyat kitabları, tibbi qeydiyyat jurnalları və digər müvafiq sənədləşmə araşdırılmış, sənədləşmə işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Bundan sonra Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsinə, o cümlədən saxlama yerinə baxış keçirilmiş, saxlama yerinin natəmiz olduğu, anti-sanitar qaydalara düzgün riayət olunmadığı, havalandırmanın zəif olduğu müşahidə edilmişdir.

Başçəkmənin sonunda idarə və şöbə rəhbərliyi ilə görüş keçirilmiş, saxlama şəraiti, rəftar məsələləri, habelə şöbənin qeydiyyat jurnallarının aparılması işinin təkmilləşdirilməsinə dair müvafiq tövsiyələr verilmişdir.

***Suraxanı Rayon Polis İdarəsi*** (RPİ) və həmin idarənin 30-cu Polis Şöbəsinə, 32 və 33-cü polis bölmələrinə başçəkmə həyata keçirilmişdir.

Suraxanı RPİ-nin MSY-nin kameralarına baxış keçirilərkən ilk dəfə cinayət törətməkdə şübhəli bilinən şəxsin əvvəllər azadlıqdan məhrum edilmiş şəxslə birgə saxlanıldığı aşkar edilmiş, bununla bağlı qanunvericiliyin tələbləri polis əməkdaşlarına izah edilmişdir.

Müəssisə rəhbərliyi və əməkdaşlarla söhbətlər zamanı, bəzi hallarda qanunvericilikdə belə şəxslərin ayrı saxlanılması ilə bağlı tələbdən məlumatlı olmadıqlarını bildirmişlər.

Suraxanı RPİ-nin müvəqqəti saxlama yerində bəzi kameralarda saxlanılan şəxslərin hüquqlarının qeyd edildiyi lövhənin mövcud olmadığı, bir kamerada isə elektrik lampasının işləmədiyi aşkar edilmişdir.

Burada mövcud olan gəzinti sahəsinin üstünün 1/3 hissəsinin gündən və yağışdan qorunmaq üçün dam örtüyü ilə bağlanması tövsiyə olunur.

MSY-də qəbul edilən bir sıra şəxslər müəssisəyə daxil olarkən heç bir tibbi müayinədən keçirilmədiklərini, ümumiyyətlə həkimi görmədiklərini bildirmişlər. Saxlanılan şəxslər onlara sabun, diş məcunu və fırça kimi gigiyenik vasitələrin verilmədiyini qeyd etmişdir. Bu isə daxili intizam qaydalarının pozuntusudur.

Suraxanı RPİ-nin 30-cu Polis Şöbəsinin saxlama yerində natəmizlik olduğu, kameralardan birində ümumiyyətlə işıqlandırmanın olmadığı müəyyən edilmişdir.

Şəhər, Rayon, Xətt Polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı təqdim edilməmiş, şöbə rəisi bunu həmin kitabın müavinin otağında olması ilə əlaqələndirmişdir.

32-ci Polis Bölməsinin inzibati binasının müasir standartlara cavab vermədiyi qeyd olunmalıdır. Burada mövcud olan saxlama yeri çox dar, qaranlıq və bir nəfərlikdir. Müəssisənin qeydiyyat kitablarında bir sıra nöqsanlar aşkarlanmışdır. Belə ki, PB-yə gətirilən şəxslərin qeydiyyatı kitabında 292-294, 304, 305-ci sıralar tam doldurulmamış, gətirilmə səbəbləri və saatlar göstərilməmişdir.

33-cü Polis Bölməsindəki saxlama yerinin şəraiti normal qiymətləndirilsə də, burada pəncərənin olmaması qeyd edilməlidir.

MPQ üzvləri tərəfindən ***Nərimanov Rayon Polis İdarəsinin*** müvəqqəti saxlama yerinə başçəkmə zamanı qəbul edilən şəxslər saxlanıldıqları andan həkim müayinəsindən keçmədiklərini bildirmişlər. Bəzi saxlanılan şəxslər kameralarda divar saatının olmasını xahiş etmişlər. Divar saatının olması şəxslərin qida və dərman qəbulunun, ibadətin vaxtını müəyyən etmək üçün məqsədəmüvafiqdir.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, bu MSY-ə həm də Dövlət Sərhəd Xidməti tərəfindən saxlanılan şəxslər gətirilir ki, Azərbaycan dilini bilməyən xarici ölkə vətəndaşlarının bununla bağlı müəyyən problemləri olur. Belə şəxslərin hüquqlarının daha yaxşı təmini baxımından tərcüməçinin olması vacibdir.

Həmin idarənin 17-ci Polis Şöbəsində saxlama yerində təbii işıqlandırmanın və elektrik işığının olmadığı, anti-sanitar şəraitin hökm sürdüyü müşahidə edilmişdir. Qeyd edilməlidir ki, saxlama yerinin qaranlıq olması qeyri-insani rəftar ehtimalı yaradır. Burada gətirilən şəxslərin qeydiyyatı kitabında 991, 992, 993-cü sıralar tam doldurulmamışdır. Bəzi hallarda saxlanılma səbəbləri tam göstərilməmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Sumqayıt Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama*** **Yerinə,** habelə həmin idarənin 1-ci polis şöbəsi və 4-cü, 5-ci, 6-cı polis şöbələrinə planlı başçəkmələr həyata keçirilmişdir.

Müəssisədə əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində verilmiş tövsiyələrin yerinə yetirildiyi, gəzinti yerində idman qurğularının quraşdırıldığı, tibb otağında istifadə müddəti bitmiş dərmanların saxlanılmadığı, kameralarda saxlanılan şəxslərin hüquqlarının əks olunduğu lövhələrin vurulduğu müşahidə edilmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı kameralarda təbii işıqlanmanın zəif olduğu, saxlanılan şəxslər üçün sanitar gigiyenik vasitələrin (sabun, diş fırçası) olmaması müşahidə edilmişdir.

Eyni zamanda, kameralardan birində məhkumluğu olmayan şəxsin, əvvəllər cinayət törətmiş şəxslə birlikdə saxlanıldığı aşkar edilmişdir.

Sumqayıt ŞPİ-nin 1-ci Polis Şöbəsində natəmizliyin olduğu, işıqlanmanın zəif olduğu, təmirə ehtiyacın olduğu müəyyən edilmişdir. Bu və Sumqayıt ŞPİ-nin 4-cü Polis Şöbəsinin bəzi qeydiyyat kitablarında müvafiq möhürlərin vurulmadığı müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən ***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Müvəqqəti Saxlama Yerinin*** bütün ərazisinə baxış keçirilmişdir. Müəssisəyə Naxçıvan Muxtar Respublikasının bütün ərazisində inzibati həbs olunanlar və 48 saat ərzində şübhəli şəxs qismində saxlanılan şəxslər üçün nəzərdə tutulmuş və 11 kameradan ibarət olan yerdə inzibati qaydada həbs edilmiş 16 şəxsin saxlanıldığı müşahidə edilmişdir. Həmin şəxslər MPQ üzvləri tərəfindən qəbul edilmiş və onlara Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) səlahiyyətləri izah olunmuşdur.

MPQ üzvləri tərəfindən ***Qax Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmələr keçirilmişdir.

Qax rayon Polis şöbəsinin MSY-nə başçəkmə zamanı orada saxlanılan iki nəfər fərdi qaydada qəbul edilmişdir. Müəssisəyə növbəti başçəkmə zamanı saxlanılan şəxs olmamışdır.

Qeyd edilməlidir ki, MSY-də saxlanc otağı, ibadət otağı və görüş otağı yoxdur. MSY rəisi Səxavət Bilalov saxlanc və ibadət üçün tibb otağından, görüşlər üçün isə istintaq otağından istifadə edildiyini bildirmişdir.

Sənədləşmə araşdırılarkən telefon danışığının qeydiyyatının aparılmadığı, Tutulmuş və həbs edilmiş şəxslərin kameradan çıxarılma kitabının isə tələblərə uyğun doldurulmadığı, MSY-də saxlanılan şəxslərin uçotu kitabının 5-ci bölməsində tutulmuş və ya həbs edilmiş şəxslərin hüquq və vəzifələri ilə tanış edilmə tarixi və saatının göstərilmədiyi müəyyən edilmişdir. Həmçinin, Şəhər, Rayon, Xətt Polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabına baxış zamanı bir sıra hallarda şəxsin nəyə görə və kim tərəfindən gətirilməsinin, hansı tədbirlər görülməsi, yaxud haraya göndərilməsinin, azad etmənin (göndərilmənin) tarixi və saatının qeyd olunmadığı müşahidə edilmişdir.

MSY rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və sənədləşmə ilə bağlı müvafiq tövsiyyələr verilmişdir.

Müəssisəyə növbəti başçəkmə zamanı MSY-nin qeydiyyat kitablarında aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırıldığı müşahidə edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Balakən Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmə zamanı Müvəqqəti Saxlama Yerinin kameralarına, istintaq, tibb, tanınma, ibadət, görüş otaqlarına, mətbəxə, gəzinti meydançasına və hamama baxış keçirilmişdir. Kameralarda dolablar, stol, stul, asılqan, saxlanılan şəxslərin hüquq və vəzifələrini əks etdirən məlumatların olduğu, kameraların normal işıqlandırıldığı, sanitar qovşaqların işlək vəziyyətdə olduğu, gəzinti meydançasının bir hissəsinin üst örtüyünün metal örtüklə örtüldüyü müşahidə edildi.

MSY-də saxlanc otağının olmadığı, bu məqsədlə ibadət otağından istifadə edildiyi müəyyən edilmişdir.

Saxlanma şəraiti və rəftar məsələlərinin öyrənilməsi məqsədilə MSY-də saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, onlarla təkbətək söhbət edilmiş, hüquqlarının təmini vəziyyəti öyrənilmişdir.

Yekunda Müvəqqəti Saxlama Yerinin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və sənədləşmə ilə bağlı müvafiq tövsiyyələr verilmişdir.

***Zaqatala Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerində*** də saxlanc otağının olmadığı, mövcud kameralarda asılqanların olmadığı müşahidə edilmişdir.

Tibbi müayinənin keçirilməsi və tibbi yardım göstərilməsinə dair qeydiyyat kitablarında və inzibati həbs edilmiş şəxslərin tibbi kitabçalarında ilkin tibbi müayinənin keçirilməsinə dair heç bir qeydiyyat aparılmayıb. Müvəqqəti Saxlama Yerinin məsul növbətçisi, polis baş serjantı Rəvan Sadıqov ilkin tibbi müayinənin keçirilməsi üçün Zaqatala rayon Təcili Tibbi Yardım Mərkəzinə müraciət olunsa da tibb işçilərinin

gəlməkdən imtina etdiklərini, yalnız təcili tibbi yardımın göstərilməsi zəruri olduğu hallarda gəldiklərini qeyd etmişdir.

***Mingəçevir Şəhər Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı bəzi nöqsan və çatışmazlıqlar aşkar edilmişdir.

MSY-nin bəzi kameralarında kəskin qoxunun, divarların bəzi yerlərində qabarmaların olduğu müəyyən olunmuşdur.

MSY-də saxlanc və ibadət otağının olmadığı bu məqsədlə görüş otağından istifadə edildiyi müəyyən edilmişdir.

Saxlanılan şəxslərin tibbi kitabçalarına baxış zamanı inzibati qaydada həbs edilmiş 3 nəfərin müvəqqəti saxlama yerinə yerləşdirildikdən bir neçə gün (4-7 gün) sonra tibb işçiləri tərəfindən ilkin müayinədən keçirildiyi aşkar edilmişdir.

Sənədləşmə araşdırılarkən bəzi qeydiyyat kitablarının natamam doldurulduğu, bəzilərində hər hansı qeyd aparılmadığı müşahidə edilmişdir. Belə ki, MSY-də keçirilən sanitar-gigiyena tədbirlərinin qeydiyyatı kitabında 2024-cü ilin iyun ayından sonra (başçəkmə 22.10.2024-ci il tarixdə keçirilib) heç bir qeyd aparılmayıb. Tibbi müayinənin keçirilməsi və tibbi yardımın göstərilməsinə dair qeydiyyat kitablarında bəzi hallarda qeydlər düzgün aparılmayıb. “MSY-də saxlanılan tutulmuş və ya həbs edilmiş şəxslərə gətirilmiş sovqatda, göndərilmiş bağlama və banderollarda olan əşyaların (ərzaq məhsullarının, malların) qeydiyyatı” kitabında malların tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən alınması haqqında imza edilməyib.Telefon danışıqlarının qeydiyyatında da çatışmazlıqlar müşahidə edilmiş, bəzi hallarda tarix, saat və danışıq müddəti kimi məlumatlar qeyd edilməmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***İsmayıllı Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə keçirilmişdir.

İsmayıllı Rayon Polis Şöbəsinin MSY-nə başçəkmə zamanı orada saxlanılan iki nəfər təkbətək qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır.

Başçəkmə zamanı müəssisənin kameralarına, istintaq, tibb, görüş, tanınma və şəxsi əşyaların saxlanc otaqlarına, mətbəxə, gəzinti yerinə və hamama baxış keçirilmişdir. Müəssisənin gəzinti yerində oturacaqların quraşdırılmadığı müşahidə edilmişdir.

Sənədləşmə araşdırılarkən MSY-də saxlanılan şəxslərin uçotu kitabında şəxsin əvvəllər məhkumluğunun olub-olmaması barədə qeydin aparılmadığı müşahidə edilmişdir. Bu hal ilk dəfə cinayət törətmiş şəxslərlə əvvəllər azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxslərin ayrı saxlanılması ilə bağlı milli və beynəlxalq normaların tələblərinə əhəmiyyət verilmədiyini, müxtəlif kateqoriyadan olan şəxslərin birgə saxlanıldığını düşünməyə əsas verir.

MSY-də saxlanılan şəxslərin telefon danışığı qeydiyyatıə kitabının da natamam doldurulduğu, telefonla danışılma tarixi, saatı və bu danışığın müddətini göstərən qeydlərin aparılmadığı müşahdə edilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə söhbət aparılmış, gəzinti yeri ilə bağlı, o cümlədən sənədləşmə ilə bağlı aşkar edilən çatışmazlıqlar onun diqqətinə çatdırılmış, bunların aradan qaldırılması istiqamətində müvafiq tövsiyələr verilmişdir.

Milli Preventiv Qrup üzvləri tərəfindən ***Ağstafa Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmələr həyata keçirilmişdir.

2022-ci ilin dekabr ayından tikilərək istifadəyə verilmiş Ağstafa RPŞ-nin MSY-nin yeni binasının kameralarında saxlanma şəraitinin zəruri tələblərə uyğun olduğu müşahidə edilmişdir. Rəftar məsələlərinin öyrənilməsi məqsədilə qəbul edilən saxlanılan şəxslər saxlanılma şəraiti, rəftar, qidalanma ilə bağlı hər-hansı şikayətlərinin olmadığını bildirmişlər.

Başçəkmə çərçivəsində şöbənin MSY-də saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışığı, kameradan çıxarılma ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

MSY-nin tibb otağı ilə tanışlıq zamanı dərman preparatlarının saxlanılması və tibbi müayinələr üçün zəruri şəraitin mövcud olduğu müşahidə olunmuşdur. Müəssisənin ibadət, istintaq, görüş otaqlarında da şəraitin qənaətbəxş olduğu müəyyən edilmişdir.

Ağstafa RPŞ-nin MSY-də saxlanılan şəxslərin gündəlik qidalanması üçün nəzərdə tutulmuş məbləğin cəmi 3.54 manat (üç manat əlli dörd qəpik) olması, həmin məbləğin hazırki bazar qiymətləri nəzərə alındıqda saxlanılan şəxslərin gündəlik üç dəfə keyfiyyətli qidalanmalarına imkan vermədiyi müəyyən edilmişdir. Polis şöbəsinin rəhbərliyi çatışmayan məbləğin özləri tərəfindən qarşılandığını birldirsə də, bu hal saxlanılan şəxlsərin qanunla müəyyən edilmiş yemək və maddi-məişət normalarına uyğun qidalanması üçün ayrılmalı olan vəsaitin artırılmasını şərtləndirir.

“Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş yemək və maddi-məişət normalarına uyğun olaraq keyfiyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına cavab verən pulsuz yeməklə gündə üç dəfə təmin edilirlər.

*Bunu nəzərə alaraq, saxlanılan şəxslərin gündə üç dəfə keyfiyyətli qidalanması üçün lazımi məbləğin artırılması tövsiyə edilir.*

“Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” qanunun 15.1.22-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərin “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq hüquqları vardır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri”-nin 4.3.2-ci bəndinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərə psixoloji yardım onlarda yaranmış və ya müşahidə edilən mənəvi-psixoloji sarsıntı, şok, depressiya, stress, böhranlı vəziyyət və digər psixoloji gərginlik hallarının aradan qaldırılması üçün həyata keçirilən kompleks tədbirlərdən ibarətdir;

Həmçinin həmin qaydaların 4.3.3-cü bəndinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərə psixoloji yardım həbs yerlərinin psixoloqları tərəfindən göstərilir.

Lakin başçəkmələr zamanı qanunvericiliyin qeyd olunan tələblərinə baxmayaraq Ağstafa RPŞ-nin MSY-də tutulmuş və ya həbs edilmiş şəxslərə ödənişsiz psixoloji

yardım göstərmək üçün psixoloq ştatının və müvafiq mütəxəssisin mövcud olmadığı müəyyən edilmişdir.

***Quba Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı rəisin bildirdiyinə görə 103 tibb xidmətinin əməkdaşları yalnız MSY-də saxlanılan şəxslərə tibbi yardım göstərilməsi zərurəti yarandıqda çağrışlara gəlirlər. Qalan hallarda, yəni şəxslərin MSY-ə yerləşdirilməsi zamanı ilkin tibbi müayinə aparılması mümkün olmur.

Bundan əvvəlki başçəkmələr zamanı irad bildirilməsinə baxmayaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş, müvəqqəti saxlama yerlərinin daxili intizam qaydalarının 2.15-ci maddəsinin tələblərinə zidd olaraq, saxlanılan şəxs MSY-nə yerləşdirilərkən tam axtarış olunan zaman, alt paltarlarının çıxarıldığı müəyyən olunmuşdur.

Kameralara bazış zamanı bəzilərində yataq ləvazimatının (döşəkağı) olmadığı müşahidə edilmişdir.

Müəssisədə sənədləşmə və qeydiyyat işində də nöqsanlar var. Belə ki, bəzi qeydiyyat kitablarında aparılan qeydlər üzərində düzəlişlər aparıldığı, bəzilərinin surğuclanmasının formal xarakter daşıdığı (kitablar qaytanlansa da, səhifələr nömrələnməmiş, səhifə sayı barədə qeydlər yazılmamışdır) aşkar olunmuşdur.

Burada da dərman təminatının yaxşılaşdırılmasına, dərmanların sayının artırılmasına ehtiyac müşahidə olunmuşdur.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Qusar Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində, saxlanma şəraiti ilə bağlı müəssisənin tibbi-sanitar hissəsinə, kameralara, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə saxlanılan 7 nəfər MPQ üzvləri tərəfindən qəbul edilmiş, konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələlər yerində araşdırılmışdır.

MSY-nin şəraiti əsasən tələblərə cavab verir, kameralar zəruri avadanlıqla təhciz olunmuşdur, hamam otağı və sanitariya qovşağları sanitar tələblərə uyğundur, isti və soyuq su ilə təminatı var, dəhliz və gəzinti yerində video müşahidə aparılır.

Başçəkmə zamanı, qanunvericiliyin tələblərinə zidd olaraq ilk dəfə cinayət törətmiş şəxslə əvvəllər azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxsin bir yerdə saxlanıldığı aşkar edilmişdir.

Kameralarda saxlanılan şəxslərin hüquq və vəzifələrini əks etdirən məlumat lövhəsinin quraşdırılmadığı, döşək ağlarının mövcud olmadığı müşahidə edilmişdir.

Sənədləşmə araşdırılarkən bəzi şəxslərin tibb kitabçalarında müəssisəyə yerləşdirilmə ilə əlaqədar müvafiq qeydlərin aparılmadığı, N.Ş. adlı şəxsin tutulması haqqında protokolun möhürlə təsdiqlənmədiyi, barəsində həbs qətimkan tədbirinin seçilməsi haqqında məhkəmə qərarının işə əlavə edilmədiyi aydın olmuşdur.

Başçəkmənin yekununda bütün nöqsan və çatışmazlıqlarla bağlı müəssisə rəhbərliyi ilə söhbət aparılmış, aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

Milli Preventiv Qrup üzvləri tərəfindən ***Xaçmaz Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçerilmişdir.

Başçəkmə çərçivəsində, saxlanma şəraiti ilə bağlı müəssisənin tibbi-sanitar hissəsinə, saxlama kameralarına, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

MSY-nin kameralara baxış zamanı döşək ağlarının mövcud olmadığı, tibb otağında isə dərmanların az olduğu müşahidə edilmişdir.

Sənədləşmə araşdırılarkən, qeydiyyatın natamam aparıldığı, istintaq təcridxanasından MSY-ə etap olunmuş şəxslərin tibb kitabçalarında müəssisəyə yerləşdirilmələri ilə əlaqədar müvafiq qeydin olmadığı müəyyən edilmişdir. MSY-də bəzi qeydiyyat kitabları qaytanlanaraq, surğuclansa da möhür və məsul əməkdaşın imzası ilə təsdiq olunmayıb.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 12 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunması vəziyyəti, qaldırdıqları məsələlər yerində araşdırılmışdır. Qəbul edilən şəxslərdən üç nəfər istintaqın düzgün aparılmadığını bildirmiş, Ombudsmanın ünvanına ərizə ilə müraciət etmişlər.

Yekunda, müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, nöqsanların aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

***Xızı Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı bəzi qeydiyyat kitablarında surğuclanmış hissədə qeyd edilən səhifə sayı ilə faktiki səhifə sayında fərq olduğu müəyyən olmuşdur.

MSY-nin şəraiti standartlara uyğun olsa da, burada kitabxananın təşkil olunması şəxslərin asudə vaxtdan səmərəli istifadəsi üçün məqsədəmüvafiq olardı. Saxlanılan şəxslər tərəfindən hər hansı tələb olduqda MSY rəisinin otağındakı kitablar təqdim edilir.

Bundan başqa dərman preparatlarının sayının yetərli olmadığı aşkar olunmuşdur.

MPQ üzvləri tərəfindən ***Şabran Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə keçirilmişdir. Müəssisədə kameraların zəruri avadanlıqla təhciz olunduğu, hamam otağı və sanitari qovşaqların sanitar tələblərə uyğun olduğu, isti və soyuq su ilə təminatın mövcud olduğu, hamam otağından başqa bütün otaqlar, dəhliz və gəzinti yerində video müşahidə aparıldığı müşahidə edilmişdir.

Bununla belə kameralarda saxlanılan şəxslərin hüquq və vəzifələrini bildirən lövhələr yerləşdirilməmişdir.

Başçəkmə zamanı saxlanılan şəxsin şəxsi işi ilə tanış olarkən, şübhəli şəxsin tutulması haqqında protokolun möhürlənmədiyi aşkar olunmuşdur.

MSY-də dərman preparatının sayının yetərli olmadığı, 1 dərman preparatının və 1 şprisin istifadəyə yararlılıq vaxtının keçdiyi aşkar olunmuşdur.

***Siyəzən Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı kameralarda saxlanılan şəxslərin hüquq və vəzifələrini bildirən lövhələrin yerləşdirilmədiyi, döşəkağılarının mövcud olmadığı müşahidə edilmişdir. Ümumilikdə

MSY-nin şəraiti standartlara cavab vermir. Burada da tibb otağında dərman preparatlarının saynın yetərli olmadığı aşkar edilmişdir.

Sənədləşmə ilə tanışlıq zamanı bəzi qeydiyyat kitablarında aparılan qeydlərin üzərində düzəlişlər edilmiyi müşahidə olunmuşdur.

MPQ üzvləri tərəfindən ***Samux Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışığı, kameradan çıxarılma ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

MPQ üzvləri tərəfindən ***Yevlax Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** həyata keçirilən başçəkmə zamanı inzibati qayadada həbs edilmiş saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı onların barəsində olan məhkəmə qərarlarının tam deyil, qərardan çıxarışlar olduğu müəyyən edilmişdir. Qeyd edilən hal, şəxsin barəsində qəbul edilmiş məhkəmə qərarı ilə ətraflı tanış olmasına, həmçinin apellyasiya şikayəti verəcəyi təqdirdə məhkəmə qərarının məzmununu mübahisələndirməsinə, müvafiq xüsusatlara istinad etməsinə imkan vermədiyindən məhkəmə qərarlarının şəxsi işlərin içində tam formada saxlanılmasına ehtiyac var.

AR CM-nin 177.1-ci maddəsi ilə təqsirləndirilən N.A. barəsində tərtib olunmuş axtarışda olan şəxsin tutma protokolunun gerbli möhürlə möhürlənmədiyi aşkar olunmuşdur.

İnzibati qaydada saxlanılan şəxslərin tibbi kitabçalarında tibbi müayinələr barədə qeydlərin aparılmadığı müəyyən edilmişdir.

Başçəkmə zamanı kameralarda yataq ləvazimatlarının (döşəkağı, balışüzü), habelə burada saxlanılan şəxslərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edilmişdir.

Bununla yanaşı saxlanılan şəxslərin telefon danışıqlarından istifadə etmək hüququnun təminatı üçün müvafiq qurğu olmadığından mobil telefondan istifadə olunduğu müəyyən edilmişdir.

Saxlanılan şəxslərlə konfidensial görüşdə rəftar məsələləri ilə bağlı şikayət daxil olmasa da, polis əməkdaşları və saxlanılan şəxslərlə söhbətlər nəticəsində məlum olmuşdur ki, Yevlax RPŞ-nin MSY-nə gətirilən şəxslərin tam axtarışı zamanı alt paltarın da çıxarılması və ya aşağı endirilməklə baxılması praktikası mövcuddur. Bu da daxili intizam qaydalarının pozuntusu və saxlanılan şəxslərin insan ləyaqətinin alçalması ilə nəticələnə bildiyindən preventiv tədbir kimi dərhal həmin praktikaya son verilməlidir.

“Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 15.1.22-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərin “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq hüquqları vardır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri”-nin 4.3.3-cü bəndinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərə psixoloji yardım həbs yerlərinin psixoloqları tərəfindən göstərilir.

Lakin başçəkmə zamanı qanunvericiliyin qeyd olunan tələblərinə baxmayaraq Yevlax RPŞ-nin MSY-də tutulmuş və ya həbs edilmiş şəxslərə ödənişsiz psixoloji yardım göstərmək üçün psixoloq ştatının və müvafiq mütəxəssisin mövcud olmadığı müəyyən edilmişdir.

Milli Preventiv Qrup üzvləri tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***Tovuz Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmələr həyata keçirilmişdir.

İnzibati qayadada həbs edilmiş şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı onların barəsində olan məhkəmə qərarlarının tam deyil, qərardan çıxarışlar olduğu müəyyən edilmişdir.

Bununla yanaşı kameraların sanitar qovşaqlarının köhnəlmiş avadanlıqlarının yenilənməsinə ehtiyac vardır.

Başçəkmə zamanı saxlanılan şəxslərlə konfidensial görüşdə rəftar məsələləri ilə bağlı şikayət daxil olmasa da, polis əməkdaşları və saxlanılan şəxslərlə söhbətlər nəticəsində məlum oldu ki, Tovuz RPŞ-nin MSY-nə gətirilən şəxslərin tam axtarışı zamanı alt paltarın da çıxarılması və ya aşağı endirilməklə baxılması praktikası mövcuddur.

CPT-nin Ümumi Qaydalarında qeyd olunur ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, saxlanmanın bütün aspektlərini və saxlanılan şəxslər barəsində görülən bütün tədbirləri əks etdirən əhatəli vahid qeydiyyat həmin şəxslərin əsas təminatlarını gücləndirir. Başçəkmə zamanı Tovuz RPŞ-nin “Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabında” qeydiyyatla bağlı bəzi boşluqların olduğu müşahidə edilmişdir. Belə ki, həmin kitaba baxış keçirilən zaman 1721-ci sırada gətirilmiş şəxs barəsində hansı tədbirlərin görülməsi barədə qeyd aparılmadığı, həmçinin azad olunmaının saatının qeyd olunmadığı müəyyən edilmişdir.

Saxlanılan şəxlsərin şəxsi işləri ilə tamışlıq zamanı bir sıra pozuntular aşkar olunmuşdur. Belə ki, cinayəti törətməkdə şübhəli şəxs qismində tutulan R.R. və digərləri barəsində tərtib edilmiş şübhəli şəxsi tutma protokollarının gerbli möhürlə möhürlənmədiyi, həmçinin inzibati qayadada həbs edilmiş saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı onların barəsində olan məhkəmə qərarlarının tam deyil, qərardan çıxarışlar olduğu müəyyən edilmişdir.

MSY-nin 3 nömrəli kamerasına baxış zamanı inzibati qaydada tutulmuş şəxslər cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxslərlə birgə saxlanıldığı müəyyən edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş “Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları”nın 2.31.5-ci bəndinə əsasən inzibati qaydada tutulmuş və ya barəsində inzibati həbs tənbeh növü tətbiq edilmiş şəxslər cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxslərdən ayrı saxlanılırlar. Aşkar edilmiş hal isə, qanunvericiliyin tələblərinin pozuntusudur.

Kameralarda yataq ləvazimatlarının (döşəkağı, balışüzü) mövcud olmadığı müşahidə edilmiş, MSY rəhbərliyi bunu həmin əşyaların camaşırxanaya aparılması ilə izah etmişdir. Halbuki belə hallarda MSY-də mövcud olan ehtiyat yataq ləvazimatlarından istifadə edilə bilər.

Qanunvericiliyin tələblərinə baxmayaraq MSY-də saxlanılan şəxlsərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edilmişdir.

Həmçinin MSY-də zəruri avadanlıq olmadığından saxlanılan şəxslərin telefon danışıqları üçün mobil telefondan istifadə olunduğu müşahidə edilmişdir.

MSY-də tutulmuş və ya həbs edilmiş şəxslərə ödənişsiz psixoloji yardım göstərmək üçün psixoloq ştatının olmadığı müəyyən edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrup üzvləri tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***Daşkəsən Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində MSY-də saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışığı, kameradan çıxarılma ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Daşkəsən RPŞ-nin MSY-də otaq çatışmazlığı səbəbilə eyni otaqdan tibbi müayinə, istintaq, ibadət, görüş, axtarış otağı kimi istifadə olunur ki, bu da saxlanılan şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının səmərəli şəkildə həyata keçirilməsinə imkan vermir. Həmçinin MSY-də tibb otağı kimi ayrıca otaq nəzərdə tutulmadığından dərman preparatlarının saxlanıldığı tibb dolabçası MSY-nin rəisinin otağında saxlanılır.

MSY-nin bütün kameralarında sanitar qovşaqların qapılarının tam olmadığı və arakəsmələrlə təcrid olunmadığı müəyyən edilmişdir ki, insan ləyaqətinə uyğun saxlanma şəraitinin təşkil edilməsi məqsdilə çatışmazlığın aradan qaldırılması zəruridir.

Müəssisəyə başçəkmə zamanı müəyyən edilmişdir ki, saxlanılan şəxslərin gündəlik qidalanması üçün nəzərdə tutulan məbləğ (bir nəfər üçün 3 manat 22 qəpik olduğu bildirilmişdir) hazırki qiymətlərə uyğun deyil və saxlanılan şəxslərin gündəlik 3 dəfə keyfiyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına cavab verən formada qidalanmalarına imkan vermir.

MSY-də mövcud qeydiyyat kitabları ilə tanışlıq zamanı bəzi nöqsanlar aşkar edilmişdir. Kameradan çıxarılmanın qeydiyyatı jurnalında, həmçinin telefon danışıqlarının qeydiyyatı jurnalında qeydlərin tam aparılmadığı, inzibati qaydada həbs edilmiş şəxslərin şəxsi işlərinin içində olan tibbi kitabçalarda həmin şəxslərin MSY-dən azad olunarkən tibbi müayinələrinin aparılması barədə qeydlərin olmadığı müəyyən edilmişdir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***Goranboy Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** həyata keçirilmiş başçəkmə gedişində inzibati qayadada həbs edilmiş şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı onların barəsində olan məhkəmə qərarlarının tam deyil, qərardan çıxarışlar olduğu müəyyən edilmişdir.

Həmçinin O.Z. barəsində tərtib olunmuş axtarışda olan şəxsin tutma protokolunun kargüzarlıq qaydalarına uyğun olaraq gerbli möhürlə möhürlənmədiyi aşkar olunmuşdur.

Başçəkmə zamanı MSY-dəki kameralarda cari təmir işlərinin davam etdirildiyi müşahidə edilmişdir.

Tutulmuş və ya həbs edilmiş şəxslərin idmanla məşğul ola bilməsi üçün MSY-nin gəzinti yeridə müvafiq qurğuların quraşdırılmasına ehtiyac vardır.

Başçəkmə zamanı saxlanılan şəxslərlə konfidensial görüşdə rəftar məsələləri ilə bağlı şikayət daxil olmasa da, müəssisəyə gətirilərkən şəxslərin tam axtarışı zamanı alt paltarın da çıxarılması və ya aşağı endirilməklə baxılması praktikası mövcuddur ki, bu da daxili intizam qaydalarının pozuntusu və saxlanılan şəxslərin insan ləyaqətinin alçalması ilə nəticələnə bildiyindən preventiv tədbir kimi dərhal həmin praktikaya son verilməlidir.

Fərdi qəbul zamanı müəyyən edilmişdir ki, təqsirləndirilən şəxslərin dindirilməsi bəzi hallarda istintaq otağında deyil, müstəntiqlərin xidməti otaqlarında həyata keçirilir. MSY-nin rəhbərliyi bunu istintaq otağındakı kompüter avadanlığının texniki nasazlığı ilə əlaqəli olduğunu bildirmişdir.

Burada da saxlanılan şəxslərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmamışdır.

Müəssisədə psixoloq ştatının vakant olması tutulmuş və həbs edilmiş şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququnun təminində çətinliklərə səbəb olur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***Naftalan Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Burada da, gətirilən şəxslərin tam axtarışı zamanı alt paltarın da çıxarılması praktikasının olduğu müəyyən edilmiş, buna son verilməsinin zəruriliyi bildirilmişdir.

MSY-də saxlanılan şəxslərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edilmişdir. Burada da müvafiq avadanlıqlar olmadığından telefon danışığı hüququnun təmini üçün polis əməkdaşlarının şəxsi telefonlarından istifadə edilir.

MSY-nin qadın əməkdaşı olmadığından müəssisəyə gətirilən qadınların üzərində şəxsi axtarış aparılması prosesinə RPŞ-nin dəftərxanasının operatoru və təminat hissəsinin xadiməsi təhkim edilir. MSY-nin ixtisaslı qadın əməkdaşlarla təmin olunmasına ehtiyac var.

Burada da psixoloq ştatı vakantdır və bu saxlanılan şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququnun təminatında problemlərə səbəb olur.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Masallı Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində araşdırma otağına, kameralara, mətbəx, hamam, istintaq, görüş, tibb və ibadət otağına, gəzinti sahəsinə baxış keçirilib, sənədləşmə araşdırılıb.. Saxlanılan şəxslərin hər biri ilə ayrı-ayırılıqda söhbət aparılaraq, hüquq və vəzifələri izah edilmişdir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mandatı barədə onlara geniş məlumat verilmişdir.

Başçəkmə zamanı MSY-də əvvəlki başçəkmə zamanı verilən tövsiyələrə uyğun olaraq nöqsanların aradan qaldırıldığı müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən ***Astara Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə gedişində əvvəllər aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində müəyyən fəaliyyətin həyata keçirildiyi müşahidə edilmişdir.

Lakin əvvəlki başçəkmədə olduğu kimi kameralarda çatışmayan əlavə oturacaqların quraşdırılmadığı müəyyən edilmişdir. MSY rəisi bu barədə DİN-ə

məlumat verdiklərini, ancaq 2024-cu ilin iyul ayında Astara RPŞ üçün yeni inzibati binanın istifadəyə veriləcəyinə görə qeyd olunan məsələnin həllini gözlədiyi bildirmişdir.

***Cəlilabad Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı əvvəllər aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində MPQ üzvləri tərəfindən verilmiş tövsiyələrin yerinə yetirildiyi müşahidə edilmişdir.

### 2.2.2. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2024-cü ildə də Ədliyyə Nazirliyi (ƏN) Penitensiar Xidmətinin müəssisələrində saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində preventiv başçəkmələr və tədbirlər həyata keçirilmişdir.

İl ərzində Penitensiar Xidmətin (PX) istintaq təcridxanaları və cəzaçəkmə müəssisələrinə planlı və plandankənar olmaqla 126 başçəkmə həyata keçirilmişdir. Bütün başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən keçirilmiş və MPQ üzvlərinə lazımi şərait yaradılmışdır.

Başçəkmə çərçivəsində təsadüfi seçim əsasında və ya özü, yaxud ailə üzvlərinin Ombudsmana müraciətindən sonra təqsirləndirilən şəxslərlə və məhkumlarla konfidensial görüşlər keçirilmiş, onların saxlanma şəraiti, hüquqlarının təmini və müdafiəsi,işgəncə və pis rəftarın qarşısının alınması diqqət mərkəzində olmuşdur.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Penitensiar Xidmətin müəssisələrində başçəkmələr həyata keçirilir. Tapşırığım əsasında Milli Preventiv Qrupun üzvləri tərəfindən növbəti başçəkmələr Bakı İstintaq Təcridxanasına, 2 saylı İstintaq Təcridxanasına, 1 saylı, 2 saylı, 5 saylı, 7 saylı, 13 saylı, 15 saylı cəzaçəkmə müəssisələrinə və Müalicə Müəssisəsinə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

***Bakı İstintaq Təcridxanasında*** sıxlıqla bağlı vəziyyət aktual olaraq qalmaqdadır. Belə ki, son başçəkmə tarixində ümumi tutumu 2500 nəfərdən ibarət olan müəssisədə 3900 nəfərin saxlanıldığı müəyyən edilmişdir. Məlum olduğu kimi, sıxlıq müəssisədəki bütün xidmətlərə də mənfi təsir göstərir. Xüsusilə də, su probleminin olmasını misal göstərmək olar.

İstintaq təcridxanasında tibbi yardımın da vaxtında göstərilmədiyi müəyyən edilmişdir. Saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, istər tibbi heyət, istərsə də dərman və digər tibbi ləvazimatların müəssisənin saxlanma limitinə uyğun yox, faktiki sayına uyğunlaşdırılması zəruridir. CPT standartlarına əsasən, həbs

edilmiş şəxslər saxlanma rejimindən asılı olmayaraq istənilən vaxt həkimə müraciət etmək imkanına malik olmalıdırlar. Tibbi xidmət elə təşkil edilməlidir ki, həkimlə məsləhətləşmələr barədə müraciətlər lüzumsuz yubanmalar olmadan yerinə yetirilsin.

***Penitensiar Xidmətin 2 saylı İstintaq Təcridxanasında*** saxlanma şəraiti standartlara uyğun deyildir. Müəssisənin yerləşdiyi binanın çox köhnə və rütubətli olması səbəbindən mütəmadi olaraq cari təmir işlərinin görülməsinin heç bir effekti olmur.

2 saylı İstintaq Təcridxanasının rəisi məlumat verərək bildirmişdir ki, 700 nəfər saxlanılma limiti olan müəssisədə başçəkmə günü 842 nəfər saxlanılır. Baxış keçirilən kameralarında standartların imkan verdiyi saydan daha çox adamın saxlanılması, faktiki saxlanılan şəxslərin sayından daha az çarpayının olması (məsələn, 5-6 nəfər olan kamerada 4, 20 nəfər olan kamerada isə 10 çarpayı), döşəmələrin betondan olması müşahidə edilmişdir. Qeyd etmək lazımdır ki, yetkinlik yaşına çatmayanların və qadınların saxlanıldıqları kameralarda da sıxlıq mövcuddur.

Kameralara baxış zamanı, ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslərin əvvəllər azadlıqdan məhrumetmə yerlərində cəza çəkmiş şəxslərlə birlikdə saxlanıldığı müşahidə edilmişdir ki, bu da milli qanunvericiliyin və beynəlxalq standartların pozulmasıdır. Ümumiyyətlə, müəssisədə müxtəlif kateqoriyadan olan şəxslərin ayrı saxlanılması ilə bağlı tələblərə riayət edilməməsi təcrübəsi davam edir. Belə ki, müəssisəyə keçirilən hər başçəkmədə yetkinlik yaşına çatmayan şəxsin yetkinlik yaşına çatanlarla birgə saxlanıldığı aşkar edilmişdir.

Sovqatların qəbulunun qeydiyyatının İstintaq təcridxanalarının daxili intizam Qaydalarının 9.3-cü bəndinin tələblərinə uyğun aparılmadığı, üç nüsxədən ibarət ərizə blankı doldurulmalı olduğu halda yalnız bir nüsxənin doldurulduğu, qaydalarda nəzərdə tutulsa da, həmin otaqda dərman vasitələri ilə təchiz edilmiş qutunun olmadığı müəyyən edilmişdir.

Təcridxananın tibbi-sanitariya hissəsindəki şəraitlə tanışlıq zamanı müəyyən edilmişdir ki, buradakı kameraların vəziyyəti digər korpuslardakı kameralarla müqayisədə sahələri daha genişdir, döşəmələri taxtadandır.

Tibbi-sanitariya hissəsində saxlanılan 3 nəfər əlilliyi olan şəxsin tibbi sənədlərinin içində həmin şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədi ilə Tibbi-sosial ekspert komissiyaları tərəfindən tərtib edilməli olan Fərdi Reabilitasiya Proqramlarının mövcud olmadığı müəyyən edilmişdir ki, bu da “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azəraycan Respublikası Qanununun 11-ci maddəsinin tələbinin pozulmasıdır.

Təcridxananın tibbi-sanitariya hissəsindəki baş həkimin otağına baxış zamanı dəmir seyfdə sənədlərlə yanaşı istifadəyə yararlılıq müddəti bitmiş “Depakin” preparatının da saxlanıldığı aşkar olunmuşdur. Bu hal həmin müəssisədə artıq uzun müddətdir ki, təkrarlanır.

Tibbi-sanitariya hissəsinin qeydiyyat jurnalları ilə tanışlıq zamanı həmin jurnalların əksəriyyətinin kargüzarlıq qaydalarına uyğun olaraq qaytanlanmadığı müəyyən edilmişdir. Həmçinin tənbeh tədbiri kimi cərimə təcridaxanasına salınmış şəxslərə həkimin gündəlik başçəkmələrinin qeydiyyatı aparılsa da, öz xahişi ilə və ya

qida qəbulundan imtina etdiyinə görə təknəfərlik kameraya keçirilmiş şəxslərə həkimin gündəlik başçəkmələrinin qeydiyyatı aparılmır.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin İstintaq Təcridxanasına (Naxçıvan şəhərindən 20 km aralıda olan Böyük Düz ərazisində yerləşir) baxış zamanı orada 36 nəfər saxlanılan şəxsin olduğu müşahidə edilmişdir. Həmçinin müəssisənin saxlanma şəraitinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Penitensiar Xidmətinin Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisəsinə (Kompleksinə)*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Müəssisədə son dövrlərdə bir sıra diqqətçəkən dəyişikliklər baş verdiyi qeyd olunmalıdır. İlk öncə müəssisənin adının dəyişdirilərək "Penitensiar Xidmətin Tərbiyə Müəssisəsi” ifadəsinin Penitensiar Xidmətin Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisəsi (Kompleksi) ilə əvəz edildiyi, müvafiq olaraq statusunun və fəaliyyət istiqamətinin genişləndirildiyi, artıq məhkum olunmuş və burada cəza çəkən məhkumlarla yanaşı yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin də burada saxlanıldığını (əvvəl bunun üçün Bakı İstintaq Təcridxanasında ayrıca korpus nəzərdə tutulurdu), Təcridxana korpusunun fəaliyyətə başladığı, islah prosesində bir sıra islahat xarakterli addımların atıldığı vurğulanmalıdır.

Müəssisədə xüsusi “Adaptasiya otağı” (kamerası) təşkil edilmişdir. Belə ki, bu otaqda müəssisəyə yeni köçürülən şəxslər bir neçə gün saxlanıldıqdan sonra müvafiq qaydada kameralara keçirilir. Bu otaqda saxlanılmaqla həmin şəxslər azadlıq hüququnun məhdudlaşdırılmasına tədricən uyğunlaşaraq psixoloji şok yaşamadan həmin rejimə adaptasiya olurlar. Adaptasiya otağında televiziya, video oyun konsolu, rahat yataq dəsti ilə təminat, təklikdə qalmaq imkanları nəzərdə tutulub. Eyni zamanda müəssisədə nümunəvi davranışı ilə seçilən məhkumlar da mükafatlandırma forması kimi bu otaqda 1-2 gün qalmaq hüququ əldə etmiş olurlar.

Müəssisədə həmçinin “Məişət otağı” deyilən xüsusi geyim otağı da təşkil edilib. Belə ki, nümunəvi davranışı, təhsilə, əməyə müsbət münasibət göstərən məhkumlar müəyyən ballıq şkala ilə qiymətləndirilərək həmin bal əmsalını toplayacağı təqdirdə bu otağa dəvət olunaraq sərbəst seçim əsasında burada təqdim olunan geyim və ayaqqabı dəstlərindən seçim edərək onları əldə edə bilirlər. MPQ üzvlərinin müşahidələri onu deməyə əsas verir ki, bu təcrübə məhkumlar arasında müsbət reaksiya ilə qarşılanmışdır.

Müəssisədə Türkiyə mədəniyyətinə məxsus “Ebru sənəti” otağının açıldığı, məhkumların asudə vaxtının təşkili üçün şahmat dərslərinin tədris edildiyi də müşahidə olunmuşdur.

MPQ üzvləri ölkə Ombudsmanının daim yeni yanaşmaların tətbiqinə çağırış etdiyini, bu tip təcrübələri öz məruzə və hesabatlarında təşviq etdiyini bildirərək, tətbiq edilən yeniliklərin genişləndirilməsini tövsiyə etmişlər.

Eyni zamanda bir sıra *nöqsan və çatışmazlıqların* aşkar edildiyi də qeyd olunmalıdır.

Müəssisədə çalışan psixoloqun təqaüdə çıxması ilə əlaqədar *peşəkar psixoloji işin aparılmadığı* narahatverici məqam kimi vurğulanmalıdır. Bu istiqamətdə təxirəsalınmaz addımların atılması, təcrübəli, peşəkar mütəxəssisin Penitensiar

Xidmət tərəfindən cəlb olunmasının vacibliyi müəssisə rəhbərliyinin diqqətinə çatdırılmışdır. Ombudsmanın psixi sağlamlıq məsələlərinə, xüsusilə yetkinlik yaşına çatmayan, çətin həyat şəraiti və qapalı şəraitdə saxlanılan şəxslərlə psixoloji işə diqqəti qeyd olunaraq ən qısa müddət ərzində bu məsələnin öz həllinin tapması üçün lazımi addımların atılmasının əhəmiyyəti qeyd edilmişdir.

Cəza çəkən şəxslərdən bir neçəsinin *şəxsiyyət vəsiqəsinin olmadığı* fərdi söhbət zamanı məlum olduqdan sonra məsələ ilə əlaqədar Ombudsmana ünvanlanmış müvafiq ərizələr alınmışdır.

Müəssisəyə əvvəlki monitorinqlər zamanı verilmiş tövsiyələrin nəticəsi olaraq camaşırxana üçün paltaryuyan təminatı həyata keçirilmişdir.

Bəzi şəxslər müəssisədə olan kitabxananın zənginləşdirilməsi, xüsusilə Azərbaycan dilində detektiv ədəbiyyatın olması istiqamətində kömək göstərilməsini xahiş etmişlər.

***Penitensiar Xidmətin 1 saylı cəzaçəkmə müəssisəsinə*** başçəkmə zamanı 992 nəfər məhkumun cəza çəkdiyi, bunlardan 15 nəfərinin cərimə təcridxanasında olduğu müəyyən edilmişdir. Bu sayda məhkumun eyni anda cərimə təcridxanasında olması müəssisədə tənbeh tədbirləri kimi cərimə təcridxanasına keçirilmə hallarının üstünlük təşkil etdiyinə dəlalət edir və müəssisədə islah işlərinin kifayət qədər aparılmadığına dair ehtimal verir. Cərimə təcridxanasının kameralarında kosmetik təmir aparılsa da, natəmiz şəraitin mövcud olduğu müşahidə edilmişdir.

Anbara baxış zamanı, burada ərzaq məhsullarının çatışmazlığı, ət məhsullarından yalnız toyuq ətinin olması müşahidə edilmişdir.

Başçəkmə çərçivəsində həyata keçirilən qəbullar zamanı, məhkumlar tibbi xidmətlərdən şikayət etmiş, həkim qəbuluna düşməyin çətin olduğunu, ümumiyyətlə müayinə və müalicə olunmaqda çətinliklə üzləşdiklərini bildirmişlər.

***Penitensiar Xidmətin 2 saylı cəzaçəkmə müəssisəsində*** də sıxlıq olduğu, 1200 nəfərlik müəssisədə başçəkmə günündə 1652 məhkumun cəza çəkdiyi müəyyən edilmişdir.

1941-ci ildə tikilmiş müəssisə binasının köhnəldiyi, müasir standartlara cavab vermədiyi müşahidə edilmişdir. Cərimə təcridxanasının 2 nəfərlik kameralarının saxlanma üçün uyğun olmadığı, havalandırma ilə bağlı problemin olduğu, xüsusilə isti havalarda ciddi çətinliklərə səbəb olduğu müəyyən edilmişdir.

Rəftar məsələlərinin öyrənilməsi məqsədilə konfidensial olaraq qəbul edilən bəzi məhkumlar Ombudsmanın 916 Çağrı Mərkəzinə edilən zənglərə qadağa qoyulduğunu bildirmişlər. Qeyd edilməlidir ki, müəssisədə məhkumların videogörüş keçirmək hüquqları da pozulur. Müəssisə rəisinin bununla bağlı mülahizəsi öyrənilərkən, bunu lazımi avadanlığın işləmədiyi ilə əlaqələndirmişdir.

Müəssisənin tibbi-sanitariya hissəsinin natəmiz olduğu müşahidə edilmişdir. Baş həkim müəssisədə olmadığından MPQ üzvləri tibbi sənədlərə baxış keçirə bilməmişdir. Müəssisədə dərman təminatının pis olduğu, xüsusilə nevroloji xəstəliklərdən (epilepsiya, serebral iflic və digər) əziyyət çəkənlər üçün dərmanların ümumiyyətlə verimədiyi müəyyən edilmişdir.

Burada həkim çatışmazlığı mövcuddur. Məhkumların Penitensiar Xidmətin Müalicə Müəssisəsinə göndərilməməsi ilə bağlı narazılıqlar var.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) tapşırığı əsasında Milli Preventiv Qrupun (MPQ) üzvləri tərəfindən növbəti başçəkmə ***4 saylı cəzaçəkmə müəssisəsinə*** həyata keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd məhkum qadınlarla rəftar, onların saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin, habelə daxil olmuş müraciətlərin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində 20-ə yaxın məhkum MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmişdir. Onlarla söhbət zamanı müəssisədə tibbi yardımla bağlı vəziyyətin acınacaqlı olduğu, tibbi xidmətin vaxtında və düzgün göstərilmədiyi müəyyən edilmişdir.

Bəzi məhkumlar səhhətlərindəki ciddi problemlərin mövcudluğuna baxmayaraq müəssisənin tibbi-sanitariya hissəsinin (TSH) rəisi və digər əməkdaşları tərəfindən zəruri müayinə və müalicələrin aparılmadığını, ümumiyyətlə TSH-nin baş həkimi tərəfindən qəbul edilməkdə problem yaşadıqlarını bildirmişlər. Fərdi söhbət aparılmış məhkumlar əksər hallarda TSH-nin baş həkiminin iş yerində olmamasından da şikayət etmişlər. Baş həkimin iş yerində olmaması müayinə və müalicə tədbirlərinin görülməsində gecikmələrə də səbəb olur ki, məhkum qadınlardan biri bu səbəbdən hər iki ayağında olan yaraların ağırlaşdığını bildirmişdir. Digər məhkum hamilə olduğu dövrdə ona lazımi diqqət ayrılmadığını, səhhətinə səhlənkar yanaşıldığını, vaxtında müayinə və müalicələrin həyata keçirilmədiyini, nəticədə övladının doğuşdan yeddi gün sonra vəfat etdiyini bildirmişdir.

Qeyd edilməlidir ki, MPQ üzvləri müəssisəyə son 3 başçəkmə zamanı tibbi xidmətlə bağlı araşdırmalar məqsədilə, o cümlədən qeyd edilən şikayətlərlə bağlı baş həkimin mülahizələrini öyrənmək istəsələr də, iş yerində olmaması səbəbindən onunla görüşə bilməmişlər.

Bəzi məhkumlar onlara dərman vasitələrinin verilmədiyini, bəzən bunun müqabilində ödəniş tələb edildiyini bildirmişlər. Müəssisənin TSH-nə baxış zamanı tibbi yardım üçün nəzərdə tutulmuş tibbi ləvazimatların (tibbi sarğı və s.) olmadığı və dərman vasitələrinin azlığı müşahidə edilmişdir.

***Penitensiar Xidmətin 5 saylı cəzaçəkmə müəssisəsinə*** başçəkmə zamanı cərimə təcridxanasında vəziyyətin qənaətbəxş olmadığı, təmirə ehtiyac duyulduğu, kameralarda oturacaqların, yemək üçün masanın olmadığı, məhkumların istifadəsinə verilmiş döşəklərin nazik və çirkli olduğu müşahidə edilmişdir. Həkimlərin cərimə təcridxanasında saxlanılan şəxslərə hər gün baş çəkmədiyi, olan başçəkmələrin isə formal xarakter daşıdığı məlum olmuşdur.

Burada karantin otağında daimi olaraq məhkumların saxlanıldığı, 2-ci mərtəbəsində isə heç bir şərait olmadan müəssisəyə daxil olan şəxslərin saxlandığı və döşəmədə yatdığı müəyyən olunmuşdur. Məhkumlarla rəftar məsələlərində də problemlər mövcuddur. Xüsusilə cəzaçəkmə müəssisəsinə yeni gələn məhkumlara

bəzi penitensiar müəssisələrdə mövcud olan “daş attırma” təcrübəsinin davam etdiyi müəyyən edilmişdir. Bu isə insan ləyaqətini alçaldan rəftar hesab edilə bilər.

Müəssisədə içməli su probleminin olduğu, verilən suyun kanaldan gəldiyi və natəmiz olduğu müəyyən edilmişdir. Artezian quyusunun qazılması ilə təmiz su ehtiyacını ödəmək olar. Məscidin kiçik olması səbəbi ilə eyni anda yalnız 40-50 nəfərin ibadət etməsinə şərait vardır ki, bu da sıxlığa səbəb olur. Poçt xidmətləri ləğv edildiyində pul köçürmələrində problemlər mövcuddur.

Müəssisənin tibbi sanitariya hissəsinə baxış zamanı çoxsaylı nöqsanlar aşkar edilmişdir. Baş həkim işdə olmadığından MPQ üzvləri həkim İbrahim Bağırlı ilə dəqiqləşdirmə aparılmışdır. Həkim xəstələrin sayını dəqiq bilmədiyini, xəstəlik tarixləri baş həkimdə olduğundan onları təqdim edə bilməyəcəyini bildirmişdir. Stasionar xəstələrin qeydiyyatı jurnalında 14 nəfərin qeydiyyatının aparıldığı, ancaq faktiki olaraq 15 məhkumun tibbi sanitariya hissəsində olduğu müəyyən edilmişdir. Halbuki, başçəkmənin əvvəlində müəssisə rəisi 12 nəfərin müalicə olunduğunu bildirmişdir. Qeyd edilməlidir ki, müalicə olunduğu bildirilən məhkumların bir neçəsinin adlarının stasionar xəstələrin qeydiyyatı kitabında qeyd edilmədiyi də müəyyən olunmuşdur. Həkimlərin davamiyyət jurnalına aylarla imza atılmadığı müşahidə olunmuşdur. Sadalanan məsələlər müəssisədə tibbi yardmla bağlı qeyri-ciddi yanaşmanın mövcudluğuna dəlalət edir. Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülmədə də problemlər mövcuddur.

Başçəkmənin gedişində həkim-stomatoloqun işdə olmadığı (başçəkmə günü icazəli olub), stomatoloji kabinetdə antisanitar vəziyyətin olduğu, natəmizlik və səliqəsizliyin hökm sürdüyü, istifadə edilmiş şpris və digər tibbi tullantıların ortalıqda olduğu, birdəfəlik zibil qutularından istifadə edilmədiyi müəyyən edilmişdir.

Antisanitar vəziyyətin manipulyasiya otağı üçün də xarakterik olduğunu söyləmək mümkündür. Ambulator xəstələrə dərman preparatlarının həmin otaqdan verilməsi  burada antisanitar vəziyyətin daha da pisləşməsinə və tibbi yardım üçün müraciət edən şəxslərə göstərilən tibbi yardımın keyfiyyətinə mənfi təsir edir.

Müəssisədə dərman təchizatında problemlərin olduğu, İİV/QİÇS və şəkərli diabetdən əziyyət çəkən şəxslər üçün dərmanların ümumiyyətlə olmadığı, həkimlərin şəxsi vəsaitləri hesabına şpris aldıqları müəyyən edilmişdir. Mövcud dərmanların isə saxlanma qaydalarına riayət edilmədən saxlanıldığı, 25 dərəcəyədək saxlanılması nəzərdə tutulan dərmanların heç bir havalandırma və kondisioner olmayan otaqda, 29 dərəcə temperaturda, soyuducuda saxlanılması tələb olunan preparatların da həmin otaqda açıq vəziyyətdə saxlanıldığı müşahidə edilmişdir.

Qeydiyyatla bağlı nöqsanlar da aşkar edilmişdir. Belə ki, tibbi sanitariya hissəsinin zədələrin qeydiyyatı kitabında 2024-cü il üçün 4 məhkumla bağlı qeydlər aparılsa da, 2 məhumla bağlı onların adlarından başqa heç bir əlavə qeydə (aldıqları xəsarətlər, göstərilən tibbi yardım və s.) rast gəlinməmişdir. Qeydiyyat kitabları arasında da uyğunsuzluq müşahidə olunmuşdur. Zədələrin qeydiyyatı kitabında məhkumun xəsarətinin olduğuna dair qeydlər aparılsa da, həmin tarixdə cərimə təcridxanasında qəbul zamanı məhkumun xəsarətlərinə dair heç bir qeyd olmamışdır.

***Penitensiar Xidmətin 7 saylı cəzaçəkmə müəssisəsinə*** başçəkmə zamanı müəssisənin obyektlərinə, o cümlədən cərimə təcridxanasına, tibbi-sanitariya hissəsinə, yeməkxanaya, mətbəxə, kitabxanaya və məscidə baxış keçirilmişdir.

Ümumi tutumu 1050 nəfərdən ibarət olan müəssisədə 1080 məhkumun cəza çəkdiyi, cərimə təcridxanasında 8, tibbi-sanitariya hissəsində 21 və karantində 10 məhkumun olduğu məlum olmuşdur. Müəssisə rəisi müəssisədə təmir-bərpa işlərinin aparıldığını, məscidin, hamamın, yataqxananın, görüş otağının, klubun, kitabxananın və mağazanın təmir olunduğunu, hazırda bu işlərin davam etdirildiyini qeyd etmişdir.

MPQ üzvləri tərəfindən qəbul edilmiş şəxslərin bəziləri məhkumların müəssisə əməkdaşları tərəfindən döyüldüklərini, Yaşar adlı əməliyyat rəisi tərəfindən kobud rəftara məruz qaldıqlarını, törətmədikləri əmələ görə cərimə təcridxanasına salındıqlarını, burada verilən paltarların natəmiz olduğunu və üfunət iyi verdiyini bildirmişlər. Cərimə təcridxanasına baxış zamanı orada saxlanılan məhkumların paltarlarının, yataq ləvazimatlarının natəmiz olduğu, kameralarda döşəmələrin yararsız vəziyyətdə olduğu, bəzi kameralarda su çanağının, həmçinin sanitar qovşağın qapısının olmadığı müəyyən edilmişdir. Ümumilikdə qeyd edilməlidir ki, müəssisənin cərimə təcridxanasının əsaslı təmirinə ehtiyac var.

Məhkumlar eyni zamanda qida keyfiyyətinin aşağı olduğunu, dərman çatışmazlığının mövcudluğunu bildirmişdir. Onlar müəssisəyə ilk dəfə daxil olan məhkumların əməkdaşlar tərəfindən döyüldükdən sonra karantin otağına keçirildiyini, oradan yaşayış binasına keçirilmələri üçün pul tələb edildini bildirmişlər. Ümumilikdə müxtəlif məqsədlərlə (tibbi-sanitariya hissəsinə keçirilmə və videogörüşlər üçün) məhkumlardan qanunsuz pul tələb edildiyinə, uzunmüddətli görüş otaqlarının imkanı olan məhkumlara satıldığına dair müraciətlər daxil olmuşdur.

Tibbi sənədlərlə tanışlıq zamanı stasionar xəstələrin qeydiyyatı kitabında hazırda burada müalicə olunan xəstələrə dair (yuxarıda qeyd olunduğu kimi, hazırda tibb-sanitariya hissəsində 21 xəstənin stasionar müalicə olunduğuna dair məlumat verilmişdir) heç bir qeydə rast gəlinməmişdir. Həmin xəstələrin əsas tibbi sənəd olan xəstəlik tarixlərində isə onların stasionar müalicəyə qəbul olunma tarixlərinin boş saxlanıldığı müəyyən edilmişdir ki, bütün bunlar burada saxlanılan şəxslərin hər hansı xəstəlikdən əziyyət çəkmədiyinə, onların rejimdən yayınmaq və imtiyazlı şərait əldə etmək məqsədilə buraya yerləşdirildiyinə dair əsaslı şübhələr oyadır. Həmin şəxslərlə aparılan söhbət, onların palatalarına keçirilən baxış, habelə xəstəlik tarixlərində göstərlən diaqnozlar yuxarıda göstərilən şübhələri bir qədər də artırır.

Dərmanların saxlama otağına baxış zamanı dərman təchizatının qənaətbəxş olmadığı (Baş həkim bunu tenderin keçirilməməsi ilə əlaqələndirmişdir) nəzərə çarpmışdır. Eyni zamanda burada soyuducunun işlək vəziyyətdə olmaması, habelə havalandırmanın kifayət qədər olmaması ilə bağlı nöqsanlar baş həkimin diqqətinə çatdırılmış, O, bunların dərhal aradan qaldırılacağını və təkrarlanmayacağını bildirmişdir.

***Penitensiar Xidmətin 13 saylı cəzaçəkmə müəssisəsinə*** keçirilən başçəkmə çərçivəsində cərimə təcridxanasına, tibbi-sanitariya hissəsinə, yeməkxanaya və digər obyektlərə baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, su təminatı, sovqat,

gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Burada da sıxlığın mövcud olduğu, 1050 nəfərlik müəssisədə başçəkmə günündə 1301 məhkumun cəza çəkdiyi müəyyən edilmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində müəssisədə tibbi xidmətin təşkili ilə bağlı problemin olduğu, həkim çatışmazlığının mövcudluğu aşkar edilmişdir. Burada tibbi sənədlərin, qeydiyyat kitablarının və xəstəlik tarixçələrinin düzgün tərtib edilmədiyi də müşahidə olunmuşdur.

Cəzaçəkmə müəssisəsinin rəhbərliyində dəyişiklikdən sonra burada təmir işlərinə başlanılsa da, cərimə təcridxanasında təmirə ehtiyacı var.

***Penitensiar Xidmətin 15 saylı cəzaçəkmə müəssisəsinin*** də tam dolu olduğu, 1050 nəfərlik müəssisədə başçəkmə günündə 1056 məhkumun cəza çəkdiyi müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən cərimə təcridxanasına baxış zamanı, bəzi kameralarda oturacaqların sayının saxlanılan məhkumların sayına adekvat olmadığı müşahidə edilmişdir. Cərimə təcridxanasına baxış zamanı kameralarda vəziyyətin qənaətbəxş olmadığı, təmirə ehtiyac duyulduğu və ümumiyyətlə şəraitin müvafiq standartlara uyğun olmadığı müəyyən edilmişdir. Məhkumların istifadəsinə verilmiş döşəklərin nazik və çirkli olduğu, sanitar qovşaqlarda qapıların olmadığı müşahidə edilmişdir. Cəzaçəkmə müəssisələrinin daxili intizam Qaydalarının 42-ci bəndinə əsasən cəzaçəkmə müəssisələrinin cərimə və intizam təcridxanaları, birnəfərlik kameraları çarpayılarla, döşəməyə bərkidilmiş mizlə və burada saxlanılması nəzərdə tutulmuş şəxslərin sayına uyğun oturacaqlarla təchiz olunmalıdır.

Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Penitensiar Xidmətin 16 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə çərçivəsində müəssisənin müxtəlif obyektlərinə baxış keçirilmişdir.

Rəftar və saxlanma şəraitinin araşdırılması məqsədilə bəzi məhkumlar qəbul edilmiş, konfidensial söhbət aparılmışdır.

Söhbət aparılan məhkumlardan biri müəssisədəki saxlanma şəraiti ilə bağlı narazılığını ifadə etmişdir. O, müəssisənin hamamında, sanitar qovşağında və yataqxanasında olan şəraitin qeyri-qənaətbəxş olduğunu, həmçinin suyun fasilələrlə verildiyini bildirmiş, bu istiqamətdə müvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Şəxsin qeyd edilən məsələlərlə bağlı Ombudsmana ünvanlanan ərizəsi MPQ üzvlərinə təqdim edilmişdir. O, müəssisə rəhbərliyi və digər əməkdaşların rəftarından, o cümlən məhkumlara verilən yeməklərin keyfiyyəti ilə bağlı narazılığının olmadığını qeyd etmişdir. Şəxsə Ombudsmanın səlahiyyətləri izah edilməklə hüquqi məsləhət verilmiş, habelə “916” Çağrı Mərkəzi vasitəsilə istənilən vaxt Ombudsmana maneəsiz müraciət edə biləcəyi izah olunmuşdur.

Qəbuldan sonra MPQ üzvləri tərəfindən müəssisənin hamam və sanitar qovşaqlarına baxış keçirilmiş, burada əsaslı təmir işlərinə ehtiyac olduğu müəyyən edilmişdir.

Yekunda müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, hamam və sanitar qovşaqlarında əsaslı təmir işlərinin görülməsi, habelə rəftarla bağlı tövsiyələr verilmişdir.

***Penitensiar Xidmətin Müalicə Müəssisəsində*** də bir sıra nöqsan və çatışmazlıqlar aşkar edilmişdir. Əvvəlcə qeyd etmək lazımdır ki, palatalarda sıxlığın olması (bir palatada 15-20 nəfərin saxlanılması, çarpayıların bir-birinə bitişik vəziyyətdə yerləşdirilməsi), oradakı şəraitin qənaətbəxş olmaması, yataq dəstlərinin nimdaş və natəmiz olması nəinki keyfiyyətli müalicə tədbirlərinin görülməsini mümkünsüz edir, burada müalicə alan şəxslərin qeyri-insani şəraitdə saxlanıldığını deməyə əsas verir. CPT tövsiyələrində qeyd edildiyi kimi, müəssisədə və ya onun bir hissəsində həddən artıq saxlanılan şəxsin olması insanın fiziki mövcudluğu nöqteyi-nəzərindən qeyri-insani və ya ləyaqəti alçaldan rəftar kimi qiymətləndirilir.

Eyni şöbədə (terapiya) şəraiti nisbətən qənaətbəxş olan 2-3 nəfərlik palatalardan istifadə isə şöbəyə yerləşdirmə zamanı məhkumlar arasında ayrı-seçkiliyə, imtiyazlı şəraitə yol verildiyinin, habelə korrupsiya elementinin göstəricisidir. Bəzi məhkumların ehtiyac olmadığı halda (məs., Rəsulov Allahverdi Ramiz oğlu 12.02.2024-cü il tarixdən allergik dermatit diaqnozu ilə müəssisədədir) müəssisədə uzun müddət saxlanılması da özü-özlüyündə suallar doğurur.

Operativliyin olmaması - müəssisəyə daxil olan xəstələrin ilkin diaqnozlar üzrə bölünməsi və müvafiq şöbələrə yerləşdirilməsində yubanmalar illərdir davam edir.

Müəssisədə KT və MRT müayinələrinin həyata keçirilməsi üçün müvafiq avadanlıqların olmaması xüsusi vurğulanmalıdır. Təcili MRT, KT, biopsiya kimi müayinələrə ehtiyac duyulan xəstələrin həmin müayinələrdən (digər tibb müəssisələrində) keçirilməsi işinin təşkilində də prosesin ləng getdiyi müşahidə olunur. (19.04.2024-cü il tarixdə müəssisəyə, 22.04.2024-cü il tarixdə isə nevrologiya şöbəsinə kəskin radikulopatiya diaqnozu ilə daxil olmuş şəxsə MRT müayinəsindən keçiriləcəyi barədə məlumat verilsə də, 22.05.2024-cü il tarixə qədər bu həyata keçirilməmişdir).

Müəssisədə ixtisaslı həkim-kadrların çatışmazlığı da xüsusi qeyd olunmalıdır.

CPT tövsiyələrində də qeyd olunur ki, həbsxana xəstəxanaları xəstələrə lazımi tibbi xidmət göstərilməsi və onların müalicəsi üçün zəruri olan avadanlıqlara, qurğulara və dərmanlara, habelə kifayət qədər ixtisaslı personala malik olmalıdır.

Eyni mərtəbədə, bir dəhlizdə yerləşən və bir birindən heç bir arakəsmə ilə ayrılmayan nevrologiya və dəri xəstəlikləri şöbələrinə aid xəstələr palatalarda da qarışıq şəkildə yerləşdirilir (eyni palatada olan xəstələrin bəziləri dəri xəstəliklər şöbəsinin, bəziləri nevrologiya şöbəsinin xəstəsi olduğunu bildirir).

Bundan əlavə, hətta infeksion xəstəliklər şöbəsinə aid olan bir xəstənin (Orucov Xanağa Rövşən oğlu) nevrologiya şöbəsində yerləşdirildiyi müşahidə olunmuşdur ki, məsələyə bu cür səhlənkar yanaşılması yoluxucu xəstəliklərin geniş yayılmasına, məhkumların qayıdacaqları müəssisələrdə də həmin xəstəliklərin yayılma riskini artırır.

Xəstəliyi ”Məhkumların cəza çəkməsinə mane olan ağır xəstəliklər Siyahısına” aid olan məhkumların Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin Xüsusi Həkim Ekspert Komissiyasına (XHEK) vaxtında təqdim olunmaması da əsas narahatedici məqamlardandır.

Başçəkmə günü müəssisədə Talıbov Elşən Asif oğlu adlı məhkumun “Mədə xərçənginin intoksikasiyası. Ağır dərəcəli anemiya” diaqnozu ilə xəstəlikdən vəfat etdiyi məlum olmuşdur. Müəssisə rəisi onun tibbi komissiya tərəfindən deyil, penitensiar müəssisə tərəfindən vaxtından əvvəl cəzadan azad edilməsi ilə bağlı sənədlərinin

məhkəməyə təqdim olunmasına dair qərar olduğunu, həmin gün üçün məhkəmə iclasının təyin olunduğunu, lakin adı çəkilən şəxsin məhkəmə iclasında iştirak etmədən vəfat etdiyini bildirmişdir. Söhbət zamanı müəssisə rəisi məhkumların ağır xəstəliyinə görə cəza çəkməkdən azad olunması məsələsində ciddi çətinliklərin olduğunu bildirmiş, bunu Siyahıda əsasən xəstəliklərin terminal mərhələsinin nəzərdə tutulması, həmçinin həkimlər tərəfindən terminal mərhələnin qiymətləndirilməsi zamanı bəzən yanlışlıqlara yol verilməsi ilə əlaqələndirmişdir.

Qeyd olunmalıdır ki, rəsmi məlumata əsasən, təkcə 2023-cü ildə Penitensiar müəssisələrdə xəstəliklər səbəbindən 163 ölüm hadisəsi baş vermiş, Tibb baş idarəsinin Xüsusi Həkim Ekspet Komissiyası tərəfindən həmin il 23 məhkumun məsələsi müzakirə edilmişdir. Onlardan 5 məhkuma “Məhkumların cəza çəkməsinə mane olan ağır xəstəliklərin Siyahısı”nda göstərilən xəstəliklərə uyğunluğu barədə rəy verilmiş, 4 məhkum isə məhkəmə qərarı ilə cəza çəkməkdən azad olunmuşdur.

Bu isə, ümumi məhkum sayına münasibətdə göstərici deyildir, Tibb Baş idarəsinin fəaliyyətinin təkmilləşdirilməsini, Xüsusi Həkim Ekspert Komissiyasının fəaliyyətinin effektiv mexanizm olaraq yenidən formalaşdırılmasını tələb edir.

Başçəkmə zamanı ağır xəstəliyi olan bir neçə şəxslə aparılan konfidensial söhbət zamanı onlar da XHEK-ə təqdim olunmamalarından və Komissiyanın fəaliyyətsizliyindən şikayətlənmişlər.

Mülki səhiyyə ilə əlaqələrin zəif olması - ağır xəstələrin yalnız müəssisənin gənc həkimlərinə etibar edilməklə, onların yüksək elmi dərəcəli (tibb üzrə fəlsəfə doktoru, tibb elmləri doktoru) mütəxəssislər tərəfindən müayinəsinin, habelə yüksək səviyyəli konsiliumların (dosent, professor) təşkil olunmaması da həmin xəstələrin həyatına laqeydlik kimi qiymətləndirilə bilər.

CPT tövsiyələrinə əsasən ixtisaslı müalicə tələb edən məhkumlar istər azadlıqdan məhrumetmə yerində mütəxəssis məsləhəti almaq vasitəsilə, istərsə də bu cür mütəxəssisin yanına aparılmaqla həmin müalicəni almaq imkanına malik olmalıdırlar. Eyni zamanda, azadlıqdan məhrum edilmiş şəxslərə göstərilən tibbi xidmətin keyfiyyəti penitensiar sistemdən kənardakı xidmətin keyfiyyətinə ekvivalent olmalıdır.

Təsadüfi seçim əsasında baxılan xəstəlik tarixlərinin doldurulmadığı müşahidə olunmuşdur ki, bu da həmin şəxslərin xəstəlikləri, onların hazırki vəziyyəti barədə lazımi informasiya almaqda çətinlik yaratmaqla yanaşı, həkimlərin bu əsas tibbi sənədə laqeyd yanaşmalarını nümayiş etdirir (təsadüfi seçim əsasında baxdığımız xəstəlik tarixlərində Qəmbərov Şükür Eldəniz oğlu, Quliyev Ramin, Rəsulov Allahverdi Ramiz oğlu, Məmmədov Səid İkram oğlunun yalnız müəssisəyə daxil olarkən aparılan laborator-instrumental müayinələrin nəticələri və təyinatdan başqa heç bir əlavə qeyd olmadığı aşkar olunmuşdur).

Müəssisədəki dərmanların saxlama yerinə baxış zamanı dərman təchizatının qənaətbəxş olmadığı, xroniki xəstələrin dərman təminatında (şəkərli diabet, hipertoniya, bronxial astma, o cümldən onkoloji xəstələr) ciddi çatışmazlığın olduğu, xəstələrə dərmanların onların ailə üzvləri tərəfindən gətirildiyi məlum olmuşdur. Müəssisə əməkdaşları tərəfindən keçən ilin oktyabr ayından müəssisəyə dərman preparatlarının verilmədiyi, hətta şok əleyhinə peraparatların təchizatında

çatışmazlıqların olduğu bildirilmiş, bunun hazırki vaxta qədər tenderin keçirilməməsi ilə əlaqəli olduğu qeyd edilmişdir.

Konfidensial qəbul zamanı bəzi şəxslər onlardan müalicə tədbirlərinə cəlb olunmaları və orada saxlanılmaları müqabilində qanunsuz pul tələb olunmasından, dərmanlarının verilməməsindən, tibbi sənədlərinin TSEK-ə göndərilməməsindən şikayət etmişlər.

Qeyd olunanlardan əlavə, nəzərə alsaq ki, hazırda Müalicə Müəssisəsində 650-dən, İxtisaslaşdırılmış Müalicə Müəssisəsində 450-dən çox şəxs (bütün məhkum və təqsirləndirilən şəxslərin 5 faizə qədəri) eyni anda stasionar müalicəyə cəlb olunub, bu göstərici yerlərdəki (cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları) işin də düzgün təşkil olunmadığını düşünməyə əsas verir.

Penitensiar müəssisələrdə ağır xəstəliklərdən əziyyət çəkən məhkumların seçimi və onların Müalicə Müəssisəsinə köçürülməsi işində də ciddi nöqsanlar mövcuddur ki, bu da bəzən onları Müalicə Müəssisəsinə köçürülmələri üçün özlərinə xəsarət yetirmək və ya yad cisim udmaq kimi ciddi etiraz formalarına əl atmağa sövq edir. Tibbi yardım xahişinin rədd edilməsi isə, beynəlxalq standartlara əsasən qəddar rəftara bərabər sayıla bilər.

Müxtəlif səbəblərdən xəsarətlər almış şəxslərin xəsarətlərinin gizlədilməsi məqsədilə Müalicə Müəssisəsinə köçürülməsi kimi halların da mövcudluğu nəzərə alınmalıdır.

Ümumilikdə müəssisənin əsaslı təmirinə və ya yeni müəssisənin tikintisinə, müasir tibbi avadanlıqlarla təchiz olunmasına, peşəkar kadrların işə cəlb edilməsinə, mülki səhiyyə ilə əlaqələrin genişləndirilməsinə və yuxarıda sadalanan digər istiqamətlərdə əməli tədbirlərin görülməsinə ehtiyac olduğu bir daha qeyd olunmalıdır.

MPQ üzvləri tərəfindən ***10 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinə*** plan üzrə başçəkmə həyata keçirilmişdir.

Müəssisə rəisi məlumat verərək 150 nəfərlik saxlama limiti olan cəzaçəkmə müəssisəsində başçəkmə günü 190 nəfər cəzaçəkən şəxsin qeydiyyatda olduğunu bildirmişdir.

Başçəkmə çərçivəsində müəssisənin cərimə təcridxanasına, mətbəxinə, yataqxanasına və digər obyektlərinə baxış keçirilib, məhkumların saxlanma şəraiti, rəftar məsələləri, sağlamlıq, qidalanma, telefon danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti yerində araşdırılıb.

Müəssisə əməkdaşları arasında psixoloq, həkim və ya feldşer ixtisaslı əməkdaşın olmaması müəyyən edilmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 19 noyabr 2010-cu il tarixli 16-T nömrəli əmri ilə təsdiq edilmiş Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının 205-ci bəndinə əsasən şəxsi baxış keçirən şəxs üzərində baxış keçirilən şəxslə eyni cinsdən olmalıdır. Lakin məntəqədə zabitlər və nəzarətçilər arasında qadın əməkdaş olmadığından qadın məhkumarın üzərinə axtarış-baxış mülki işçilər olan qadınlar tərəfindən aparılır ki, bu da həmin işçilərin vəzifə funksiyalarına aid olmayan işlərə cəlb olunmaları ilə nəticələnir.

Müəssisənin inzibati binasında mövcud olan otaqların təmirə ehtiyacı olması müəyyən edilmişdir.

Müəssisənin həyətində yerləşən məhkumlar üçün sanitar qovşaqda anti-sanitar vəziyyətin mövcud olduğu, müəssisə hamamının əsaslı təmir işlərinə ehtiyac olduğu müşahidə edilmişdir.

Cəzaçəkmə müəssisələrinin daxili intizam Qaydalarının məntəqə tipli cəzaçəkmə müəssisələrinin quruluşunun xüsusiyyətlərinə dair 5-ci fəslinin tələblərinə baxmayaraq müəssisədə kitabxananın, camaşırxananın, məhkumların şəxsi əşyalarının saxlanılması üçün anbarın və ticarət köşkünün mövcud olmadığı da müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsininin 119.2-cü maddəsinə əsasən məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumların kommunal, yemək, maddi-məişət, tibbi-sanitariya və digər təminatlarının dövlət hesabına həyata keçirilməli olduğu qeyd edilsə də müəssisədə qeyd edilən təminatlar üçün heç bir imkanın olmadığı müəyyən edilmişdir. Müəssisənin mətbəxinin köhnə və istifadəyə yararsız olduğu, zəruri qab-qacaqla təmin olunmadığı müəyyən edilmişdir. Müəssisə rəhbərliyi qida təminatı üçün dövlət büdcəsindən ayırma olmadığından saxlanılan məhkumların yemək təminatının müəssisə əməkdaşları tərəfindən təmin edildiyini bildimişdir.

Müəssisədə tibb-sanitariya hissəsi də təşkil olunmamışdır. Eyni zamanda ştatda tibb işçisinin olmadığı, müəssisəyə məhkumların qəbul edilməsi və xaric olunma zamanı tibbi müayinələrin aparılmadığı müəyyən edilmişdir. Həkimə ehtiyacı olan məhkumların tibbi müayinəsinin həyata keçirilməsi üçün Dəliməmmədli şəhərində yerləşən xəstəxanadan təcili tibbi yardım həkimlərinin çağrıldığı bildirilmişdir.

Cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına əsasən cərimə təcridxanası digər tikililərdən bütöv hasarla ayrılır. Buna baxmayaraq başçəkmə zamanı məntəqədəki cərimə təcridxanasının inzibati binanın içində təşkil olunduğu müəyyən edilmişdir. Qeyd olunmalıdır ki, 2024-cü il ərzində müəssisədə cərimə təcridxanasına keçirilməsi halı qeydə alınmamışdır.

Başçəkmə zamanı, müəssisənin qeydiyyat jurnallarına- baxış keçirilmiş və bir sıra çatışmazlıqlar aşkarlanmışdır. Belə ki, Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə nəzərdə tutulmağına baxmayaraq müəssisədə Məhkumların ünvanına daxil olmuş bağlama və banderollarda olan malların qeydiyyatı jurnalının, habelə məhkumların telefon danışıqlarının qeydiyyatı jurnalının mövcud olmadığı aşkarlanmışdır.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsininin 119.1.5-ci maddəsinə əsaəsn məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkumlar gündə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışa və ya videogörüş keçirə bilərlər. Qanunvericiliyin qeyd olunan müddəasına baxmayaraq məntəqədə telefon danışığı məntəqəsinin olmadığı, həmçinin telefon danışıqlarının qeydə alınmadığı müəyyən edilmişdir.

***Penitensiar Xidmətin 16 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

MPQ üzvləri saxlanma şəraiti, rəftar məsələlərinin araşdırılması məqsədilə müəssisədə saxlanılan şəxslərlə konfidensial görüş keçirmişlər. Saxlanılan şəxslərdən biri müəssisənin hamamında, sanitar qovşağında və yataqxanasında olan şəraitin

qeyri-qənaətbəxş olduğunu, həmçinin suyun fasilələrlə verildiyini bildirmiş, bu istiqamətdə müvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. O, bununla bağlı ərizəsini MPQ üzvlərinə təqdim etmişdir. Həmin şəxs müəssisə rəhbərliyi və digər əməkdaşların rəftarından, o cümlən məhkumlara verilən yeməklərin keyfiyyəti ilə bağlı narazılığının olmadığını qeyd etmişdir.

MPQ üzvləri tərəfindən ***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qarışıq Tipli Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir. Bütün rejimlərin əhatə olunduğu, 500 məhkum üçün nəzərdə tutulmuş müəssisədə başçəkmə günü 210 məhkumun (2-i qadın) olduğu, yetkinlik yaşına çatmayan şəxsin olmadığı, istehsalat sahələrində 20-ə yaxın məhkumun işlədiyi, cərimə təcridxanasında 2 məhkumun olduğuna dair məlumat verilmişdir.

Saxlanma şəraiti və rəftarla bağlı məsələlərin öyrənilməsi məqsədil\ bəzi məhkumlar təsadüfi seçim əsasında və konfidensial olaraq qəbul edilmişlər. Həmin şəxslər hər hansı narazılıq bildirməmiş, onlara ombudsmanın səlahiyyətləri, o cümlədən əfvlə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər verməsi üzrə fəaliyyətinin əsasları izah olunmuşdur.

Cəzaçəkmə müəssisinə baxış zamanı bəzi nöqsanlar, bunlardan sağlamlıq və tibblə, gəzinti yerinin 1/3 hissəsinin üstünün örtülü olmaması, bəzi su kranlarının işləməməsi, mətbəxdə hazırlanmış yeməklərin nümunələrinin saxlanılmaması aşkar edilmişdir.

### 2.2.3. Səhiyyə Nazirliyinin müəssisələri

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2024-cü il ərzində Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Səhiyyə Nazirliyinin müəssisələrinə 25 başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd bu müəssisələrdəki saxlanma şəraiti, pasiyentlərlə rəftar, tibbi yardımın təşkili vəziyyəti, saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

***2 saylı Kliniki Psixiatriya Xəstəxanasına*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə müalicə alan şəxslərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti, saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin və əvvəlki başçəkmə zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

Müəssisədə təcrid otağı yoxdur. "Xəstələrin sarınma və bağlanma" jurnallarında bir sıra nöqsanlar aşkar edilmişdir.

Başçəkmə zamanı qadın şöbəsinin pasiyenti G.A. ilə söhbət zamanı o, digər bir

pasiyent tərəfindən döyüldüyünü bildirmiş sübut kimi sol budunda mövcud xəsarət izini göstərmişdir. Məsələ araşdırılarkən, əməkdaşlar tərəfindən akt təqdim edilmiş, G.A.-nın çarpayasından qalxan zaman yıxıldığı, xəstəliyi ilə əlaqədar (F23) sayıqlama fikirlərinin olduğu vurğulanmışdır.

Saxlanma şəraitinin araşdırılması zamanı müəssisənin əsaslı təmirə ehtiyacının olduğu, divarlarda yüksək rütubət nəticəsində qabarmaların yarandığı, o cümlədən qadın və kişi şöbələrində sıxlıq olduğu, bu səbəblə çarpayıların bitişik yerləşdirildiyi müəyyən olunmuşdur.

Başçəkmə zamanı sənədləşməyə aid bir sıra nöqsanlar aşkar edilmişdir. Belə ki, təsadüfi seçim nəticəsində müəssisənin pasiyenti S.N.-nin sənədləri araşdırılan zaman, onun 21.08.2024-cü il tarixdə xəstəxanaya məlumatlandırılmış razılığı olmadan qeyri-könüllü yerləşdirildiyi, bununla bağlı qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin olmadığı müşahidə edilmişdir. Müəssisənin qadın, kişi və qarışıq şöbələrinin “Xəstələrin sarınma və bağlanma” jurnallarında bəzi hallarda pasiyentlərin sarınma vaxtı göstərilsə də, açılması ilə bağlı saatın qeyd edilmədiyi, çoxsaylı düzəlişlərin olduğu aşkar edilmişdir.

Müəssisəyə 2023-cü ildə həyata keçirilmiş başçəkmə zamanı gündüz stasionar şöbəsində uşaqların qəbul edilməsi üçün xüsusi hissənin olmadığı, onlara fərq qoyulmadan böyüklərlə eyni şəraitdə xidmət göstərildiyi müşahidə edilmiş, bu və digər nöqsanlarla bağlı Səhiyyə Nazirliyinə məktub ünvanlanmışdır. Qeyd edilməlidir ki, artıq uşaqların və böyüklərin qəbulunun xüsusi cədvəl üzrə fərqli günlərdə həyata keçirilməsinə başlanmışdır. Lakin fəaliyyətin təkmilləşdirilməsinə ehtiyac var.

Adətən pasiyent və ya onların yaxınlarının təyin olunmuş bütün dərmanları eyni vaxtda almağa maddi imkanları çatmır, qaydalara əsasən resept aptekdə qaldığından şəxs yeni resept üçün təkrar xəstəxanaya (həkimə) müraciət etmək məcburiyyətində qalır, bu isə prosesin bütün tərəfləri üçün problem yaradır. Həkim eyni resepti yaza bilmir, çünki hüququ yoxdur, pasiyent isə dərmanları olmadığından müalicəni tam apara  (həkim – eyni resepti yaza bilmir, çünki hüququ yoxdur, pasiyent – müalicəsini davam etdirə bilmir, çünki dərmanları yoxdur). Elektron resept sisteminin geniş tətbiqi bu problemin aradan qalxmasına faydalı olar.

Müəssisədə sosial-psixoloji reabilitasiya tədbirlərinin demək olar ki, aparılmadığı, müalicənin farmako-terapiya ilə məhdudlaşdığı müəyyən olunmuşdur. Bu tip müəssisələrdə müalicəni farmako-terapiya ilə məhdudlaşdırmamağı, psixo-sosial reabilitasiya tədbirlərinin müasir standartlara uyğun təşkil olunmasını, o cümlədən əmək terapiyasının uzun müddətli müalicənin tərkib hissəsinə çevrilməsini, pasiyentlərin müalicə planlarının tərtibatında iştirakının dəstəklənməsini, xüsusi istehsalat sahələrinin yaradılmasını, hər bir pasiyent üçün müalicə məqsədlərini, terapiya üsullarını və müalicəyə cavabdeh olan əməkdaşların adlarının əks olunduğu fərdi müalicə planının tərtib olunmasını tövsiyə edirik.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və əməkdaşları ilə söhbət aparılmış, müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunmuş, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmiş, o cümlədən 916 Çağrı mərkəsizinin plakatı və məlumat xarakterli broşurlar təqdim edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ***Gəncə Psixiatriya Xəstəxanasına*** başçəkmələr həyata keçirilmişdir.

Müəssisədə bəzi həkim ştatlarının vakant olması çoxsaylı pasiyentləri olan xəstəxana üçün əsaslı çətinliklər yaradır və pasiyentlərə keyfiyyətli ixtisaslaşdırılmış psixiatrik yardımların göstərilməsinə imkan vermir.

2020-ci ildə yeni istifadəyə verilmiş beşmərtəbəli psixiatriya xəstəxanasında şərait qənaətbəxş olsa da, xəstəxananın şöbələrində görüş otaqlarının mövcud olmadığı, qayğı otağı kimi istifadə olunan, xüsusilə ağır dəcərəli pasiyentlər üçün nəzərdə tutulmuş dəmir qapılı palataların bəzilərində su krantlarının işlək olmadığı, şöbələrdəki pasiyentlər üçün sanitar qovşaqların və hamamların cari təmirinə ehtiyac olduğu müşahidə olunmuşdur.

Dərman təminatı araşdırılarkən müşahidə edilmişdir ki, xəstəxananın aptekində havalandırma sistemi işləmir, psixotrop maddələrin ayrıca dəmir seyfdə deyil, digər dərmanlarla birgə ümumi dolablarda saxlanılır. Müəssisəyə təkrar başçəkmə zamanı dərman preparatları üçün nəzərdə tutulan soyuducunun mövcud olduğu, lakin psixotrop maddələrin hələ də dəmir seyfdə saxlanılmadığı müşahidə edilmişdir.

Xəstəxanın 3-cü kişi şöbəsində stomatoloji kabinet və ixtisaslı kadr - stomatoloq olsa da, həmin kabinetin zəruri stomatoloji alət və vasitələrlə təchiz olunmadığı müşahidə edilmişdir ki, bu da çoxsaylı pasiyentləri olan xəstəxanada keyfiyyətli stomatoloji xidmətin göstərilməsinə imkan vermir. Xəstəxanada bütün növdən olan yumşaq inventarların, yuyucu və təmizləyici vasitələrin olmasına baxmayaraq pasiyentlər üçün diş pastası və diş fırçalarının mövcud olmadığı müəyyən edilmişdir.

Dördüncü şöbəyə (qadınların müalicəsi və reabilitasiyası) başçəkmə zamanı əvvəlki başçəkmələr zamanı müəyyən olunmuş bir sıra nöqsanların aradan qaldırılaraq dərmanların yararlılıq müddətlərinə nəzarət olunduğu, şöbədə dərman vasitələrinin rəsmi qeydiyyat vərəqələrinin qanunvericiliyə uyğun tərtib olunduğu müəyyən edilmişdir.

Uşaq şöbəsindəki palatalarda və tibb otaqlarında şəraitin qənaətbəxş olduğu müşahidə edilsə də, uşaqların farmakoterapiyadan əlavə müasir terapiya metodlarına uyğun müalicəsi üçün zəruri inventarlarla, oyuncaqlarla təchiz edilmiş otağa ehtiyac olduğu müəyyən edilmişdir.

Şöbələrdə pasiyentlərin yaxınları ilə görüşmələri üçün görüş otaqları, həmçinin telefon danışığı üçün otağın mövcud olmadığı müəyyən edilmişdir.

Digər şöbələrdən fərqli olaraq xəstəxananın ikinci şöbəsində tətbiq edilən fiziki məhdudlaşdırma və ya təcrid etmə tədbirlərinin qeydiyyatının aparılmadığı müəyyən edilmişdir. Bu isə "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununun 24.2-ci maddəsinin tələblərinin pozulmasıdır.

Müəssisəyə birinci başçəkmə günü ümumilikdə 60 yaxın nəfər əlilliyi olan pasiyent saxlanılsa da, onların müalicəsi və ehtiyacları üçün xüsusi yanaşmanın tətbiq edilmədiyi, gündəlik menyuda əlilliyi olan şəxslərin ehtiyaclarının nəzərə alınmadığı müyyən edilmişdir.

Müəssisə sakinlərindən əlillliyi olan şəxslərin şəxsi işlərinin içində həmin şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədi ilə Tibbi-sosial ekspert komissiyaları tərəfindən tərtib edilməli olan Fərdi Reabilitasiya Proqramları mövcud deyil ki, bu da "Əlilliyi olan şəxslərin hüquqları

haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin tələbinin pozuntusu sayılmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi" ilə bağlı müddəalara əsasən xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün tibbi-sosial ekspertizanın keçirilməsinin təşkil edilməsi nəzərdə tutulsa da, müəssisənin sakinlərinin əksəriyyətinin əlilliyi qiymətləndirilməyib və müəssisənin TSEK-na göndəriş vermək hüququ olsa da həmin pasiyentlərin müvafiq göndərişləri təmin edilməyib.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 23.5-ci maddəsinə əsasən, şəxs psixiatriya stasionarında olduğu bütün dövr ərzində əmək qabiliyyəti olmayan sayılır və qanunvericilikdə müəyyən olunmuş qaydada müavinət, yaxud ümumi əsaslarla pensiya almaq hüququna malikdir. Lakin xəstəxanadakı pasiyentlərin əksəriyyətinin əlilliyinin qiymətləndirilməməsi onların qanunla nəzərdə tutulmuş həmin hüquqlarının həyata keçirilməsinə imkan vermir.

Müəssisədən verilən məlumata əsasən TSEK tərəfindən xüsusi məktəblərdə təhsil alan uşaqların əlilliyinin qiymətləndirilməsi zamanı göndərilən bütün elektron göndərişlərə imtina verilir ki, bu da qanunvericiliklə imtina üçün əsas yaratmadığından həmin şəxslərin hüquqlarının pozulması, haqlı narazılıqların yaranması ilə nəticələnir.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində psixiatriya stasionarında müayinə və müalicə olunan pasiyentin hüquqları, o cümlədən nəzarətsiz məktublaşmaq, bağlama, banderol və pul baratları almaq və göndərmək, telefondan və digər rabitə vasitələrindən istifadə etmək, yaxınları ilə görüşmək hüquqları təsbit olunub. Həmin hüquqların həyata keçirilməsinin qeydiyyatının aparılması müəssisədə saxlanılan şəxslərin hüquqlarının təminatı, pasiyentlərə qarşı sui-istifadə hallarının və laqeyd münasibətlərin qarşısının alınması üçün zəruri olsa da müvafiq qeydlər aparılmır. Ümumiyyətlə, müəssisədə pasiyentlərin hüquq və vəzifələri haqqında məlumatlandırıcı lövhələrin də quraşdırılmasına ehtiyac var.

Xəstəxanada hazırda müalicə alan şəxslərin yaxınları tərəfindən ziyarət edilmələrinə məhdudiyyət tətbiq edilir və bu məhdudiyyət AR NK-nin Xüsusi karantin rejimi ilə bağlı tədbirlər haqqında 11 mart 2024-cü il tarixli qərarı ilə əsaslandırılır.

Sonda müəssisənin baş həkimi və əməkdaşları ilə Ombudsmanın MPM mandatı, xəstəxanadakı mövcud çatışmazlıqlar barədə müzakirə aparılıb. Saxlanma şəraiti, rəftar məsələləri və sənədləşmədə olan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunub, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilib.

Gəncə Psixiatriya Xəstəxanasına təkrar başçəkmə zamanı müəssisənin anbarına baxış keçirilmiş, orada saxlanılan qida məhsullarının norma qaydalarına uyğun saxlanıldığı, soyuducuların işlək vəziyyətdə olduğu müşahidə edilmişdir.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 30.0.8-ci maddəsinə əsasən dini ayinlərin sərbəst və digər pasiyentlərə mane olmadan icrası üçün müvafiq qaydalar və yerlər müəyyənləşdirmək psixiatriya stasionarı

müdiriyyətinin və tibb heyətinin vəzifələrinə daxil olsa da, bu məqsədlə xüsusi yer ayrılmamışdır.

MPQ üzvləri bəzi pasiyentlərlə təsadüfi seçim əsasında görüş keçirmiş, saxlanma şəraiti və rəftar məsələləri ilə bağlı onların fikirlərini öyrənmişlər. Saxlanma şəraitindən şikayət daxil olmasa da, bəzi pasiyentlər yemək zamanı çörəyin miqdarının az olduğunu, habelə gəzinti məqsədilə müəssisənin həyətinə çıxarılmada çətinliklə üzləşdiklərini bildirmişlər.

Müəssisə rəhbərliyi pasiyentlərə çörəyin az verilməsini müəssisədəki gündəlik çörək normasının az olması ilə (gündəlik 350 qr) izah etmişdir. Həmçinin bir pasiyentin qidalanması üçün gündəlik xərcin 7,86 AZN (yeddi manat, səksən altı qəpik) olduğu qeyd edilmişdir. Bu məbləğoin pasiyentlərin kifayət qədər kalorili qidalarla təminatına imkan vermədiyini, həmçinin əlilliyi olan pasiyentlərin və uşaqların xüsusi qida ehtiyaclarına adekvat olmadığını düşünürük.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ***Qazax Psixiatriya Xəstəxanasına*** plan üzrə başçəkmələr həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, hospitallaşdırılmış pasiyentlərin hüquqlarının təmin olunması, müvafiq sənədləşmənin aparılması, həmçinin dərman preparatlarının saxlanılması, keyfiyyəti, əvvəlki başçəkmələr zamanı qeyd olunmuş çatışmazlıqların aradan qaldırılması vəziyyətinin öyrənilməsi olmuşdur. Bununla bağlı xəstəxananın bütün ərazisinə, yataq və tibb otaqlarına, yeməkxanaya və digər obyektlərə baxış keçirilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, su təminatı, gəzinti ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

100 çarpayılıq müəssisəyə birinci başçəkmə zamanı 42-i qadın, 52-i kişi olmaqla 94 nəfərin stasionar müalicə aldığı, həmin pasiyentlərdən 51-nin əlilliyi olan şəxslər olduğu, digərlərinin isə əlilliyinin qiymətləndirilmədiyi, pasiyentlərin hamısının 18 yaşından yuxarı olduğu, həmin tarixdə psixiatriya stasionarında qeyri-könüllü müalicə alan pasiyentin olmadığı, pasiyentlərin məlumatlandırılmış razılıq əsasında könüllü müalicə aldıqları bildirilmişdir. Müəssisədə saxlanılan xəstələrin gündəlik dərman təminatı üçün 1 manat, ərzaq təminatı üçün isə 4.54 manat vəsait ayrılır. Ərzaq təminatında problem olmasa da, dərman təminatının məhdud olduğu, bir çox psixotrop dərmanların az verilməsinin xəstəxanada müalicə prosesinə əsaslı çətinliklər törətdiyi bildirilmişdir.

Ştat cədvəli üzrə 147 nəfərin işləməli olduğu müəssisədə pasiyentlərə psixiatrik yardım göstərilməsi üçün əsas olan ştatlardan 16 nəfər həkim ştatından 10 ştatın (60 faiz), 43 nəfər orta tibb işçisi ştatından 22 ştatın (50 faiz) vakant olduğu bildirilmişdir. Müəssisəyə növbəti başçəkmə zamanı vəziyyət biraz da pisləşmişdir. Belə ki, vakant olan orta tibb işçisi sayı 23 olmuşdur. Qeyd olunan hal pasiyentlərə keyfiyyətli ixtisaslaşdırılmış psixiatrik yardımın göstərilməsinə imkan vermir.

Başçəkmə zamanı xəstəxanada yalnız farmakoterapiyadan istifadə olunduğu, musiqi, incəsənət, idman kimi terapiyalardan istifadə olunmadığı və bu sahədə xəstəxanada zəruri infrastrukturun mövcud olmadığı əmək və asudə vaxtın səmərəli təşkilində problemlər müşahidə edilmişdir.

Xəstəxananın dərmanların saxlanılması üçün istifadə olunan otağına baxış zamanı əvvəlki başçəkmə zamanı aşkar edilmiş nöqsanların aradan qaldırıldığı, həmin

otağın qapısının və pəncərəsinə dəmir barmaqlıqların konstruksiya edildiyi, yararlılıq müddəti ötmüş dərman preparatlarının mövcud olmadığı, dərman vasitələrinin rəsmi qeydiyyat vərəqlərinin tərtib olunduğu, xüsusi saxlanma rejimi tələb edən dərman preparatların yararlıq müddətləri ərzində keyfiyyətini itirməməsi üçün otağın müvafiq soyuducu ilə, psixotrop maddələrin saxlanılması üçün isə dəmir seyf ilə təchiz olunduğu müşahidə olunmuşdur.

Bununla yanaşı müəssisənin tonometr və alkotesterlərlə təchizatına ehtiyac var.

Müəssisənin ümumi ərazisinə və bütün mövcud olan tibb otaqlarına, palatalara baxış zamanı MPQ üzvləri tərəfindən əvvəlki başçəkmə zamanı qeyd olunmuş şəraitlə bağlı nöqsanların davam etdiyi, binanın əsaslı təmirə ehtiyacı olduğunu, xüsusilə də sanitar qovşaqda və hamamda natəmizliyin və anti-sanitariyanın hökm sürdüyünü, xəstəxanada müalicə alan pasiyentlərin bəzilərinin bədənlərinə zərər verici həşaratların (bit, birə və sair) ziyan vurduğu müəyyən edilmişdir.

Xəstəxanada əsas korpusda mövcud olan sanitar qovşaqlar yararsız olduğundan istifadə edilmir. Həm qadın, həm də kişi pasiyentlər xəstəxananın həyətində mövcud olan, şəraitsiz və anti-sanitar vəziyyətdə olan ümumi sanitar qovşaqdan istifadə edirlər. Eyni zamanda yaşlı pasiyentlərin və əlilliyi olan şəxslərin də ehtiyacları nəzərə alınmaqla sanitar qovşaqlarda zəruri avadanlıqla təmin edilməlidir. Pasiyentlərin istifadə etdiyi hamamın da anti-sanitar vəziyyətdə olduğu müşahidə edilmişdir.

Xəstəxananın əsas korpusunun su təminatı o, cümlədən içməli su təminatı mövcud olmadığından cari təmizlik və gündəlik içməli su məqsədilə pasiyentlər xəstəxananın həyətindəki bulaqdan müxtəlif qablarla su daşıyırlar ki, bu da ümumi qablardan istifadə nəticəsində infeksion xəsətliklərin yayılmasına, həmçinin anti-sanitar vəziyyətin yaranmasına səbəb ola bilər.

Başçəkmə zamanı müəssisədə ərzaq anbarı kimi istifadə olunan otağın əsaslı təmirə ehtiyacı olduğu, bir sıra qida məhsullarının – yumurta və süd məhsullarının saxlanılması qaydalarına riayət olunmadığı, həmin məhsulların soyuducuda yox, açıq yerdə saxlanıldığı, həmçinin xəstələrin immuniteti üçün zəruri olab gündəlik qəbul edilməli olan meyvələrədən heç birinin mövcud olmadığı müşahidə olunmuşdur.

Xəstəxananın dam örtüyünün əsaslı təmir olunması da zəruridir.

Müəssisədəki əlilliyi olan şəxslərin müalicəsi və ehtiyacları üçün xüsusi yanaşma tətbiq edilmir. Şəkərli diabetdən əziyyət çəkənlərin dərmanları ailə üzvləri tərəfindən gətirilir. Gündəlik menyuda əlilliyi olan şəxslərin ehtiyacları nəzərə alınmır.

Müəssisə sakinlərindən əlillliyi olan şəxslərin şəxsi işlərinin içində həmin şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədi ilə tərtib edilməli olan Fərdi Reabilitasiya Proqramı mövcud deyil ki, bu da “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin tələbinin pozuntusu sayılmalıdır.

“Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcminin” təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 108 nömrəli Qərarına əsasən stasionarda qalan xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər üçün tibbi-sosial ekspertizanın

keçirilməsinin təşkil edilməsi (3.1.2.3) nəzərdə tutulsa da, müəssisənin sakinlərinin 43 nəfərin əlilliyi qiymətləndirilməmişdir.

Hər iki şöbənin palatalarına baxış zamanı pasiyentlər barəsində aparılmış tibbi məhdudlaşdırmalar "Fiksasiya (məhdudlaşdırma) jurnalında" qeydə alınsa da, II şöbədə qeyd olunan jurnalın düzgün doldurulmadığı, fiksasiya tarixinin qeyd olunmadığı müəyyən edilmişdir.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən psixiatriya stasionarında yerləşdirilən pasiyentin hüquqları, o cümlədən nəzarətsiz məktublaşmaq, bağlama, banderol və pul baratları almaq və göndərmək, telefondan və digər rabitə vasitələrindən istifadə etmək, yaxınları ilə görüşmək hüquqları təsbit olunub. Həmin hüquqların həyata keçirilməsinin qeydiyyatının aparılması müəssisədə saxlanılan şəxslərin hüquqlarının təminatı və pasiyentlərə qarşı sui-istifadə hallarının və laqeyd münasibətlərin qarşısının alınması üçün zəruri olsa da, müvafiq qeydlər aparılmır.

Milli Preventiv Qrupunun üzvləri tərəindən ***Quba Rayonlararası Psixonevroloji Mərkəzinə*** başçəkmələr həyata keçerilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri–insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin palatalarına, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, qidalanma, içməli su, habelə isti və soyuq su təminatı və sənədləşmə araşdırılmışdır.

Müəssisənin aptekinə keçirilən baxış zamanı dərman və laborator reaktivlərin təchizatının yaxşı olduğu, dərman preparatlarının saxlanma şəraitinə və müddətinə əməl olunduğu müşahidə olunmuşdur.

Mətbəx və ərzaq anbarlarında sanitar-gigiyena qaydalarına əməl oluduğu, ərzaqların saxlama müddəti və şəraiti gözlənildiyi müşahidə edilmişdir.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 3 nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti öyrənilmişdir.

Məlum olmuşdur ki, müəssisədə mövcud olan, 6 psixiatr həkim ştatı 2 həkimlə komplektləşdirilmiş və orta tibb heyəti üzrə vakansiyalar mövcuddur. Müəssisədə çalışan həkimlərdən 2 nəfəri yaş həddini keçdiyi üçün müddətli müqavilə əsasında işləyirlər.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyin tələbləri nəzərlərinə çatdırılmış, istifədə müddətinin bitməsinə az qalmış ərzaqların yenilənməsi və digər müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Şəki Rayon Psixiatriya Xəstəxanasına*** plan üzrə başçəkmə keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Tərəfimizdən xəstəxananın palatalarına, aptekə, tibb otaqlarına, laboratoriyaya, emalatxanalara, istirahət otaqlarına, mətbəxə, yeməkxanalara, görüş otağına, ərzaq anbarına, gəzinti və idman meydançalarına baxış keçirilmişdir.

Başçəkmə zamanı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, xəstəxananın bir sıra yerlərində divarların aşağı hissələində qabarmalar var. Burada həkim-stomatoloq fəaliyyət göstərsə də, stomatoloji avadanlıqlarla təminat yox səviyyəsindədir. Xəstəxana ultrasəs müayinə üçün, habelə elektrokardioqrama, elektroensefaloqrafiya və rentgen aparatları ilə təchiz olunsa da, uzun müddətdir ki, bu sahələr üzrə həkim ştatları vakant olduğundan həmin aparatlardan istifadə olunmur. Bundan başqa xətəxanada kitabxana da yoxdur.

Stasionara göndərişlərin qeydiyyatı kitabının 9,12,13-cü bölmələrində müvafiq qeydlər (göndərən həkimin soyadı, adı, imzası, xəstəxanadan çıxma tarixi və nəticə) aparılmamışdır.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun görüş keçirilmiş, müşahidə edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı qanunamüvafiq tövsiyyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Lənkəran Şəhər Psixiatriya Xəstəxanasına*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı ərzaq anbarı və mətbəxdə sanitar-gigiyena qaydalarına əməl olunduğu, gündəlik menyunun asıldığı, yemək nümunələrinin götürüldüyü, yeməyin keyfiyyətinə nəzarət edildiyi, anbarda ərzaqların, meyvə və tərəvəzin olması, eləcə də, vaxtı keçən heç bir məhsulun olmaması müşahidə olunmuşdur. Mətbəxdə çalışan işçilərin müvafiq geyim formasına əməl etmələri və tibbi müayinələrdən vaxtaşırı keçmələri müəyyən edilmişdir.

Əvvəlki başçəkmələr zamanı xəstəxananın hər iki şöbəsinin palatalarında olan çarpayılarda döşəklərin istifadə müddətini keçməsi, yararsız vəziyyətdə olması və əl-üz dəsmallarının olmaması, su təminatında problemlərin olması, qadın şöbəsində televizorun xarab olması müəyyən olunmuşdu. 2024-cü ildə həyata keçirilən başçəkmələr zamanı qeyd olunan problemlərin öz həllini tapdığı, şöbələrdə sanitar-gigiyena qaydalarına əməl edildiyi müşahidə edilmiş, hər iki şöbədə pasiyentlərin içməli su, habelə isti və soyuq su təminatı həll edilmiş, televizor təmir edilmişdir. Lakin müəssisədə dərman təminatında problemlərin hələ də qaldığı müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən ***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Psixi Xəstəliklər Dispanserinə*** başçəkmə həyata keçirilmişdir. Psixiatriya və narkoloji şöbələrin fəaliyyət göstərdiyi 150 yerlik müəssisədə başçəkmə günü 83 nəfərin (26-ı qadın) müalicə aldığı müəyyən edilmişdir. Təmir işlərinin başlanıldığı dispanserdə bəzi otaqların təyinatı üzrə istifadə edilmədiyi, otaqların üzərində təyinat qeydlərinin

olmadığı, qadın şöbəsinin bəzi palatalarında süni işıqlandırmada çatışmalığın olduğu müşahidə edilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə saxlanma şəraiti və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın tapşırığı əsasında MPQ üzvləri tərəfindən Səhiyyə Nazirliyinin ***Uşaq Psixonevroloji Mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, müəssisədə saxlanılan valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının təmini vəziyyətinin öyrənilməsi olmuşdur. Bu məqsədlə Uşaq Psixonevroloji Mərkəzinin bütün ərazisinə, o cümlədən yataq və tibb otaqlarına, oyun zalına, mətbəx, anbar, camaşırxana və digər yerlərə baxış keçirilmişdir.

Mərkəzin Nizamnaməsinə əsasən müəssisənin fəaliyyətinin əsas məqsədi 1 ay – 14 yaş həddinədək uşaqların ambulator və stasionar müayinəsi, diaqnostikası, müalicəsi, tibbi-sosial, psixoloji və pedaqoji yardım göstərməklə sağlamlığının qorunması və bu sahədə hüquqlarının təmin edilməsidir.

Mərkəzin rəhbərliyi ilə ilkin söhbət zamanı müəssisəyə ayrılan büdcədə uşaqların geyimlərinin, bəzi zəruri ərzaq mallarının nəzərdə tutulması səbəbilə müəyyən çətinliklərin olduğu qeyd edilmişdir.

Müəssisəyə baxış zamanı uşaqların sağlamlığı və inkişafı üçün müasir standartlara cavab verən şəraitin yaradıldığı müşahidə olunmuşdur. Qeyd etmək vacibdir ki, müəssisə rəhbərinin əməkdaşların bilik və bacarıqlarının artırılmasına həssas yanaşdığı və bu sahədə bir sıra layihələr və tədbirlər gördüyü müşahidə olunmuşdur.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və əməkdaşları ilə söhbət aparılmış, müəyyən olunmuş nöqsanların aradan qaldırılması və uşaqların hüquqlarının müdafiəsi istiqamətində müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Gəncə Regional Narkoloji Dispanserinə*** başçəkmə həyata keçirilmişdir. Müəssisədə Qazax, Ağstafa, Tovuz, Şəmkir, Göygöl, Samux, Goranboy rayonlarından olan və narkomaniyadan, xroniki alkoqolizmdən əziyyət çəkən şəxslər stasionar və ambulator qaydada müalicə olunurlar.

Müəssisəyə əvvəlki başçəkmədən sonra psixoloq ştatı üzrə müvafiq mütəxəssisin işə götürüldüyü müəyyən edilmişdir. Bununla belə, müəssisədə həkim narkoloqların sayının artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

Xəstəxana binasının ümumilikdə köhnə və natəmiz olması, stasionar şöbənin palatalarının, eləcə də palatalardakı  çarpayı və digər əşyaların köhnə, səliqəsiz, şəraitsiz olması, palatalarda xəstələrin saxlanılması üçün minimal şəraitin belə olmaması, pis qoxu və nəmişliyin hökm sürməsi, mərkəzləşdirilmiş istilik sisteminin olmaması, istifadə olunan palataların elektrik qızdırıcıları ilə qızıdırılması, xəstələrin asudə vaxtlarının təşkili üçün heç bir şəraitin (televizor, idman qurğusu və.s.) olmaması

aşkar edilmişdir. Həmçinin stasionar şöbənin sanitar qovşağının istifadəyə tamamilə yararsız, anti-sanitar vəziyyətdə olması, qazanxananın işləməməsi (hamam qazanxanası,) hamamın ümumiyyətlə istifadəyə yararsız olması müəyyən edilmişdir.

Müəssisədə dərmanların və qan analizi nümunələrinin saxlanılma qaydalarına riayət olunmadığı, qan nümunələri və tibbi ləvazimatlar saxlanılan soyuducuda ərzaq məhsullarının da saxlanıldığı müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən ***Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına*** başçəkmə zamanı palatalara, qəbul, görüş, şəxsi əşyaların saxlanılması otaqlarına, hamama, mətbəxə baxış keçirilərək oradakı vəziyyəti, işıqlandırma, ventilyasiya və sanitariya şəraiti yoxlanılmışdır.

Xəstəxanaya ötən il həyata keçirilən başçəkmə zamanı müşahidə edilmiş dərman təminatı ilə bağlı çatışmazlığın aradan qaldırıldığı müşahidə edilmişdir. Ərzaqla təminatın da qənaətbəxş olduğu müəyyən edilmişdir. Xəstəxananın dam örtüyünün təmir edilməsi də müsbət məqamlardan olmuşdur.

Başçəkmənin sonunda müvafiq qanunvericiliyin tələblərinin düzgün yerinə yetirilməsi və fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı baş həkim və əməkdaşlarına müvafiq tövsiyələr verilmişdir.

### 2.2.4. Elm və Təhsil Nazirliyinin müəssisələri

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində 2024-ci ildə Elm və Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 75 başçəkmə həyata keçirilmişdir.

Təşkil olunmuş başçəkmələrdə zamanı beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri, təhsil alan uşaqların hüquqlarının təmini, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, habelə müəssisələr üzrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti araşdırılmışdır.

MPQ üzvləri tərəfindən Elm və Təhsil nazirliyinin ***1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə*** başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı ilkin olaraq müəssisənin rəhbəri ilə görüş keçirilmişdir. Söhbət zamanı müəssisədə bir sıra müsbət yeniliklərin olduğu qeyd edilmişdir. Belə ki, uşaqların valideynləri ilə rahat görüşlərini təmin etmək məqsədilə xüsusi görüş otağı yaradılmış, müddətsiz müqavilə ilə 6 fənn üzrə müəllimlər işə götürülmüşdür. Qeyd olunmalıdır ki, eyni zamanda, keçən başçəkmə zamanı aşkar edilmiş bir sıra nöqsanların (dəhlizlərdə radiatorların olmaması, sanitar qovşaqlarda və hamamda arakəsmələrin olmaması) aradan qaldırıldığı müşahidə edilmişdir.

Bununla yanaşı başçəkmə gedişində uşaqlarla aparılmış konfidensial söhbət zamanı bəzi problemlərin olduğu müəyyən edilmişdir.

Müəssisə rəhbərliyi ilə yekun söhbət zamanı gəmiricilərə qarşı dezinfeksiya tədbirlərinin görülməsi (uşaqlar müəssisədə siçan olduğunu bildirmişlər), yataq dəstlərinin vaxtında dəyişdirilməsi, oğlan və qız uşaqlarının paltarlarının ayrılıqda yuyulması, müəssisənin saç qurutmaq üçün elektrik alətlə (fen) təmin edilməsi tövsiyə edilmişdir.

Elm və Təhsil Nazirliyinin ***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli Xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində müəssisədə yaşayan uşaqların hüquqlarının təmini vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri, tibbi yardımın və psixoloji işin təşkili, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyəti yerində araşdırılmışdır.

Eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar və eşitmə qabiliyyətini sonradan tam itirmiş uşaqlar üçün nəzərdə tutulan müəssisədə əməkdaşlar tərəfindən əlilliyi olan şəxslərlə bağlı neqativ hislər yaradan və kobud səslənən bir sıra sözlərdən ("şikəst", "kar") istifadə edildiyi müşahidə edilmişdir. Məlumdur ki, son illər ərzində BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına uyğun şəkildə aparılan islahatlar zamanı özünə inamsızlıq yaradan bir sıra ifadələr ("kar" sözü "eşitmə qabiliyyəti tam məhdud", "əlil" sözü "əlilliyi olan şəxs") müasir və etik yanaşmaya uyğun yeni ifadələrlə əvəzlənib.

MPQ üzvləri tərəfindən internat məktəbinin ümumi ərazisinə, sinif otaqlarına, xüsusilə yataq otaqlarına baxış zamanı müəssisədə natəmizliyin olduğu müşahidə edilib.

Dərman preparatlarının keyfiyyəti və əlçatanlığı vəziyyətinin öyrənilməsi məqsədilə baxış keçirilən zaman bəzi dərmanların öz qutularında saxlanılmadığı və istifadə müddəti qeyd olunmuş hissənin kəsilmiş şəkildə olduğu aşkar edilmiş, bu səbəbdən onların yararlılıq müddətini müəyyən etmək mümkün olmamış və bu barədə müəssisənin rəhbərinə məlumat verilmişdir. Həmçinin müəssisənin tibb sahəsində çalışan əməkdaşlarının diqqətinə çatdırılmışdır ki, dərmanların yararlılıq müddətini daim nəzarətdə saxlamaq üçün onları öz qutularında saxlamaq və ya dərmanların siyahısını tutmaq, hər bir dərmanın saxlanma müddətini orada qeyd etmək məqsədəmüvafiq hesab edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati-təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları haqqında" 1992-ci il 9 yanvar tarixli 6 nömrəli Qərarına əsasən, internat tipli xüsusi ümumtəhsil məktəblərində hər yataq korpusunda 2 vahid gecə dayəsi müəyyənləşdirilir. 150 nəfərdən artıq şagirdi olan internatların yataq korpusunda hər mərtəbəyə 2 vahid gecə dayəsi vəzifəsi müəyyən edilir. Müəssisənin direktorunun verdiyi məlumata əsasən müəssisədə gecələyən uşaqların sayı 94 nəfərdir və 1 gecə dayəsi fəaliyyət göstərir. Bu say nisbəti uşaqların qayğısına qalmaq, münaqişələri həll etmək kimi öhdəliklərin keyfiyyətli şəkildə görülməsi üçün kifayət deyildir.

MPQ üzvləri tərəfindən ***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli Respublika xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd öncəki başçəkəmə zamanı müəyyən olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində verilmiş təkliflərin icrası vəziyyətinin öyrənilməsi, habelə internat məktəbində təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur. Monitorinq çərçivəsində məktəbin sinif otaqlarına, mətbəxə, yataqxanaya, tibb otağına, camaşırxanaya və digər yerlərə baxış keçirilmişdir.

Saxlanma şəraiti ilə bağlı bəzi problemlərin həllini tapmadığı müşahidə olunmuşdur. Belə ki, müəssisənin əsaslı təmirə olan ehtiyacı, məktəbin bir hissəsində məcburi köçkün ailələrin məskunlaşması, bu səbəblə burada böyük sıxlığın olması, habelə yataq otaqlarındakı pəncərələrin bəzilərində tor olmaması problem olaraq qalmaqdadır.

Müəssisədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə də ehtiyac var.

Məktəbin həyətində aşma təhlükəsi olan ağaclarla bağlı müvafiq tədbirlərin görülməsinə dair müraciətlərin nəticəsiz qaldığı bildirilmişdir.

İbtidai siniflər istisna olmaqla, sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı digər siniflər üçün dərslik və dərs vəsaitlərinin olmadığı müəyyən edilmişdir.

Psixoloji kabinetdə əyani vəsaitlərin çatışmazlığı müşahidə edilib.

***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilib.

Direktor dərsliklərlə bağlı problemlərin aradan qaldırıldığını qeyd etmişdir. Saxlanma şəraiti ilə bağlı bir sıra nöqsanlar müəyyən edilmişdir. Yeməkxanaya baxış keçirilən zaman, 2-ci menyu üzrə tərəvəz salatının əvəzinə doğranılmış soğan təqdim edildiyi, habelə öncəki günün tərəvəz salatının nümunəsinin olmadığı aşkar edilmişdir.

MPQ üzvləri tərəfindən ***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli Respublika xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Yataqxanaya baxış zamanı otaqların təmiz, səliqəli olduğu müşahidə edilib. İşıqlandırmanın normala cavab vermədiyi, pəncərələrin torlarla təchiz olunmadığı müəyyən olunmuşdur.

Müəssisənin nəqliyyat vasitəsinin istifadəyə yararsız halda olduğu müşahidə edilmişdir ki, (müəssisədə daimi əsaslarla sürücü fəaliyyət göstərir) bu da şəhərdən kənarda yerləşən məktəbin şagirdlərinin müxtəlif tədbirlərə cəlb olunma prosesini çətinləşdirən amillərdəndir.

İntensiv yağıntılar zamanı məktəbin həyətyanı sahəsi istifadəyə yararsız vəziyyətə düşür. MPQ üzvlərinə məlumat verilmişdir ki, son yağıntılar zamanı məktəbin şagird və əməkdaşlarını FHN əməkdaşları evakuasiya edib.

***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli xüsusi internat məktəbinə*** başçəkmə zamanı xüsusi təhsilə aid müvafiq dərs vəsaitlərinin olmadığı, psixoloji və loqopedik xidmətlərin göstərilməsi üçün vəsaitlərin isə yetərli olmadığı müəyyən edilmişdir.

Burada fiziki məhdudiyyəti olan şəxslərin maneəsiz hərəkət etməsi çün şəraitin yaxşılaşdırılmasına, tədris korpusunun girişlərinə pandusların quraşdırılmasına ehtiyac var.

Müəssisənin istilik sistemi nasaz olduğundan qızdırıcı cihazlardan istifadə edildiyi müşahidə edilmişdir. Yeməkxanaya baxış zamanı menyunun dəyişdirildiyi aşkar edilmişdir. Tibb otağında bir dərman preparatının istifadəyə yararlılıq müddətinin bitdiyi məlum olmuşdur.

"Uşaq hüquqları aylığı" ərəfəsində MPQ üzvləri, habelə UNICEF-in ölkə üzrə nümayəndəliyinin əməkdaşı tərəfindən ***8 nömrəli Sanatoriya tipli internat məktəbinə*** başçəkmə həyata keçirilmişdir.

Müəssisəyə əvvəlki başçəkmə zamanı aşkar edilmiş bəzi çatışmazlıqların aradan qaldırıldığı, yataq otaqlarına pərdə quraşdırıldığı, uşaqların şəxsi əşyalarının mühafizə olunması məqsədilə dolabların qıfıl ilə təmin olunduğu, qismən yararsız sanuzellərin yeniləri ilə əvəz olunması, Təmirsiz vəziyyətdə olan pilləkənlərin təmir olunması, yeni sürahıların qoyulması aşkar edilmişdir.

Müəssisənin müayinə otağının stomatoloji avadanlıqlarla təmin edilməsinə ehtiyac müşahidə edilmişdir.

Başçəkmə zamanı uşaqlar üçün mövsümə uyğun geyim və ayaqqabıların Elm və Təhsil Nazirliyi tərəfindən göndərildiyi müəyyən edilmişdir.

Müəssisədə dərmanların saxlama otağına baxış zamanı burada dərman ehtiyatının tükənmək üzrə olduğu müşahidə edilmişdir. Tibb işçiləri onlara tələbnamə üzrə ayda bir dəfə dərman preparatlarının ayrıldığını, növbəti ayın ilk günlərinə qədər yeni partiya dərmanların göndəriləcəyini, dərman təchizatı ilə bağlı ciddi çətinliklə üzləşmədiklərini bildirmişlər. Sənədlərlə tanışlıq zamanı müvafiq tibbi kitablar üzrə qeydlərin vaxtında aparıldığı, lakin bəzi hallarda həmin qeydlərin natamam olduğu müşahidə edilib. Əməkdaşlara (tibb işçilərinə) sənədləşmənin təkmilləşdirilməsilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın tapşırığı əsasında ***Sumqayıt şəhər internat tipli gimnaziyaya*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir. Monitorinq çərçivəsində məktəbin ərazisinə, sinif otaqlarına, mətbəxə, yeməkxana, yataq, tibb otaqlarına və digər yerlərə baxış keçirilmişdir.

Gimnaziyanın yataqxanasında keçmiş məcburi köçkünlərin məskunlaşması səbəbilə korpusun yalnız ikinci mərtəbəsinin bir hissəsi şagirdlərin istifadəsinə verilmişdir.

Başçəkmə zamanı müəssisənin əsaslı təmirə ehtiyac olduğu, işıqlandırmanın normalara cavab vermədiyi, pəncərə tutacaqlarının olmadığı, pəncərələrdə torların nəzərdə tutulmadığı, pərdələrin istifadəyə yararsız vəziyyətdə olduğu, hamam otağı nəzərdə tutulsa da, bu otağın və sanitar qovşaqların bir qisminin istifadəyə yararsız olduğu müşahidə edilmişdir.

Məktəbin əsas tədris korpusunda sanitar qovşaq çatışmazlığı var. 650 şagirdə 2 sanitar qovşaq (oğlanlar üçün 4, qızlar üçün 3 kabinə (1-i istifadəyə yararsız vəziyyətdə)) nəzərdə tutulmuşdur. Eyni zamanda, həmin kabinələrin qapılarında nalayiq ifadələrin əks olunduğu, oğlanlar üçün nəzərdə tutulan sanitar qovşaqda 3 kabinədən 1-nin qapısının ümumiyyətlə olmadığı, habelə bu otaqlarda isti su ilə təminatın olmadığı müşahidə olunmuşdur.

Yeməkxanaya baxış keçirilən zaman orada yer azlığı səbəbilə böyük sıxlığın olduğu müşahidə edilmişdir. Menyuda edilən dəyişikliklərin (nahar üçün nəzərdə tutulmuş salatın ümumiyyətlə olmadığı) səbəbi göstərilməklə aktlaşdırılmadığı müəyyən edilmişdir.

Müəssisənin həyətyanı sahəsində yerləşən futbol meydançasının yenidən qurulmasına ehtiyac var.

Söhbət zamanı uşaqlar bəzi hallarda gecə dayəsi və tərbiyəçinin onları fiziki cəza ilə hədələdiklərini bildirmiş, bu istiqamətdə müəssisədə maarifləndirici söhbət aparılmışdır.

Məktəbdə aztəminatlı və natamam ailələrdən olan (tək ana, tək ata) uşaqlar təhsil aldığından, onların daha çox diqqətə və fərdi yanaşmaya ehtiyacı var. Bu baxımdan məktəbin psixoloqunun da qeyd etdiyi kimi, keyfiyyətli psixoloji xidmətin göstərilməsi üçün psixoloq ştatının sayının artırılmasına ehtiyac var.

Psixoloq və digər əməkdaşların bilik və bacarıqlarının artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

***Sumqayıt şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəbə*** başçəkmə zamanı müəssisədə fiziki məhdudiyyəti olan şəxslərin maneəsiz hərəkət etməsi üçün şəraitin yaradılmadığı (Pandus quraşdırılmamış, infrastrukturun müyəssərliyi təmin edilməmişdir), yeməkxanada ventilyasiya sisteminin olmadığı müəyyən olunmuşdur.

***Gəncə şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya*** planlı başçəkmə zamanı müəyyən edilmişdir ki, burada loqoped ştatı vakantdır. Bu isə loqopedik xidmətlərin İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarına uyğun həyata keçirilməsini qeyri-mümkün edir.

Gimnaziyanın yataqxanası olsa da, orada gecələyən şagirdlər olmadığından yataqxanada otaqları sinif otaqları kimi istifadə olunur.

Gimnaziyanın kitabxanasının zəruri inventar və kitablarla, tibb otağının tibbi ləvazimatlar və hərarət ölçən cihazla, ilk tibbi yardım üçün lazım olan dərman preparatları ilə, dezinfeksiya edici vasitələrlə, psixoloq otağının əyani vəsaitlərlə təmin edildiyi müşahidə olunmuşdur.

Başçəkmə zamanı gimnaziyanın sanitar qovşaqlarında cari təmir işlərinin aparılmasına təmin olunmasına ehtiyac olduğu müşahidə edilmişdir. Sanitar qovşaqlarda sabun olmadığı müəyyən edilmişdir.

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 5.0.3-cü maddəsi sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-tibbi-pedaqoji komissiyanın qərarına əsasən xüsusi təhsil proqramları və fərdi tədris planı əsasında məktəbəqədər və ümumi təhsil almaq hüququnu təsbit edir. Başçəkmə gedişində gimnaziyada xüsusi təhsilə cəlb edilmiş uşaqların fərdi tədris planının tərtib olunmadığı müəyyən edilmişdir.

Gimnaziyanın xüsusi siniflərində əmək təlimi, peşəyönümü və peşə hazırlığı işlərinin təşkili ən vacib məsələ kimi nəzərdə tutulmalı, şagirdlərin müstəqil həyata hazırlanması və sosial uyğunlaşmasının başlıca şərti hesab olunmalıdır. Lakin xüsusi təhsilə cəlb edilmiş uşaqlar üçün emalatxananın mövcud olmaması peşəyönümü və peşə hazırlığı işlərinin təşkilinə imkan vermədiyindən emalatxananın təşkilinə ehtiyac vardır.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, gimnaziyada xüsusi təhsilə cəlb edilmiş şagirdlər sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri ilə (ibtidai siniflər üçün Azərbaycan dili və Riyaziyyat fənləri istisna olmaqla) təchiz olunmamışdır.

Gimnaziyanın yeməkxanasının və mətbəxinin, sanitar qovşaqlarının cari təmir edilməsinə ehtiyac müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən ***Gəncə şəhər 45 saylı xüsusi məktəbə*** planlı başçəkmə həyata keçirilmişdir. 1975-ci il tarixdən fəaliyyət göstərən və Gəncə şəhəri ilə yanaşı Şəmkir, Göygöl, Samux və Goranboy rayonundan olan şagirdlərin də təhsil aldığı məktəbdə ən son 2011-ci ildə əsaslı təmir işləri aparılmışdır. Başçəkmə zamanı cari təmir işlərinə ehtiyac olduğu müşahidə olunmuşdur.

Məktəbə Heydər Əliyev Fondu tərəfindən hədiyyə edilmiş mikroavtobusun nasaz olduğundan xidmət göstərməməsi əlilliyi olan şagirdlərin məktəbə gəlməsinə əsaslı çətinliklər yaratmışdır. Məktəbdə təhsil alan hər bir şagirdin valideyninə nəqliyyat xərci məqsədilə 50 (əlli) manat məbləğində müavinət ödənilir.

MPQ üzvləri şagirdlərlə görüş keçirmiş, saxlanma şəraiti və rəftarla onların fikirlərini öyrənmişdir. Şagirdlər hər hansı şikayətlərinin olmadığı bildirmişlər.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, burada həkim ştatı vakantdır və bu da məktəbdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlara keyfiyyətli tibbi yardım işinin təşkil edilməsində çətinliklərə səbəb olur.

Burada da Azərbaycan dili və Riyaziyyat fənnləri üzrə ibtidai siniflər üçün nəzərdə tutulmuş dərs vəsaitləri istisna olmaqla xüsusi sadələşdirilmiş dərsliklərlə təminatda çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, məktəbdə təhsil alan və orqaqnizmin funksiyalarının 81-100 faiz pozulmasına (I dərəcə) görə əlilliyi müəyyən olunmuş şagirdlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin göstərişinə əsasən hər hansı bir hüquqi əsas olmadan məktəbdən xaric olunurlar. Bu isə, şəxslərin təhsil almaq hüququnun pozulması kimi qiymətləndirilə bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli, 86 nömrəli qərarı ilə təsdiq edilmiş “Sağlamlıq imkanları məhdud şəxslərin pulsuz xüsusi təhsil almaq Qaydası”nın 4-cü bəndinə əsasən sağlamlıq imkanları məhdud şəxslər təlim vasitələri ilə, yemək, geyim, ayaqqabı, zəruri avadanlıq və fərdi texniki vasitələrlə dövlət tərəfindən tam təmin edilir. Sağlamlıq imkanları məhdud şəxslərin təhsillə, təlim vasitələri ilə, yemək, geyim, ayaqqabı, zəruri avadanlıq və fərdi texniki vasitələrlə təmin olunması üçün tələb olunan xərclərin ödənilməsi dövlət büdcəsində "Təhsil xərcləri" üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir. Lakin qeyd olunan təminatlara baxmayaraq Gəncə şəhər 45 saylı xüsusi məktəbdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar dövlət tərəfindən yemək, geyim, ayaqqabı, zəruri avadanlıq və fərdi texniki vasitələrlə təmin olunmadığı aşkar edilmişdir.

MPQ üzvləri tərəfindən ***Tovuz rayonu Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya*** başçəkmələr həyata keçirilmişdir. Tovuz, Qazax, Ağstafa, Şəmkir rayonlarından gələn şagirdlərin təhsil aldığı gimnaziyada bəzi nöqsan və çatışmazlıqlar aşkar olunmuşdur.

“Dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyun 2024-cü il tarixli 300 nömrəli Qərarına əsasən tabeliklərində olan ümumi təhsil müəssisələrinin yeni nizamnamələrini iki ay müddətində təsdiq edilməsi Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları qarşısında bir vəzifə olaraq qoyulmuşdur. Lakin başçəkmə zamanı müəyyən edilmişdir ki, gimnaziyanın fəaliyyətini tənzimləyən nizamnaməsi təsqidlənməmişdir.

Gimnaziyanın ixtisasca həkim ştatı da vakantdır və tibb otağının zəruri avadanlıqlarla (tərəzi və boyölçmə cihazı) ilə təmin olunması məqsədəmüvafiqdir.

Gimnaziyada xüsusi təhsilə cəlb edilmiş şagirdlərin xüsusiyyətləri nəzərə alınaraq sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri və fərdi tədris proqramları ilə təchiz olunması da zəruridir.

Burada mövcud olan loqopedik kabinetin qanunvericiliyin tələblərinə uyğun olaraq yenidən təşkil edilməsinə, oranın zəruri vasitələrlə təchiz edilməsinə ehtiyac olduğu müəyyən edilmişdir.

Gimnaziyanın balansında olan avtobusun çox köhnə olduğu, yenisi ilə əvəz edilməsinin vacib olduğu müşahidə edilmişdir.

Gimnaziyanın xüsusi siniflərində peşə yönümlü təhsilin təşkili ən vacib məsələ kimi nəzərdə tutulmalı, emalatxanın zəruri müasir avadanlıqlarla təchis edilməsinə zərurət aşkar edilmişdir.

MPQ üzvləri tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin ***Gəncə şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyasına*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu, BMT-nin “Uşaq hüquqları haqqında Konvensiyası” və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, müəssisədə gecələyən və təhsil alan uşaqların hüquqlarının təmin olunması vəziyyətinin monitorinqi olmuşdur.

Gimnaziyada loqoped ştatı uzun müddətdir ki, vakantdır və bu hal xüsusi təhsilə cəlb edilmiş uşaqların loqopedik yardım almasına imkan vermir.

Gimnaziyanın yataqxanası orada gecələyən uşaq olmadığından sinif otaqları kimi istifadə olunur. Gimnaziyanın tibb otağı ilə tanışlıq zamanı həmin otağının zəruri tibbi ləvazimatlar və hərarət ölçən cihazla, ilk tibbi yardım üçün lazım olan dərman preparatları ilə, dezinfeksiya edici vasitələrlə təmin edildiyi, şagirdlərin hər birinin fərdi tibbi qeydiyyatının aparıldığı müəyyən olunmuşdur.

Psixoloq otağının zəruri inventarlarla, əyani vəsaitlərlə təmin olunduğu, psixoloji yardım işinin lazımi şəkildə təşkilinə imkan verdiyi, şagirdlərin fərdi psixoloji xəritələrinin qeydə alındığı müşahidə olunmuşdur.

Müəssisənin yeməkxanasının, mətbəxinin və sanitar qovşaqların cari təmir olunmasına ehtiyac olduğu da müşahidə edilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə təsadüfi seçim əsasında bu müəssisədə təhsil alan uşaqlarla, habelə müəllimlər, tərbiyəçilər və tibb işçiləri ilə fərdi söhbətlər aparılmış və mövcud vəziyyət öyrənilmişdir. Gimnaziya rəhbərliyi və təhsil alan uşaqlar tərəfindən rəftar məsələləri ilə bağlı hər hansı insidentin yaşanmadığı, məktəbdə təlim-tərbiyə işinə həssas münasibət göstərildiyi bildirilmişdir.

“Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikası Qanununun 5.0.3-cü maddəsinin tələbinə əsasən sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-tibbi-pedaqoji komissiyanın qərarına əsasən xüsusi təhsil proqramları və fərdi tədris planı əsasında məktəbəqədər və ümumi təhsil almaq hüququ təsbit edilmişdir. Müəssisədə isə, xüsusi təhsilə cəlb edilmiş uşaqların

fərdi tədris planlarının tərtib olunmadığı müşahidə edilmişdir. Halbuki həmin kateqoriyadan olan uşaqlara fərdi yanaşılmalı və ehtiyacları fərdi qiymətləndirilməlidir.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, gimnaziyada xüsusi təhsilə cəlb edilmiş şagirdlər sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri ilə (1-4-cü siniflər üçün Azərbaycan dili və Riyaziyyat fənləri istisna olmaqla) təchiz olunmayıblar ki, bu da həmin şagirdlərin keçirilən dərsləri səmərəli mənimsəmələrində çətinliklər yaradır.

Gimzaniyanın internet otağında mövcud olan 6 ədəd kompyuter şagirdlərin sayına adekvat deyil, həmçinin kompyuter azlığı summativlərin onlayn qaydada keçirilməsinə imkan vermir.

MPQ üzvləri tərəfindən ***Gəncə şəhər İnternat tipli xarici dillər təmayüllü gimnaziyaya*** başçəkmə həyata keçirilmişdir. Gimnaziya direktoru məlumat verərək həkim ştatının vakant olduğunu bildirmişdir.

Gimnaziya yataqxanası ilə tanışlıq zamanı yataq otaqlarının müvafiq inventarlarla təmin olunduğu, yataq ləvazimatlarının təmiz olduğu, yataqxananın sanitar qovşaqlarının və hamamının təmirli və təmiz olduğu müşahidə olunmuşdur.

Gimnaziyanın tibb otağı ilə tanışlıq zamanı tibb otağında müayinə üçün zəruri avadanlıqların və dərman preparatlarının mövcud olduğu, gündəlik tibbi yardımların qeydiyyatının aparıldığı, əvvəlki başçəkmələr zamanı müşahidə olunmuş çatışmazlığın aradan qaldırılaraq qeydiyyat kitablarının kargüzarlıq qaydalarına uyğun olaraq qaytanlandığı və möhürləndiyi müəyyən edilmişdir.

Qeyd edilənlərlə yanaşı gimnaziyada təhsil alan şagirdlərə keyfiyyətli ixtisaslı ilkin tibbi yardım göstərilməsi üçün vakant olan həkim ştatına təyinat aparılması, psixoloq otağının zəruri əyani-didaktik metariallarla təchiz olunması, cəmi iki nəfərdən ibarət olan olan gecə dayəsi ştatının artırılması mqsədəmüvafiqdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Quba şəhəri ümumi təyinatlı internat tipli ümumitəhsil məktəbinə*** başçəkmələr həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri–insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraitinin və müəssisədəki uşaqlarla rəftarın, asudə vaxtlarının təşkili, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin, yataqxanalarına, tibb məntəqəsinə, sinif otaqlarına, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, habelə asudə vaxtın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə olan şəxslər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti yerində araşdırılmışdır.

Qeyd edilməlidir ki, müəssisəyə əvvəlki başçəkmə zamanı aşkar edilmiş bəzi nöqsanların aradan qaldırıldığı, bəzi çatışmazlıqların hələ də davam etdiyi müşahidə edilmişdir.

Başçəkmələrin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Quba Xüsusi Peşə Məktəbinə*** həyata keçirilmiş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 4 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti yerində araşdırılmışdır.

Quba Xüsusi Peşə Məktəbində saxlanma şəraitinin uşaqlar üçün uyğun olmadığı, onların keyfiyyətli təhsil, asudə vaxtlarının səmərəli təşkili, peşə vərdişlərinə yiyələnmələri üçün imkanların aşağı səviyyədə olduğu müşahidə edilmişdir. Müəssisədə ictimai təhlükəli əməl törətmiş uşaqların davranışının korreksiyasını və cəmiyyətə uyğunlaşmasını, o cümlədən onların psixoloji, tibbi və sosial reabilitasiyasının təmini üçün uyğun şərait yoxdur, bu xidmətlərin təşkilinə ciddi ehtiyac var.

Cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanların saxlanıldığı bu müəssisə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli, 65 nömrəli qərarı ilə təsdiq edilmiş “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında” Nümunəvi Nizamnamənin tələblərinə cavab vermir.

***Siyəzən şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya*** həyata keçirilmiş başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin yataqxanalarına, tibb məntəqəsinə, sinif otaqlarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, habelə asudə vaxtın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə olan 4 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti yerində araşdırılmışdır. Şagirdlərlə aparılan söhbət zamanı gecə saatlarında içməli isti və soyuq su təminatının olmaması problem kimi göstərilsə də, başqa şikayətlərinin olmamasını qeyd etmişlər.

Müəssisənin yeməkxana və mətbəxi, eləcə də ərzaqların saxlanılma anbarı ilə tanışlıq zamanı burada sanitar-gigiyenik qaydalara, saxlanma qaydalarına riayət edildiyi və ərzaqların yararlılıq müddətlərinin keçmədiyi müşahidə edilmişdir.

***Rüfət Kəlbiyev adına Xınalıq kənd internat tam orta məktəbinə*** başçəkmə həyata keçirilmişdir.

Müəssisədə bəzi ərzaq növlərinin saxlanma şəraitinin tələblərə uyğun olmadığı, mətbəxdə, ərzaq anbarında və sanitar qovşaqlarda antisanitariya vəziyyətinin hökm sürdüyü, tibb məntəqəsində dərman preparatlarının az olduğu, idman zalının yararsız vəziyyətdə olduğu aşkar olunmuşdur.

Başçəkmə zamanı uşaqların keyfiyyətli təhsili və asudə vaxtlarının səmərəli təşkili ilə bağlı zəruri tədbirlərin görülməsi məqsədəuyğundur.

Lənkəran şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbinə başçəkmə zamanı bütün korpuslara, o cümlədən yataq, tibb və dərs otaqlarına, psixoloq və loqoped otağına, yeməkxana və mətbəxə, istirahət üçün nəzərdə tutulmuş otaqlara, müəssisənin ümumi ərazisinə baxış keçirilmiş, müəssisələrin rəhbərliyi və əməkdaşlar, eləcə də uşaqlarla fərdi və kollektiv şəkildə söhbət aparılmış, müvafiq sənədlər və qeydiyyat jurnalları yoxlanılmışdır.

Müəssisənin tibb hissəsinə baxış keçirilən zaman əvvəlki başçəkmədə aşkar olunan nöqsanların aradan qaldırıldığı müşahidə edildi.

Lakin yeməkxanaya baxış zamanı əvvəlki başçəkmədə müyyən olunduğu kimi gündəlik menyuya əməl olunmadığı, menyuda baş aşbaz tərəfindən dəyişikliklər edildiyi müəyyən edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Balakən şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya*** plan üzrə başçəkmə zamanı bəzi nöqsanlar və çatışmazlıqlar müəyyən edilmişdir. Belə ki, gimnaziyanın divarlarında, habelə bütün sanitar qovşaqların divarlanda nəmişlik səbəbindən qabarmaların yaranmış, akt zalının və bir sıra sinif otaqlarının döşəmələrinin bəzi hissələri çürüyərək yararsız vəziyyətə düşmüşdür.

Gimnaziya üzrə həkimin qəbulu jurnalı və dərman preparatlarının paylanma jurnalında müvafiq qeydlər aparılmadığı müşahidə edilmişdir. Gimnaziya rəhbərliyi hazırda həkim pediatr ştatının vakant olduğunu, həkim olmadığından uşaqlar xəstələndikdə valideynlərə məlumat verildiyini, zəruri hallarda isə Balakən rayon Mərkəzi Xəstəxanasının təcili yardım şöbəsinə müraciət edildiyini bildirmişdir.

Uşaqlara diş məcunu və diş fırçalarının paylanılmadığını, yorğan sayının yataq sayından xeyli az olduğu aşkar edilmişdir. Yorğan əvəzinə müəssisəyə əlavə olaraq adyalların verildiyi bildirilmişdir. Paltarqurutma maşını işləmədiyi də müşahidə edilmişdir.

Başçəkmə zamanı gimnaziyada həmçinin müəllim və şagirdlərin iştirakı ilə "Uşaq hüquqlarının müdafiəsində Ombudsmanın rolu" mövzusunda tədbir keçirilmişdir.

***Mingəçevir şəhər inteqrasiya təlimli internat tipli gimnaziyaya*** təşkil edilmiş başçəkmədə məqsəd müxtəlif yaş qruplarından olan, bu müəssisədə təhsil alan və yaşayan uşaqlarla rəftar, onların hüquqlarının təmin olunması, müəssisədə saxlanma şəraitinin araşdırılması, habelə uşaqların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Gimnaziyanın tədris korpusunun və yataqxanasının bir hissəsinin əsaslı təmir işlərinin yekunlaşmadığı, burada məskunlaşan məcburi köçkün ailələrinin başqa yerə köçürülməməsi sbəbindən təmir işlərinin başa çatdırılmasının mümkün olmadığı müəyyən edilmişdir.

Burada akt zalı və idman zalının, habelə dərman preparatlarının saxlanılması üçün soyuducunun olmadığı müəyyən edilmişdir.

Konfidensial söhbət aparılan uşaqlar onlarla rəftardan razılıqlarını bildirmişlər.

Başçəkmə zamanı gimnaziyada həmçinin müəllim və şagirdlərin iştirakı ilə 20 oktyabr-20 noyabr “Uşaq hüquqları aylığı” çərçivəsində hüquqi maarifləndirici tədbir keçirilmişdir.

MPQ üzvləri tərəfindən ***Şəki şəhər inteqrasiya təlimli internat tipli gimnaziyaya*** başçəkmə zamanı gimnaziyanın tibb, izolyator, psixoloq, loqoped, istirahət, sinif otaqlarına, mətbəxə, yeməkxanaya, ərzaq anbarına, oğlanlar və qızlar üçün yataqxanalara, sanitar qovşaqlara, hamama, camaşırxanaya və idman zalına baxış keçirilmişdir.

Gimnaziyanın yataqxanalarında işıq lampalarının bir neçəsinin yararsız olmasından dolayı işıqlandırmanın zəif olduğu müşahidə edilmişdir. Gimnaziyadakı hamamların tam işlək vəziyyətə gətirilməsi üçün təmir işlərinin aparılması vacibdir. Həyətdəki hamamda isti suyun olmadığı da müəyyən edilmişdir.

### 2.2.5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Müəssisələri

2024-cü il ərzində Ombudsman və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 21 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu, BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası”, “Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri”, BMT-nin ahıl şəxslərə dair Prinsipləri, BMT Baş Assambleyasının Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri və beynəlxalq standartlar əsasında həyata keçirilmişdir.

Ombudsmanın tapşırığı ilə ***2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan, abilitasiya və reabilitasiyaya cəlb olunmuş uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin araşdırılması olmuşdur.

MPQ üzvlərinin, həkim və sosial iş sahəsində ekspertin də iştirak etdiyi başçəkmə zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, reabilitasiya otaqlarına, yeməkxana və mətbəxinə, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, ümumi əraziyə baxış keçirilmişdir.

Eyni zamanda, müəssisədə yaşayan uşaqlara yanaşmalar, habelə müəssisə rəhbərliyi, əməkdaşlar və tibb işçiləri ilə fərdi və hüquqi maarifləndirici söhbətlər əsasında mövcud vəziyyət öyrənilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən sosial xidmət müəssisəsinin rəhbərliyi və əməkdaşları ilə milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması, bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Göygöl rayonu ***3 saylı psixonevroloji sosial xidmət müəssisəsinə*** başçəkmələr həyata keçirilmişdir.

Saxlanılma limiti 135 olan müəssisədə fevral ayında baş tutan başçəkmə zamanı 119, sentyabr ayında baş tutan başçəkmə zamanı isə 134 nəfər çətin həyat şəraitində olan şəxslərin saxlanıldığı müşahidə olunmuşdur. Sakinlərdən 6 nəfəri 70 yaşdan yuxarı ahıl şəxslərdir. Saxlanılan şəxslərdən 45 nəfərin əlilliyi təsdiq edilmiş, digərlərinin əlillliyi isə qiymətləndirilməmişdir.

Müəssisə sakinlərindən 2024-cü il ərzində bir nəfərin ölüm faktı qeydə alınmışdır. Müəssisədə 2024-cü il ərzində özünə xəsarət halının olmaması, sakinlərin yaxınları ilə görüşlərinin və telefon danışıqlarının müəssisədaxili telefon vasitəsilə təmin edilməsi, müəssisədə gigiyenaya nəzarət edilməsi, palatalarda ventilyasiya sisteminin mövcud olması, hamam otaqlarının, sanitar qovşaqlarının təmiz olması, xəstələrlə görüşə gələnlər üçün normal şərait yaradılması müəyyən edilmişdir.

Müəssisə sakinlərinin "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq hüquqları olsa da, müəssisədə psixoloq ştatı vakantdır.

Bundan başqa, sakinlərə keyfiyyətli sosial xidmətlərin göstərilməsi üçün ixtisaslı sosial işçilər yoxdur və 2 sosial işçi ştatından biri vakantdır, həmçinin müəssisədə cəmi bir nəfər ixtisaslı nevropatoloq həkim çalışır ki, bu da müəssisədə sakinlərə ixtisaslı sosial xidmətlərin, fərdi reabilitasiya kurslarının keyfiyyətlə həyata keçirilməsinə imkan vermir və faktiki kadr sayı sakinlərin sayına adekvat deyil.

Müəssisənin sakinlərindən 8 nəfərin şəxsiyyətini təsdiq edən sənədləri müxtəlif səbəblərdən mövcud deyil və bu hal həmin şəxslərin bir sıra hüquqlarının həyata keçirilməsinə, o cümlədən əlilliyin qiymətləndirilməsinə imkan vermir. Bu səbəbdən həmin sakinlərin arxiv sənədlərinin aşkar edilməsi və ya məhkəmə qaydasında hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi məqsədilə onlara hüquqi yardımın təşkil edilməsi zəruridir.

Müəssisənin mentor və psixoloq otaqlarının zəruri əyani didaktik materiallarla təchiz edilməsinə də ehtiyac var.

MPQ üzvləri tərəfindən Gəncə şəhər ***4 saylı psixonevroloji sosial xidmət müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Müəssisədə limit 110 nəfərdir və başəkmə günü burada 108 nəfər çətin həyat şəraitində olan şəxslər (onlardan 1-i yaşı 70-dən yuxarı olan şəxs) saxlanılırdı. Sakinlərdən yalnız 54 nəfərin əlilliyi təsdiq edilmişdir.

Müəssisənin ştat cədvəli 66 yerlik olsa da, 51 nəfər işçi heyət çalışır, müəssisənin fəaliyyəti üçün zəruri olan bir sıra ştat vahidləri - həkim psixiatr, sosial işçi, mentor, koordinator, metodist, tibb bacısı ştatları vakantdır.

2024-cü il ərzində müəssisə sakinlərindən 3 nəfər ölüm halı qeydə alınıb.

Başçəkmə çərçivəsində saxlanılma şəraiti ilə bağlı müəssisənin inzibati və yataqxana korpuslarına, həyətinə, mətbəxinə, yeməkxanaya, ərzaq və inventar anbarlarına və digər obyektlərə baxış keçirilmişdir.

Müəssisənin palatalarındakı sanitar qovşaqların kanalizasiya sistemləri nasaz olduğundan sakinlər ümumi sanitar qovşaqdan istifadə edirlər ki, bu da sanitar-gigiyenik şəraitə mənfi təsir göstərir. Palataların vəziyyəti isə qənaətbəxş olsa da, kişi sakinlər üçün nəzərdə tutulmuş palataların bəzilərinin cari təmirinə ehtiyac var.

Müəssisəyə əvvəlki başçəkmələr zamanı aşkar edilmiş bəzi nöqsanların aradan qaldırıldığı müəyyən edilmişdir. Məsələn, psixoloq ştatına təyinat olub və psixoloji işin təşkilinə başlanılıb.

Buna baxmayaraq bəzi çatışmnazlıqlar hələ də mövcuddur. Müəssisədəki psixoloq otağının zəruri əyani-didaktiv materiallarla təchiz olunmasına ehtiyac var.

Müəssisənin profilinə uyğun olaraq sakinlərə keyfiyyətli tibbi-sosial xidmətlərin göstərilməsi üçün zəruri olan həkim psixiatr ştatı və 2 sosial işçi ştatından biri vakantdır, ki, bu da müəssisədə yaşayan çoxsaylı sakinlərə ixtisaslı tibbi-sosial xidmətlərin, fərdi reabilitasiya kurslarının keyfiyyətlə həyata keçirilməsinə imkan vermir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.0.9-cu maddəsinə əsasən sosial xidmət müəssisələrində saxlanılan şəxslərin daxili intizam qaydalarını pozmamaq şərti ilə dini ayinlərin icrası üçün ayrıca yerlə təmin olunmaq hüququ olsa da, müəssisədə bu məqsədlə yer ayrılmamışdır.

Burada da sakinlərdən 5 nəfərin şəxsiyyətini təsdiq edən sənədləri müxtəlif səbəblərdən mövcud deyil və bu hal həmin şəxslərin bir sıra hüquqlarının həyata keçirilməsinə, o cümlədən əlilliyin qiymətləndirilməsinə imkan vermir.

Ombudsmanın tapşırığı əsasında MPQ üzvləri tərəfindən ***2 saylı Uşaq evi sosial xidmət müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Qeyd edilməlidir ki, müəssisənin binası köhnədir və əsaslı təmirə ehtiyac var.

Saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması üçün uşaqlarla fərdi söhbət aparılmışdır. Onlar uşaqlar arasında müəssisədən qaçma hallarının yayıldığını bildirmişlər. Bu isə müəssisə rəhbərliyi tərəfindən nəzarətin zəif təşkil edildiyini göstərir. Araşdırma zamanı müəssisə əməkdaşları bu faktı təsdiq etmiş, bu hallarla bağlı xüsusi jurnalın tərtib edildiyi və orada müvafiq qeydlərin aparıldığını vurğulamışlar. Həmin jurnala baxış keçirilmiş və bu fakt öz təsdiqini tapmışdır.

Əməkdaşlar, eyni zamanda müəssisənin ətrafında olan hasarların alçaq olduğunu və bir sıra yerlərdən asanlıqla hasarı aşmaq imkanının mövcudluğunu qeyd etmişlər.

Xüsusi narahatlıq doğuran məqam ondan ibarətdir ki, müəssisədən qaçış halları ilə bağlı yerli polis orqanlarına və ya DİN-in "102" xidməti-zəng mərkəzinə müraciət olduqda, polis orqanları tərəfindən müvafiq polis bölməsinə yaxınlaşaraq ərizə yazılması tələbi səsləndirilir ki, bir çox hallarda hadisələr gecə vaxtı baş verdiyindən növbətçi əməkdaşlar uşaqları nəzarətsiz qoyaraq polis bölməsinə yaxınlaşmaq imkanına malik olmurlar.

Uşaqların həyat, sağlamlığı və təhlükəsizliyi baxımından müəssisədən qaçma hallarının qarşısının alınması istiqamətində təxirəsalınmaz addımların atılması zəruridir.

Müəssisə ərazisində müşahidə kameralarının sayı azdır, kameralaşdırmanın tam aparılmasına ehtiyac var.

Burada kadr çatışmazlığının olduğu müşahidə edilmişdir. Belə ki, müəssisədə 101 ştat vahidindən cəmi 70 ştat üzrə əməkdaş çalışır. Müəssisədə stomatoloq ştatı olsa da, vakantdır. Bu isə praktikada uşaqların sağlamlıq hüququnun qorunması ilə bağlı ciddi problemlərin yaranmasına səbəb olur.

Müəssisədə çalışan psixoloqun fəaliyyətinin təkmilləşdirilməsi üçün müxtəlif təlim, kurslara cəlb edilməsinə, eyni zamanda ümumilikdə psixoloq işinin

təkmilləşdirilməsinə ehtiyac vardır.

İsti su təminatı ilə bağlı da problem müəyyən edilmişdir.

Müəssisə sakinləri ilə söhbət zamanı uşaqlar paltar təminatının olmadığını, öz qohumları hesabına və ianələr əsasında geyimlə təmin olunduqlarını bildirmişlər. Onlardan bəziləri müəssisədə uşaqların digər uşaqlar tərəfindən bullinq və kobud davranışa məruz qaldıqları barədə iddialar səsləndirmişlər.

Yeməkxana və ərzaq anbarı ilə tanışlıq zamanı hazırlanan yeməklərlə təqdim edimiş menyuda həmin gün üçün nəzərdə tutulmuş yeməklərin üst-üstə düşmədiyi, bir sıra istifadə üçün yararlılıq müddəti bitmiş qida məhsulları və ərzaq aşkar edilmişdir.

Müəssisədə gigiyena qaydalarına riayət edilməsinə nəzarətin artırılmasına ehtiyac var.

Ombudsmanın tapşırığı əsasında ***3 saylı Uşaq evi sosial xidmət müəssisəsinə*** keçirilən başçəkmə zamanı burada həyata keçirilmiş son araşdırmalardan sonra müəssisə rəhbəri də daxil olmaqla bir neçə əməkdaşa (12 nəfər əməkdaş töhmət almış) töhmət verildiyi müəyyən edilmişdir. Bunlardan 2 nəfəri könüllü şəkildə işdən ayrılıb.

Müəssisədə kadr çatışmazlığı problemi mövcuddur. Belə ki, 61 ştat vahidindən cəmi 42 ştat üzrə əməkdaş müəssisədə çalışır. Burada xüsusilə klinik psixoloq ştatına ehtiyac olduğu müəyyən edilmişdir.

Sosial xidmət müəssisəsinin mətbəxində ərzaq məhsullarının saxlanma qaydasının pozulması halı aşkar edilmişdir.

Ombudsmanın tapşırığı ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Gəncə şəhər ***4 saylı Uşaq evi sosial xidmət müəssəsinə*** başçəkmələr həyata keçirilmişdir.

Uşaq evinin ikinci korpusunun inşası yekunlaşsa da, təhvil-təslim işləri aparılmadığından, həmçinin zəruri kommunal xidmətlərə - elektrik enerjisi, qaz, su təminatına qoşulmadığından ehtiyac olmasına baxmayaraq istifadə oluna bilmir. Buna görə də ikinci korpusun binasının istifadəyə verilməsi prosesinin surətləndirilməsi məqsədəmüvafiqdir.

Uşaq evində xidmətlər psixoloqlar, sosial işçilər və sosial xidmətçilər tərəfindən həyata keçirilir. İxtisaslı loqoped ştatı olmadığından hazırda müəssisədə saxlanılan nitq qüsurlu uşaqların loqopedin xidmətindən istifadəsi mümkün olmur. Mövcud olan 2 nəfər gecə dayəsi ştatı uşaqların sayına adekvat deyil və keyfiyyətli xidmətin təmin olunması üçün həmin ştatın artırılmasına ehtiyac var.

Başçəkmələr zamanı uşaq evinin sakinləri ilə görüş keçirilmiş, onların ümumi şəraitlərinin (geyim, yataq dəstlərinin təmizliyi, şəxsi gigiyenik vasitələrin mövcudluğu, əyani vəsaitlər və s.) normal olduğu müşahidə edilmişdir. Uşaq evinin sakinləri ilə söhbət zamanı saxlanma şəraiti və rəftarla bağlı şikayət daxil olmamışdır.

Tibb otağı ilə tanışlıq zamanı tibbi ləvazimatların və dərman preparatlarının mövcud olduğu, dərmanların saxlanılma qaydasına riayət olunduğu, göstərilən tibbi yardımların qeydiyyatının aparıldığı, tibbi müayinələr üçün ləvazimatların mövcud olduğu müşahidə edilmişdir.

Psixoloq otağı ilə tanışlıq zamanı uşaq evinin sakinlərinin hər biri üçün psixoloji xarakterlərini əks etdirən fərdi qeydiyyatların aparıldığı, müxtəlif psixoloji testlərin və üsulların tətbiq edildiyi, otağın əyani vəsaitlərlə təchiz olunduğu müəyyən edilmişdir.

Müəssisənin istilik sistemi tam çəkilmədiyindən bina istilik ilə qismən təmin edilir ki, bu da müəssisənin mövcud binasının imkanlarından qış aylarında tam istifadə edilməsində çətinliklər yaradır.

Müəssisənin binasının dam örtüyünün yararsız olması səbəbilə otaqlara su sızmaları baş verir və aşınmalara səbəb olur. Bu səbəbdən də binanın dam örtüyünün təmirinə ehtiyac var.

Bundan başqa 10 ildən artıq müddətdə istismar olunan mebellərin, fərdi paltar şkaflarının yenilənməsi məqsədəmüvafiqdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin ***Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Müəssisədə başçəkmə günü mövcud ştat cədvəli üzrə 25 ştat vakant olmuşdur ki, bunlardan da 2-i həkim-terapevtdir.

Müəssisənin sakinlərindən 9 nəfərin müxtəlif səbəblərdən şəxsiyyət vəsiqələrinin olmadığı aşkar edilmişdir. Bu hal həmin şəxslərin bir sıra hüquqlarının həyata keçirilməsinə, o cümlədən əlilliyin qiymətləndiriməsinə imkan vermir.

Bundan öncəki başçəkmələr zamanı müəyyən edilmiş problemlərin bir çoxunun həll olunduğu, həyətyani ərazinin abadlaşdırıldığı, idman meydançalarının yaradıldığı müəyyən edilmişdir. Təqdirəlayiq haldır ki, psixoloq ştatı üzrə vakant yerə ixtisaslı mütəxəssis cəlb edilmişdir.

Yataqxanada bəzi yataq otaqlarının vəziyyətinin qənaətbəxş olmaması, ikinci korpusda saxlanma şəraitinin yaxşılaşdırılmasına ehtiyac olduğu, bəzi otaqlarda süni işıqlandırmanın standartlara cavab vermədiyi müşahidə edilmişdir. Burada istilik sisteminin yenilənməsinə və əsaslı təmir işlərinin aparılmasına da ehtiyac var.

Rəftar məsələlərinin araşdırılması məqsədilə qəbul edilən ahıl şəxslər müəssisə rəhbərliyinin və işçi heyətin onlarla rəftarından narazılıq bildirməmişlər.

Başçəkmənin yekununda MPQ üzvləri müəssisə rəhbərliyi ilə təkrar görüş keçirmiş, bəzi nöqsanlar yerindəcə həll edilmiş, digər problemlərin həlli istiqamətində tövsiyələr verilmişdir.

### 2.2.6. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin tabeliyindəki müəssisə

Ombudsmanın tapşırığı ilə MPQ üzvləri tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət vergi xidmətinin ***Vergi cinayətlərinin ibtidai araşdırılması baş idarəsinin müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Ümumilikdə müvəqqəti saxlama yerində saxlanma şəraitini qənaətbəxş hesab etmək olar. Müəssisənin inzibati binası təmirlidir, saxlama kameraları və digər otaqlar standartlara uyğundur.

Müvəqqəti saxlama yerində hər hansı saxlanılan şəxs müşahidə edilməmiş, habelə müəssisənin rəhbərliyi tərəfindən verilən məlumata əsasən həmin inzibati binada fəaliyyətə başladıqları dövrdən saxlanılan şəxs olmamışdır.

Müəssisənin növbətçi hissəsində sənədləşmə işi araşdırılarkən müvafiq qeydiyyat jurnallarında möhürlənmənin aparıldığı müşahidə edilmişdir.

Bununla yanaşı bəzi nöqsanlar da aşkar edilmişdir. Belə ki, tibb otağında vaxtı keçmiş dərman preparatları aşkar edilmişdir. Bundan başqa təbii işıqlanma zəifdir və 2 nömrəli kamerada sanitar qovşaq nasaz vəziyyətdədir. Saxlanılan şəxs olmasa da, qeyd edilən məsələlərin həll edilməsinin zəruriliyi müəssisə rəhbərliyinin diqqətinə çatdırılmışdır.

### 2.2.7. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisələr

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Dövlət Miqrasiya Xidmətinin Qanunsuz miqrantların saxlanılması mərkəzlərinə də preventiv başçəkmələr həyata keçirilir.

2024-cü ildə Milli Preventiv Qrupun üzvləri tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin ***Bakı şəhər Qanunsuz miqrantların saxlanılması mərkəzinə*** başçəkmələr həyata keçirilmişdir.

Birinci başçəkmə zamanı müəssisədə hamısı könüllü saxlanılan olmaqla 47 nəfər şəxsin (2-i qadın) saxlanıldığı müəyyən edilmişdir.

Müsbət məqamlar kimi, sıxlığın olmamasını və saxlanılan şəxslərin rəftardan şikayət etməməsdini göstərmək olar. Bununla yanaşı, bəzi çatışmazlıqlar və problemlər müəyyən edilmişdir. Saxlanılan şəxslərə gündə yalnız bir dəfə - səhər vaxtı çay verildiyi, günün qalan vaxtlarında krandan su içdikləri müəyyən edilmişdir. Eyni zamanda, kitabxana fondunun zəif olduğu müşahidə edilmişdir.

Rəftar məsələlərinin öyrənilməsi məqsədilə 20-dək şəxs qəbul edilmişdir. Onların yeməyin dadsız, çüşidinin məhdud və porsiyaların az olduğunu bildirmişlər. Miqrantlar həmçinin müalicənin formal xarakter daşıdığını, həkimdən narazı olduqlarını bildirmişlər. Bəzi miqrantların Ombudsmana ünvanlanan ərizələri qəbul edilmişdir.

Tibb otağına baxış zamanı istifadə müddəti bitmiş “İxtiol”, “Novarest”, “Additiv Vitamin C” kimi dərman preparatları aşkar edilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında həmin müəssisəyə təşkil olunmuş ikinci başçəkmədə məqsəd burada saxlanılan Əfqanıstan Respublikasının vətəndaşı Ə.Ə. tərəfindən Ombudsmanın ünvanına daxil olmuş müraciətin araşdırılması olmuşdur.

Başçəkmə zamanı həmin şəxs MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmiş, onunla konfidensial söhbət aparılmışdır. O, bu müəssisədəki saxlanma şəraitindən, əməkdaşların onunla rəftarından və göstərilən tibbi xidmətdən narazılıq etməmişdir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin ***Naxçıvan şəhəri Qanunsuz miqrantların saxlanılması mərkəzinə*** həyata keçirilmiş başçəkmə zamanı müəssisənin bütün obyektlərinə baxış keçirilmiş, heç kəsin saxlanılmadığı müşahidə edilmişdir. Cari il ərzində müəssisədə ümumilikdə 6 əcnəbinin saxlanıldığı qeyd edilmişdir.

MPQ üzvləri tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin ***Yevlax rayon Qanunsuz miqrantların saxlanılması mərkəzinə*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı mərkəzin inzibati binasına, iki mərtəbədən ibarət olan könüllü saxlanılanların müvəqqəti saxlanılma binasına, məcburi saxlanılanlar üçün binaya, camaşırxana və hamama, mətbəxə, yeməkxanaya, ərzaq anbarına, görüş otağına və digər xidməti otaqlara, idman meydançasına baxış keçirilmişdir. Hər iki başçəkmə gedişində Mərkəzdə saxlanılan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs aşkar edilməmişdir.

Müəssisədə əvvəlki müddətdə saxlanılan şəxslərin saxlanılmalarını təsdiq edən şəxsi işlərlə tanışlıq zamanı qeyri-qanuni hal aşkar olunmamışdır.

Başçəkmələr zamanı bəzi çatışmazlıqlar aşkar edilmişdir. Belə ki, mərkəzdə ixtisasca həkim olan tibb işçisi yoxdur. Bu isə, mərkəzə qəbul edilən şəxslərin 24 saat müddətində tibbi müayinələrdən (rentgenoloji, laborator və sair) keçirilməsi ilə bağlı qanunvericiliyin tələblərinin lazımıncə yerinə yetirilməsinə maneçilik yaradır.

Mərkəzin tibb otağında xüsusi saxlanma rejimi tələb edən dərman preparatların yararlıq müddətləri ərzində keyfiyyətini itirməməsi üçün otağın müvafiq soyuducu ilə, psixoloq otağında keyfiyyətli psixoloji yardım işinin təşkili üçün əyani-didaktik materiallarla təchiz edilməsinə ehtiyac var.

Kitabxananın miqrantların hüquq və vəzifələri ilə bağlı maarifləndirici bukletlərlə təchiz olunmasına məqsədəmüvafiqdir.

Mərkəzdə bərbər və sürücü ştatları da vakantdır.

### 2.2.8. Müdafiə Nazirliyinin müəssisələri

MPQ-nin üzvləri tərəfindən Müdafiə Nazirliyinin tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 2024-cü il ərzində 2 başçəkmə həyata keçirilmişdir.

***N saylı intizam xarakterli hərbi hissədə*** başçəkmə həyata keçirilmiş başçəkmə zamanı hərbi qulluqçuların həbsdə saxlanma rejimi, onların yaşayış şəraiti, asudə vaxtlarının səmərəli təşkili, sağlamlıqlarının qorunması, qidalanma vəziyyəti və digər məsələlər araşdırılmışdır. Məhkumlara olan münasibətin, saxlanılma rejiminə uyğun olaraq məhkum yataqxanalarında təbii işıqlanmanın və təmizliyin normal olduğu, məhkumların istifadəsində olan çarpayı və yataq dəstlərinin, təmiz və səliqəli olmaqla məhkumların sayına uyğun olduğu müəyyən edilmişdir. Həmçinin məhkumların asudə vaxtlarını keçirmək üçün müvafiq şəraitin yaradıldığı, idman şəhərciyinin fəaliyyət göstərdiyi müşahidə edilmişdir.

MPQ üzvləri müəssisədə saxlanılan hərbi qulluqçularla görüşərək, onlarla insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqları, Müvəkkilin bu istiqamətdə fəaliyyəti, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparmış, çoxsaylı sualları cavablandırılmışdır. Hərbi qulluqçular saxlanma şəraiti, onlara qarşı rəftar və qidalanma ilə bağlı şikayətlərinin olmadığını bildirmişlər.

MPQ üzvləri tərəfindən hərbi hissənin rəhbərliyinə Ombudsmanın 916 Çağrı Mərkəzi ilə bağlı məlumatı özündə əks etdirən lövhələr təqdim edilmiş və onlar hərbi hissənin rahat görünən yerlərində yerləşdirilmişdir.

Saxlanma şəraitinin daha da təkmilləşdirilməsi və rəftar məsələləri ilə bağlı milli qanunvericilik və beynəlxalq standartlar əsasında hərbi hissə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

### 2.2.9. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Ombudsman və onun Milli Preventiv Qrupu tərəfindən Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Müvəqəti saxlama yeri və istintaq təcridxanasına başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı Ombudsmanı MPQ-nin üzvləri, o cümlədən MPQ-nin ixtisasca həkim üzvü müşayiət etmişlər. BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil edilmiş başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin öyrənilməsi, habelə saxlan şəxslərlə bağlı daxil olmuş, o cümlədən media subyektrlərində yayılmış məlumatların araşdırılması olmuşdur.

Saxlanma şəraitinin və rəftarın öyrənilməsi məqsədilə Ombudsman və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən şəxslər konfidensial qaydada qəbul edilmiş, müraciətlər yerində araşdırılmış, onların yerində həlli istiqamətində tədbirlər görülmüş, zəruri hallarda aidiyyəti qurumlara müraciətlər edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilmiş, barələrində həbs qətimkan tədbiri seçilmiş və cinayət törətməkdə ittiham olunan erməni əsilli şəxslər müəssisələrdə qəbul edilmişlər. Başçəkmə zamanı saxlanma şəraiti, onlarla rəftar, tibbi xidmətin əlçatanlığı məsələləri araşdırılmış, onlara Ombudsmanın səlahiyyətləri barədə məlumat verilmiş, öz dillərində hüquqlarının əks olunduğu materiallar təqdim edilmişdir.

2024-cü il ərzində MPQ üzvləri tərəfindən həmin müəssisəyə təkrar başçəkmələr keçirilmiş, saxlanma şəraiti, qidalanma, rəftar məsələləri, tibbi yardım və digər hüquqların təmin olunması vəziyyəti araşdırılmış, saxlanılan şəxslər fərdi qaydada qəbul edilmişdir.

Başçəkmələr zamanı MPQ-nin həkim üzvü tərəfindən müəssisənin Tibb-sanitar hissəsində təsadüfi seçim əsasında, eləcə də müraciət edən şəxslər müayinə olunmuş, tibbi sənədləri öyrənilmişdir.

Başçəkmələrin yekununda müəssisənin rəhbərliyi ilə müzakirələr aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun müvafiq tövsiyələr verilmişdir.

## BÖLMƏ 3

## HÜQUQİ TƏHLİL

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən fəaliyyət istiqamətlərindən biri də preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlilidir.

Ombudsman və MPQ üzvləri tərəfindən həyata keçirilən başçəkmələr çərçivəsində şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə qəbullar zamanı Müvəkkilə ünvanlanmış yazılı müraciətlərlə yanaşı, 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzinə daxil olan zənglərin mahiyyəti də təhlillər üçün əhəmiyyətli olmuşdur.

Şəxslərin maraqlarına bu və ya digər şəkildə toxunan normaların hüquqi təhlili nəticəsində hazırlanmış təklif və tövsiyələr Müvəkkil tərəfindən aidiyyəti dövlət orqanlarına göndərilir və əsas etibarilə öz müsbət həllini tapır.

Monitorinqlərin aparıldığı müəssisələrdə təmir-bərpa işlərinin həyata keçirilməsi, bəzi hallarda yeni müəssisələrin tikilib istifadəyə verilməsi şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir.

Lənkəranda müasir penitensiar kompleksin istifadəyə verilməsi xüsusilə qeyd olunmalıdır. Ümumi saxlama limiti 1300 nəfər olan və iki hissədən ibarət olmaqla inşa edilmiş kompleks Lənkəran və ətraf rayonlardan olan təqsirləndirilən şəxslərin və məhkumların saxlanılmasına, bununla da həmin şəxslərin ailə üzvləri ilə vaxt itkisi olmadan və əlavə yol xərcləri çəkmədən görüşmələrinə şərait yaradacaqdır.

Qeyd olunan müəssisənin istifadəyə verilməsi sıxlığın azalmasına şərait yaratsa da, ötən il həyata keçirilən başçəkmələr zamanı Bakı İstintaq Təcridxanası, 2 saylı İstintaq Təcridxanası, 7, 15 və 17 saylı cəzaçəkmə müəssisələrində bu problemin hələ də qaldığı müşahidə edilmişdir.

Məlum olduğu kimi, "Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2009-cu il tarixli 2 saylı Qərarında məhkəmələrə həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən ilk növbədə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 154-cü maddəsində nəzərdə tutulmuş digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün yoxlanılması, təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasının əsaslandırılması tövsiyə olunur.

Bununla yanaşı, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar cəza siyasətinin humanistləşdirilməsini və cinayətlərin dekriminallaşdırılmasını, qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına əməl olunmasını, alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsini nəzərdə tutur.

Buna baxmayaraq, təhlillərin nəticəsi onu deməyə əsas verir ki, həbsə alternativ qətimkan tədbirləri olduqca az hallarda tətbiq olunmaqdadır. Ombudsman şəxsi cəmiyyətdən təcrid etmədən azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzaların və həbsə alternativ qətimkan tədbirlərinin (ev dustaqlığı, girov, şəxsi zaminlik və s.) tətbiqi praktikasının genişləndirilməsini zəruri hesab edir.

Həbsə alternativ qətimkan tədbirlərinin seçilməsi, istintaq hərəkətlərinin mümkün qədər qısa müddətdə yekunlaşdırılması, prokurorluq tərəfindən prosessual nəzarətin

gücləndirilməsi, habelə azadlıqdan məhrumetməyə alternativ cəzalara üstünlük verilməsi penitensiar müəssisələrdəki sıxlıq probleminin aradan qaldırılmasına da müsbət təsirini göstərəcəkdir.

Həbs edilmiş şəxslər və məhkumlar saxlanma rejimindən asılı olmayaraq istənilən vaxt tibbi xidmətə çıxış imkanına malik olmalı, həkim müayinəsi barədə müraciətlər lüzumsuz yubanmalar olmadan təşkil edilməlidir.

Müəssisələrdəki sıxlıq problemi tibbi müayinə və müalicədə gecikmə hallarına da səbəb olur. 2024-cü il ərzində Penitensiar Xidmətin Müalicə Müəssisəsinə gətirilmiş məhkumların və təqsirləndirilən şəxslərin ilkin müayinələrdən (rentgen, laborator, USM) keçirilməsi və aidiyyəti üzrə müalicə şöbələrinə köçürülməsi əsas etibarilə 3-4 gün çəkmişdir. Müayinəsi yekunlaşmış bəzi məhkumların köçürüləcəkləri şöbələrdə mövcud olan sıxlıq səbəbi ilə bir müddət müəssisənin qəbul şöbəsində saxlanılması ciddi narahatlıq doğuran məqamlardandır.

Müəssisədə Kompüter Tomoqrafiyası (KT) və Maqnit-Rezonans Tomoqrafiyası (MRT) müayinələrinin həyata keçirilməsi üçün müvafiq avadanlıqların olmaması xüsusi vurğulanmalıdır. Təcili MRT, KT, biopsiya kimi müayinələrə ehtiyac duyulan xəstələrin həmin müayinələrdən digər tibb müəssisələrində keçirilməsi işinin təşkilində də ləngimələr müşahidə olunur. Məsələn, 19.04.2024-cü il tarixdə Müalicə Müəssisəsinə daxil olmuş, 22.04.2024-cü il tarixdə isə kəskin radikulopatiya diaqnozu ilə həmin müəssisənin nevrologiya şöbəsinə göndərilmiş məhkuma MRT müayinəsindən keçiriləcəyi barədə məlumat verilsə də, 22.05.2024-cü il tarixə qədər zəruri tədbirlər görülməmişdir.

Sıxlıq probleminin tibbi xidmətlərə çatımla bağlı mənfi təsirlərinin aradan qaldırılması məqsədilə, xüsusən də istintaq təcridxanalarında saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, həm tibbi heyət, həm də dərman və digər tibbi ləvazimatların müəssisənin saxlanma limitinə deyil, saxlanılan şəxslərin faktiki sayına uyğunlaşdırılması zəruridir.

Penitensiar Xidmət müəssisələrinə başçəkmələr zamanı istifadəyə yararlılıq müddəti bitmiş dərman vasitələri aşkar edilmiş (2 saylı istintaq təcridxanası, 15 saylı cəzaçəkmə müəssisəsi), müəssisələrin tibbi-sanitariya hissələrinin qeydiyyat jurnallarında zəruri qeydlərin aparılmadığı və ya natamam aparıldığı (2 saylı istintaq təcridxanası, 5 və 7 saylı cəzaçəkmə müəssisələri) müşahidə edilmişdir. Bəzi müəssisələrdə dərman təminatının qənaətbəxş olmadığı, xüsusilə nevroloji xəstəliklərdən (epilepsiya, serebral iflic və digər), habelə İİV/QİÇS və şəkərli diabetdən əziyyət çəkənlər üçün dərmanların ümumiyyətlə verilmədiyi (2 və 5 saylı cəzaçəkmə müəssisələrində) müəyyən edilmişdir. Başçəkmələr zamanı bəzi müəssisələrdə dərman preparatlarının saxlanma qaydalarına riayət edilmədiyi, xüsusi soyuducuda saxlanılması zəruri olan dərmanların açıqda saxlanılması halları (5 saylı cəzaçəkmə müəssisəsi) aşkar edilmişdir. Başçəkmə çərçivəsində həyata keçirilən qəbullar zamanı bəzi məhkumlar tibbi xidmətlərdən şikayət etmiş, həkim qəbuluna düşməyin çətin olduğunu, ümumiyyətlə müayinə və müalicə olunmaqda çətinliklərlə üzləşdiklərini bildirmişlər.

Məlum olduğu kimi, cinayət qanunvericiliyinə əsasən, məhkəmələr tərəfindən təyin edilən azadlıqdan məhrum etmə növündə cəzanın müddətindən asılı olaraq

xarakteri və ictimai təhlükəlilik dərəcəsi eyni olan cinayət əməlini törətmiş şəxslərin cəzalarını fərqli cəzaçəkmə müəssisəsində çəkmələri təsbit edilir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56-cı maddəsinə əsasən, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər cəzalarını məntəqə tipli cəzaçəkmə müəssisələrində, beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər isə ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkirlər. Həmin maddəyə əsasən, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər də cəzasını ümumi rejimli cəzaçəkmə müəssisələrində çəkirlər.

Ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin qəsdən az ağır və ya ağır cinayətlər törətmiş şəxslərlə eyni rejimli cəzaçəkmə müəssisəsində saxlanılması onların qəsdən cinayət törətmiş şəxslərin təsiri altına düşməsinə səbəb olmaqla yanaşı, islah olunmalarına neqativ təsir göstərə bilər.

BMT-nin Məhbuslarla davranışın minimal standart qaydalarına (Nelson Mandela Qaydaları) əsasən, müxtəlif kateqoriyadan olan məhkumlar onların cinsi, yaşı, əvvəllər məhkum olunması, həbs edilməsinin hüquqi səbəbləri və onlarla davranışa dair zərurət nəzərə alınmaqla, ayrı-ayrı müəssisələrdə, yaxud eyni müəssisənin müxtəlif hissələrində saxlanılmalıdırlar. Bu Qaydalara əsasən, təsnifatın əsas məqsədi məhbusların cinayətkar keçmişi, yaxud xarakterinin mənfi cəhətləri ilə onlara pis təsir göstərmək təhlükəsi doğuranlardan ayırmaq və məhbusları cəmiyyət həyatına qaytarmaq məqsədilə onlarla aparılan işi asanlaşdıran kateqoriyalara bölməkdir.

Qeyd olunanlar, habelə ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzalarını ən yüngül rejimli cəzaçəkmə müəssisələrində çəkmələri ilə bağlı xarici ölkələrin təcrübəsi nəzərə alınaraq, məntəqə tipli cəzaçəkmə müəssisələrinin əsasında ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulan ayrıca cəzaçəkmə müəssisələrinin yaradılması və təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzasının həmin müəssisələrdə çəkilməsinin qanunvericiliklə təsbit edilməsi məqsədəmüvafiq hesab edilir.

Bundan başqa, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş 18-24 yaş arası şəxslər üçün xüsusi cəzaçəkmə müəssisəsinin yaradılması və yetkinlik yaşına çatmayan şəxslər üçün tərbiyə müəssisələrində cəza çəkən və 18 yaşı tamam olmuş şəxslərin həmin müəssisələrə göndərilməsi də məqsədəmüvafiq olardı. Ali təhsil imkanlarının da təmin ediləcəyi belə müəssisənin yaradılması saxlanılan şəxslərin islah olunması prosesinə, habelə cəzalarını çəkib qurtardıqdan sonra onların sosial adaptasiyasına da müsbət təsirini göstərə bilər. Qeyd edilən müəssisələrin yaradılması penitensiar müəssisələrdə mövcud sıxlıq probleminin həllinə də müsbət təsir göstərə bilər.

Məlum olduğu kimi, Ombudsmanın da təklifi nəzərə alınaraq, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin isə həftədə bir dəfə, müddəti on beş dəqiqə olmaqla videogörüş keçirmək hüququ təsbit edilmişdir.

Təhlillərə əsasən, 2024-cü ildə bəzi müəssisələrdə saxlanılan şəxslərin videogörüş keçirmək hüququ ilə bağlı müəyyən məhdudiyyətlərin tətbiq edildiyi müəyyən olunmuşdur ki, bunun da səbəbləri kimi bəzi hallarda videogörüşlərin sosial şəbəkələrdə yerləşdirilməsi, digər hallarda isə texniki imkanların məhdud olması göstərilmişdir.

Yeri gəlmişkən, Ombudsman "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edilməklə tutulmuş və həbs edilmiş şəxslərin də yaxınları ilə videogörüş keçirmək hüququnun təsbit edilməsini təklif edir.

Penitensiar Xidmətin müəssisələrinə başçəkmələr zamanı müxtəlif kateqoriyadan olan şəxslərin birgə saxlanılmasına da rast gəlmək mümkündür. Qanunvericiliklə əksi təsbit olunsa da, Penitensiar Xidmətin 2 saylı İstintaq təcridxanasına başçəkmələr zamanı ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslərin əvvəllər azadlıqdan məhrumetmə növündə cəza çəkmiş şəxslərlə, habelə yetkinlik yaşına çatmayan şəxsin yetkinlik yaşına çatanlarla birgə saxlanıldığı müşahidə edilmişdir.

Müxtəlif kateqoriyalardan olan şəxslərin bir yerdə saxlanılması hallarına müvəqqəti saxlama yerlərinə həyata keçirilən başçəkmələr zamanı da rast gəlmək mümkündür.

2024-cü ildə də Bakıda və regionlarda yerləşən bir sıra müvəqqəti saxlama yerlərinə (MSY) başçəkmələr zamanı ilk dəfə cinayət törətməkdə şübhəli bilinən şəxsin əvvəllər azadlıqdan məhrum edilmiş şəxslə birgə saxlanılması halları aşkar edilmiş, bununla bağlı qanunvericiliyin tələbləri polis əməkdaşlarına izah edilmişdir. Müəssisə rəhbərliyi və əməkdaşlarla aparılan izahat işləri zamanı bəzən onların qanunvericiliyin bu tələbi barədə məlumatlı olmadıqları müəyyən edilmişdir.

Başçəkmələrin nəticələri onu deməyə əsas verir ki, bəzi MSY-lərin kameralarında işıqlandırmaya, istiliyin verilməsinə, saxlanılan şəxslərin sayına görə oturacaqların olmasına, gəzinti yerinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə, açıq havada fiziki hərəkətlərin icrası üçün zəruri şəraitin yaradılmasına diqqət artırılmalıdır. Qanunvericiliklə müəyyən edilmiş tələb və standartların pozulması ilə əlaqədar nöqsan və çatışmazlıqlar daha çox Saatlı, Sabirabad, Siyəzən və Qax rayon polis şöbələrinin MSY-lərində müşahidə edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki psixiatriya müəssisələrində sıxlıq problemi qalmaqdadır. Bu müəssisələrdə həkim və orta tibb heyəti üzrə kadr çatışmazlığı mövcuddur.

Narkoloji tibb müəssisələrində müalicə üçün növbə gözləyənlərin sayı kifayət qədərdir. Burada da ixtisaslı kadrların - narkoloq və kliniki psixoloqların çatışmazlığı mövcuddur ki, həmin peşə üzrə mütəxəssislərin də sayının artırılması vacibdir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrə keçirilmiş başçəkmələr zamanı əvvəlki monitorinqlərdə verilmiş təklif və tövsiyələrin icra edildiyi müşahidə olunsa da, bəzi nöqsanların hələ də qaldığı müəyyən edilmişdir. Nazirliyin tabeliyindəki əsaslı təmirə ehtiyac olan müəssisələrdə, xüsusilə inteqrasiya təlimli internat tipli gimnaziyalarda saxlanma şəraitinin təkmilləşdirilməsi vacibdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil aldıqları internat məktəblərində, xüsusi təhsilə cəlb olunmuş orta və yuxarı sinif şagirdləri üçün müvafiq dərslik və dərs

vəsaitlərinin təminatında çatışmazlıqların olduğu aşkar edilmişdir. Belə məktəblərdə azyaşlıların psixi sağlamlığına göstərilən diqqətin artırılması, uşaqlarla psixoloji işin aparılmasında nümunəvi sənədlərin, fərdi iş planlarının formalarının işlənib hazırlanması, bu istiqamətdə məşğələlərin aparılması üçün kabinetlərin əyani vəsaitlərlə təmin olunması zəruridir.

Başçəkmələr zamanı uşaqların asudə vaxtının səmərəli təşkilinə, maraqlarının və qabiliyyətlərinin, o cümlədən peşə maraqlarının öyrənilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir. Əksər məktəblərdə əmək təlimi və peşə hazırlığı işlərinin aparılması üçün maddi-texniki bazanın, emalatxanaların olmadığı müşahidə edilmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmə həyata keçirdiyi və şəhər icra hakimiyyəti orqanlarının tabeliklərində olan uşaq evləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 dekabr tarixli 436 saylı Qərarı ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilmişdir.

2024-cü ildə qeyd edilən müəssisələrin əsasında publik hüquqi şəxslər yaradılmaqla Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilməsi prosesi yekunlaşmışdır. Bu müəssisələrin sosial xidmət göstərilməsi üzrə ixtisaslaşmış qurumun tabeliyinə verilməsi valideyn himayəsindən məhrum olmuş uşaqların sosial təminatı və müdafiəsinin gücləndirilməsinə, onların cəmiyyətə reinteqrasiyası istiqamətində sistemli tədbirlərin görülməsinə, ümumilikdə bu kateqoriyadan olan uşaqların hüquqlarının daha yaxşı təmin olunmasına əlverişli imkan yaradır. Həmin müəssisələrə keçirilən başçəkmələrin nəticələri islahatların və yeni yanaşmaların tətbiqinə burada da ehtiyac olduğunu göstərməkdədir.

Başçəkmələr zamanı sosial xidmət müəssisələrində kadr çatışmazlığının mövcudluğu və vakant ştatların komplektləşdirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir. Psixoloq ştatının (məsələn, 3 saylı psixonevroloji sosial xidmət müəssisəsində) vakant olması müəssisə sakinlərinin “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanunu ilə təsbit edilmiş ödənişsiz psixoloji yardım almaq hüququnun təminində çətinliklərə səbəb olur. 4 saylı uşaq evi sosial xidmət müəssisəsində ixtisaslı loqoped ştatı olmadığına görə burada yaşayan nitq pozuntuları olan uşaqların loqoped xidmətlərindən istifadəsi digər müəssisədə həyata keçirilir. Odur ki, uşaq evi sosial xidmət müəssisələrinə loqoped ştat vahidinin ayrılması məqsədəmüvafiqdir.

Sosial xidmət müəssisələrinə həyata keçirilən başçəkmələr zaman sakinlərin bəzilərinin şəxsiyyətini təsdiq edən sənədlərin mövcud olmadığı müəyyən edilmişdir. Məsələn, 3 saylı psixonevroloji sosial xidmət müəssisəsində 8 nəfərin, 4 saylı psixonevroloji sosial xidmət müəssisəsində 5 nəfərin, ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 9 nəfərin müxtəlif səbəblərdən şəxsiyyət vəsiqələrinin olmadığı müəyyən edilmişdir. Bu isə həmin şəxslərin əlilliyinin qiymətləndirilməsində çətinliklərə səbəb olur. Bu şəxslərin arxiv sənədlərinin aşkar edilməsi və ya məhkəmə qaydasında hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi məqsədilə onlara hüquqi yardımın təşkil edilməsi zəruridir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı şəhərindəki Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilən başçəkmə zamanı,

orada saxlanılan şəxslər verilən qidaların çeşidi və miqdarından şikayət etmişlər. Mərkəzdə tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, dərman təchizatına və qidalanma məsələlərinə diqqətin artırılmasına ehtiyac vardır.

Yevlax rayonundakı Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilmiş başçəkmə zamanı həkim ştatının vakant olduğu müəyyən edilmişdir. Bu isə əcnəbilərin Mərkəzə qəbul edildiyi andan 24 saat müddətində həkim tərəfindən tibbi müayinədən keçirilməsi, hər bir qəbul edilən əcnəbiyə tibbi kitabça tərtib olunması ilə bağlı tələblərin yerinə yetirilməsində çətinliklər yaradır. Mərkəzdə rentgenoloji və laborator müayinələr üçün müvafiq avadanlıqların olmadığı da müşahidə edilmişdir.

Ümumiyyətlə, il ərzində həyata keçirilən başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi əksər müəssisələrdə ixtisaslı kadr, o cümlədən həkim çatışmazlığının olduğu aşkar edilmişdir. Ombudsman yaşa görə təqaüdə çıxmış ixtisaslı kadrların belə müəssisələrdə işlə təmin olunması üçün müvafiq mexanizmin işlənib hazırlanmasını tövsiyə edir.

Ombudsmanın Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) ilə əməkdaşlığı çərçivəsində imzalanmış Anlaşma Memorandumuna əsasən, qurumun rəhbəri və əməkdaşlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri ilə birlikdə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə - Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Umbakı Penitensiar Kompleksinə və Qaradağ Rayon Polis İdarəsinin müvəqqəti saxlama yerinə başçəkmələr keçirilmiş və Azərbaycan təcrübəsi öyrənilmişdir.

## BÖLMƏ 4

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

Hüquqi maarifləndirmə işinin təşkili Müvəkkilin MPM qismində fəaliyyətinin əsas istiqamətlərindən biridir. Hüquq-mühafizə orqanları əməkdaşlarının, QHT-lərinin hüquqi maarifləndirilməsinin, insan hüquqlarının daha səmərəli müdafiəsinə töhfəsini nəzərə alaraq, belə tədbirlərin və görüşlərin mütəmadi keçirilməsi əhəmiyyətlidir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən 2024-cü il üzrə təsdiq olunan insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqində səmərəliliyin artırılması ilə bağlı maarifləndirməyə dair tədbirlər planının icrası uğurla həyata keçirilmişdir.

Cəmiyyətdə hüquq mədəniyyətinin, dövlət qurumları və vətəndaş cəmiyyəti institutlarının insan hüquqlarının müdafiəsi və təmini sahəsində məlumatlılığının artırılmasına xidmət edən həmin tədbirlər planının həyata keçirilməsi məqsədilə Ombudsman Aparatı tərəfindən Bakıda və ölkəmizin regionlarında silsilə maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Tədbirlər planının icrası çərçivəsində Ombudsman Aparatında Elm və Təhsil Nazirliyinin Bakı şəhəri üzrə fəaliyyət göstərən internat tipli ümumi təhsil müəssisələrinin rəhbər heyəti və əməkdaşları üçün “Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti” mövzusunda təlim keçirilmişdir. Təlimə Ombudsmanın Şimal, Cənub, Qərb və Şimal-Qərb regional mərkəzlərinin və Naxçıvan Ombudsman Aparatının nümayəndələri də onlayn olaraq qoşulmuşlar.

Ombudsman Səbinə Əliyeva təlimdə açılış nitqi ilə çıxış edərək, işgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması istiqamətində Milli Preventiv Mexanizm mandatı çərçivəsində həyata keçirdiyi fəaliyyət barədə geniş məlumat vermişdir. Bu sahədə məlumatlılığın, hüquqi biliklərin artırılmasının əhəmiyyətindən danışan Ombudsman hüquq pozuntuları ilə bağlı vətəndaş müraciətlərinin diqqətlə araşdırıldığını və pozuntu aşkar edildiyi təqdirdə mandatı çərçivəsində təxirəsalınmaz addımların atıldığını qeyd etmişdir.

Daha sonra Aparatın əməkdaşları mövzu ilə bağlı məruzələrlə çıxış etmişlər. Məruzələrdə ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə, o cümlədən təhsil müəssisələrində rəftar məsələləri və saxlanma şəraitinin araşdırılması məqsədilə müntəzəm olaraq keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır.

Yekunda mövzu üzrə fikir mübadiləsi aparılmış, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Həmin tədbirlər planının icrası çərçivəsində hüquqi-maarifləndirmə tədbirləri hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən tədris müəssisələrində də təşkil edilmişdir. Ədliyyə Akademiyasında hakimliyə namizədlər üçün “Ombudsmanın insan hüquqlarının müdafiəsi və Milli Preventiv Mexanizm fəaliyyəti” mövzusunda keçirilmiş mühazirə Ombudsman Aparatı rəhbərinin müavini, Milli Preventiv Qrupunun rəhbəri tərəfindən tədris edilmişdir.

Ombudsmanın təşəbbüsləri və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyində həyata keçirilən islahatlar, Müvəkkilin insan hüquqlarının müdafiəsi, müstəqil monitorinq mexanizminin funksiyalarını həyata

keçirilməsi sahəsində fəaliyyəti haqqında geniş məlumat verilmiş, habelə “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanununun müddəaları tədris olunmuşdur.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Prezidentinin müvafiq Sərəncamı ilə Ombudsmanın Milli Preventiv Mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə fəaliyyətin daha səmərəli aparılması üçün ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən baxışlar, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar mili və xarici ölkə təcrübəsindən misallar gətirməklə dinləyicilərin diqqətinə çatdırılmışdır.

Azərbaycan Ombudsmanının insan hüquqlarının müdafiəsi sahəsində, o cümlədən MPM qismində həyata keçirdiyi fəaliyyəti dinləyicilər tərəfindən maraqla qarşılanmış, onların mövzu üzrə sualları cavablandırılmışdır.

Ədliyyə Akademiyasında Penitensiar Xidmətin əməkdaşları üçün “Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti” mövzusunda mühazirə tədris edilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Ombudsmanın Milli Preventiv Mexanizm (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyəti barədə informasiya dinləyicilərin diqqətinə çatdırılmışdır.

Penitensiar Xidmətin əməkdaşlarına Avropa Penitensiar Qaydaları, BMT-nin Məhbuslarla davranışın minimal standart qaydalarını (Nelson Mandela Qaydaları), BMT-nin Məhbuslarla rəftarın əsas prinsipləri, SPT tövsiyələri və CPT-nin ümumi məruzələrində yer almış standartları üzrə məlumatlar tədris olunmuşdur.

Ombudsmanının MPM qismində gördüyü işlər barədə suallar cavablandırılmışdır.

Ədliyyə Akademiyasında Ədliyyə nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşlarının, habelə Tibb xidmətinə qulluğa yeni qəbul edilmiş işçilərinin hüquqi biliklərə yiyələnmələri məqsədilə ixtisasartırma kursunda Ombudsman Aparatının əməkdaşları tərəfindən Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti mövzusunda təqdimat edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı tərəfindən “Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi” mövzusunda seminar təşkil olunmuşdur.

Müvafiq sahədə bilik və bacarıqların artırılması məqsədilə keçirilmiş tədbirdə bir sıra dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının və beynəlxalq qurumların nümayəndələri iştirak etmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və BMT QAK-ın ölkəmizdəki Nümayəndəliyinin rəhbəri tədbirdə giriş sözü ilə çıxış etmişdir.

Ombudsman əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması istiqamətində müvafiq qanunvericiliyin, hüquq-müdafiə mexanizminin təkmilləşdirilməsi və bu sahədə maarifləndirmə işinin əhəmiyyətindən danışmış, yerli və beynəlxalq qurumlarla, vətəndaş cəmiyyəti institutları ilə birgə tədbirlərin təşkil olunduğunu qeyd etmişdir.

S.Əliyeva beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətin tərkib hissəsi kimi, müvafiq sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla tərəfdaşlıqda mütəmadi olaraq görüşlərin, məsləhətləşmələrin və layihələrin həyata keçirildiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Müvəkkil Milli Preventiv Mexanizm mandatı çərçivəsində həyata keçirdiyi fəaliyyətindən danışaraq, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə başçəkmələrin keçirildiyini, rəftar və saxlanma şəraitinin araşdırıldığını bildirmişdir. Qeyd edilmişdir ki, başçəkmələr çərçivəsində qəbul edilən və müraciətləri araşdırılan şəxslər arasında əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də var və onların hüquqlarının müdafiəsi məsələlərinə Ombudsmanın fəaliyyətində geniş yer verilir.

Sonra tədbirdə Ombudsman Aparatının, həmçinin digər dövlət qurumlarının nümayəndələri, yerli və beynəlxalq ekspertlər aidiyyəti sahələr üzrə həyata keçirilən fəaliyyət, eləcə də beynəlxalq təcrübə barədə geniş məlumat vermiş, təqdimatlar etmişlər. Həmçinin ölkə təcrübəsində bu sahədə əldə olunan yeniliklər, Ombudsman tərəfindən formalaşdırılmış təcrübə iştirakçıların diqqətinə çatdırılmışdır.

Yekunda mövzu üzrə ətraflı fikir mübadiləsi aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Qeyd edilməlidir ki, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə 2024-cü ildə təşkil edilən müxtəlif görüşlər həmin müəssisələrdə saxlanılan şəxslərə və həmin müəssisələrin rəhbərliyi və əməkdaşlarına yönəlik maarifləndirmə işinin tərkib hissəsi olmuşdur.

Ombudsman Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin yetkinlik yaşına çatmayanlar üçün Tərbiyə Müəssisəsində görüş keçirmişdir.

Ombudsman çıxışı zamanı yetkinlik yaşına çatmayan şəxslərin sağlam həyat tərzi keçirmələrinin, təhsillərinə davam etmələrinin və yeni biliklər əldə etmələrinin, habelə asudə vaxtlarını səmərəli keçirmələrinin onların cəmiyyətdə nümunəvi vətəndaş kimi formalaşmalarında mühüm əhəmiyyət daşıdığını vurğulayıb. S.Əliyeva, həmçinin onların azadlığa çıxdıqdan sonra cəmiyyətə inteqrasiyası və adaptasiyası üçün dövlət tərəfindən lazımi şəraitin yaradıldığını da diqqətə çatdırıb.

Tədbir çərçivəsində bu şəxslərin hüquqları, Ombudsmana müraciət imkanları habelə Ombudsmanın Milli Preventiv Mexanizm qismində səlahiyyətləri barədə ətraflı məlumat verilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva tərəfindən 2024-cü il üzrə təsdiq olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqində səmərəliliyin artırılması ilə bağlı maarifləndirməyə dair tədbirlər planının icrası çərçivəsində Ombudsmanın Qərb Regional Mərkəzi tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Gəncə şəhər İnternat tipli xarici dillər təmayüllü Gimnaziyasında “Uşaqlara qarşı zorakılığın yolverilməzliyi” mövzusunda maarifləndirici tədbir keçirilib.

İştirakçılara Müvəkkilin uşaq hüquqlarının müdafiəsi istiqamətində fəaliyyəti, həmçinin bu sahədə mövcud olan milli qanunvericilik aktları və beynəlxalq sənədlər barədə ətraflı məlumat verilmişdir.

İnteraktiv şəkildə davam edən müzakirələr zamanı tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Anoloji tədbir Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva tərəfindən 20 oktyabr – 20 noyabr tarixlərində ölkəmizdə elan edilmiş "Uşaq Hüquqları Aylığı" çərçivəsində Elm və Təhsil Nazirliyinin Gəncə şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyasında keçirilmişdir. "Uşaqların hüquq və vəzifələri", "Hüquqlarımızı bilək, ətraf mühiti qoruyaq!" və "Ətraf mühit və Uşaq hüquqları" mövzularında keçirilmiş tədbirlərdə uşaq hüquqlarının qorunması və təmini sahəsində Ombudsmanın fəaliyyəti, Ombudsman haqqında Konstitusiya Qanununa edilmiş dəyişikliklərlə uşaq hüquqları sahəsində mandatının genişləndirilməsi barədə məlumat verilmişdir.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Gəncə şəhərində yerləşən 2 saylı İstintaq Təcridxanasında "Ombudsmanın Milli Preventiv Mexanizm mandatı işgəncələrin qarşısının alınmasında mühüm vasitə kimi" mövzusunda hüquqi maarifləndirici tədbir keçirilib.

Tədbirdə Ombudsmanın Qərb Regional Mərkəzinin rəhbəri Müvəkkilin MPM mandatı, həbs yerlərində saxlanılan şəxslərin, o cümlədən qadınların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi fəaliyyəti barədə məlumat verib.

Eyni zamanda, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş son dəyişikliklər tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

Yekunda mövzu üzrə iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə "Azərbaycanda psixi sağlamlıq məsələləri və psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqları" mövzusuna həsr edilmiş dəyirmi masa keçirilmişdir.

Ombudsmanın təşəbbüsü ilə keçirilən tədbirdə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev, Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Ombudsman Aparatının əməkdaşları, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, psixiatr və ekspertlər iştirak etmişlər.

Ombudsman Səbinə Əliyeva dəyirmi masada açılış nitqi ilə çıxış edərək əhalinin sağlamlığının qorunması hüququnun müdafiəsi sahəsində fəaliyyəti barədə ətraflı məlumat verib, bu istiqamətdə problemlərin araşdırılması və həll olunması üçün müvafiq tədbirlərin görüldüyünü bildirmişdir.

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində psixiatriya müəssisələrinə həyata keçirilən monitorinqlərdən danışan Müvəkkil bu cür monitorinqlərin mövcud problemlərlə əyani şəkildə tanış olmaq və preventiv tədbirlər görmək baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır. S.Əliyeva bəzi psixiatriya xəstəxanalarında, xüsusilə regionlardakı müəssisələrdə olan bir sıra nöqsanların

aradan qaldırılması ilə bağlı müvafiq təklif və tövsiyələrlə aidiyyəti qurumlara müraciət olunduğunu qeyd etmişdir.

Tədbirdə çıxış edənlər müvafiq sahədə ölkədə həyata keçirilən tədbirlər barədə məlumat vermiş, tibbi xidmətə əlçatanlığın yüksəldilməsi üzrə işlərin görülməsi, həmçinin ölkədə psixi sağlamlığın təmini sahəsindəki mövcud problemlərin həlli istiqamətində təklif və tövsiyələrini bildirmişlər.

Dəyirmi masada mövzu üzrə müzakirələr aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Ombudsman öz fəaliyyətində yerli, regional və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir. Bu baxımdan, İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq işinin təşkili Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindəndir.

Dövlət və yerli öznüidarəetmə orqanları, vətəndaş cəmiyyəti, media subyektləri, regional və beynəlxalq təşkilatlarla, habelə xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılması, birgə tədbirlərin təşkil edilməsi, müxtəlif tədbirlərdə iştirakın təmin edilməsi uğurla davam etdirilmişdir.

2024-cü ildə də Azərbaycan MPM-nin fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. İl ərzində başçəkmələrlə əlaqədar 28, maarifləndirmə və digər tədbirlərlə əlaqədar 13 olmaqla, cəmi 41 mətbuat açıqlaması (press reliz) yayımlanmışdır.

Mətbuat açıqlamaları, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Ombudsmanın rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Ombudsmanın MPM qismində fəaliyyətinin işıqlandırılmasında Ombudsmanın sosial şəbəkə hesabları da əhəmiyyətli rol oynamışdır. Bütün press-relizlər əlavə olaraq sosial şəbəkə hesablarında paylaşılmışdır.

*Beynəlxalq əməkdaşlıq*. 2024-cü il ərzində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azərbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Ombudsman MPM qismində BMT və onun müqavilə qurumları, habelə İQK, İQA, İQAK, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, BQXK, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlarla, müxtəlif ölkələrin MPM-ləri, o cümlədən Ombudsmanlar birlikləri ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır.

Ombudsmanın MPM qismində beynəlxalq əlaqələrinin həyata keçirilməsi istiqamətləri kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Ombudsman və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

Ombudsman və MPQ-nin üzvləri 2024-cü il ərzində beynəlxalq təşkilatların nümayəndələri, beynəlxalq ekspertlər, xarici həmkarlarla görüşlərdə və bir sıra tədbirlərdə iştirak etmişlər.

Məlum olduğu kimi, 2020-ci il yanvarın 8-də Azərbaycan Respublikası tərəfindən BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının həyata keçirilməsi ilə bağlı görülmüş işlərə dair 5-ci dövri məruzə BMT-nin İşgəncələr Əleyhinə Komitəsinə təqdim edilmişdir. Bununla bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) müvafiq dövr üzrə əlavə hesabatı da həmin komitəyə təqdim olunmuşdur.

Həmin hesabatın müzakirəsi məqsədilə BMT-nin İşgəncələr Əleyhinə Komitəsinin Müvəkkilə ünvanlanan rəsmi dəvəti əsasında Ombudsman Aparatı rəhbərinin müavini və Milli Preventiv Qrupun rəhbəri və Beynəlxalq təşkilatlar və

vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şöbəsinin müdiri 2024-cü il aprelin 22-də İsveçrənin Cenevrə şəhərində komitə üzvləri ilə keçirilən xüsusi iclasda iştirak etmişlər.

Müzakirələr zamanı komitə üzvlərinə Müvəkkilin Milli Preventiv Mexanizm mandatı çərçivəsində həyata keçirdiyi fəaliyyəti, təcrübədə əldə olunan yeniliklər, həyata keçirilən preventiv tədbirlər barədə geniş məlumat verilmişdir. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa yeni mərhələdə sözügedən komitənin tövsiyələri də nəzərə alınmaqla edilən yeni dəyişikliklərin Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində fəaliyyətini gücləndirməklə yanaşı, eyni zamanda beynəlxalq norma və prinsiplərə uyğun olduğu diqqətə çatdırılmışdır.

İclasda komitə üzvlərinin bir sıra sualları cavablandırılmış, müzakirələr aparılmışdır.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təcrübə mübadiləsinin səmərəli təşkili istiqamətində fəaliyyət davam etdirilmişdir.

Milli Preventiv Mexanizm (MPM) fəaliyyətinə dair əldə edilmiş təcrübələrin mübadiləsi, əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə Ombudsman Səbinə Əliyevanın dəvəti əsasında TİHEK-in sədri Muharrem Kılıçın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Səfər müddətində Azərbaycan Ombudsmanının MPM fəaliyyəti çərçivəsində Milli Preventiv Qrupunun (MPQ) üzvləri ilə birlikdə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Umbakı Penitensiar Kompleksinə baxış təşkil edilmişdir. TİHEK nümayəndə heyəti yeni istifadəyə verilən müəssisənin bütün korpuslarına baxış keçirmiş, burada yaradılan ümumi şəraitlə, saxlanılan şəxslərin, o cümlədən ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin hüquqlarının müdafiəsi vəziyyəti ilə yaxından tanış olmuşlar.

Başçəkmə çərçivəsində, həmçinin Azərbaycan Ombudsmanının MPM qismində həyata keçirdiyi fəaliyyət barədə nümayəndə heyətinə ətraflı məlumat verilmiş, fikir və təcrübə mübadiləsi aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

Səfər çərçivəsində MPQ üzvləri TİHEK nümayəndə heyəti ilə birgə Daxili İşlər Nazirliyinin Qaradağ Rayon Polis İdarəsinin müvəqqəti saxlama yerində başçəkmə həyata keçirmişdir.

Başçəkmə zamanı əvvəlcə müəssisə rəhbərliyi ilə görüş keçirilmiş, ölkə təcrübəsi və müəssisə barədə məlumat verilmişdir.

Daha sonra müəssisənin kameralarına, tibb otağına, gəzinti yerinə, mətbəxinə və digər yerlərə baxış keçirilmişdir.

Müəssisədə saxlanılan şəxslər konfidensial qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, sənədləşmə araşdırılmışdır.

## BÖLMƏ 6

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Müvəkkilin MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili onun səmərəli olduğunu deməyə əsas verir. Bu ilk növbədə ölkədə aparılan hüquqi islahatların məntiqi nəticəsi və MPM qismində apardığı fəaliyyətin – preventiv başçəkmələrin, hüquqi maarifləndirmə tədbirlərinin genişliyi və effektivliyi ilə müşahidə olunur.

Fəaliyyəti dövründə bir çox təklif–tövsiyələrin irəli sürülməsi və icrası nəticəsində dövlət orqanlarının insan hüquqlarının mahiyyətinə və təmin olunmasına münasibəti müsbətə doğru dəyişmiş, hüquq düşüncəsi yeni məzmunda formalaşmış, idarəetmənin təkmilləşdirilməsi istiqamətində addımlar atılmışdır.

Müvəkkil bu istiqamətdə də öz fəaliyyətini "Paris prinsiplərinə" uyğun aşağıdakı şəkildə qurur:

- milli qanunvericilik aktlarının və praktikanın dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq sənədlərə uyğunlaşdırılması və həyata keçirilməsini təşviq edir;
- dövlətin beynəlxalq sənədlərə qoşulmasını və beynəlxalq normaların milli qanunvericiliyə implementasiyasını, eləcə də müvafiq tədbirlərin görülməsini təşviq edir;
- dövlətin beynəlxalq konvensiyalar üzrə həyata keçirdiyi fəaliyyətlə bağlı BMT qurumlarına, regional təsisatlara təqdim etməli olduğu məruzələrin hazırlanmasına yardım göstərir, müstəqillik prinsipinə uyğun olaraq bu hesabat barədə öz rəyini ifadə edir, habelə əlavə hesabatını təqdim edir.

Müvəkkilin 2024-ci ildə MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrini əsas götürülərək, habelə əvvəlki dövrlərdə verilən təkliflərin aktuallığını saxladığını nəzərə alaraq saxlanılan şəxslərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakılar təklif edilir:

1. Ətraf aləmlə təmasların əhəmiyyəti nəzərə alınaraq, qanunvericilikdə ailə üzvlərinin yaşadığı şəhərdən başqa bir şəhərdə cəza çəkən məhkumların şəhərlərarası telefon danışıqlarının dövlət hesabına ödənilməsini nəzərdə tutan dəyişikliyin edilməsi.

2. Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununa müvafiq əlavə və dəyişiklik edilməklə tutulmuş və ya həbs edilmiş şəxslərin videogörüş keçirmək hüququnun (Cəzaların İcrası Məcəlləsində məhkumlar üçün nəzərdə tutulmuş qaydada) təsbit edilməsi.

3. Həbs yerlərində saxlanılan şəxslərin hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun 15.1.3-cü maddəsinə oxuma-yazma qabiliyyəti olmayanlar üçün hüquqları ilə bağlı şifahi qaydada məlumat almaq hüququ əlavə edilsin

4. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin respublika tabeli rayon polis şöbələrində yerləşən müvəqqəti saxlama yerlərində sıxlığın aradan qaldırılması məqsədilə inzibati qaydada həbs olunan şəxslər üçün Bakı şəhərindən kənarda regional inzibati həbs olunanların saxlanılması mərkəzinin təşkil olunması;

5. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin respublika tabeli rayon polis şöbələrində yerləşən müvəqqəti saxlama yerlərində sıxlığın müvəqqəti olaraq aradan

qaldırılması məqsədilə saxlanılan şəxslərin ətraf rayonlardakı müvəqqəti saxlama yerlərinə köçürülməsi;

6. MSY-lərdə gəzinti yerlərinin təşkili zamanı beynəlxalq tələblərin nəzərə alınması, mövcud yerlərin standartlara uyğunlaşdırılması;

7. MSY-lərdə müxtəlif kateqoriyadan olan şəxslərin ayrı saxlanılması ilə bağlı milli qanunvericiliyin və beynəlxalq normaların düzgün tətbiqinə nail olunması;

8. Saxlanılan şəxslərin ilkin təminatlarından olan telefon danışığı hüququnun həyata keçirilməsi üçün bütün MSY-lərdə telefon köşklərinin təşkil edilməsi, işləməyən telefon aparatlarının təmir edilməsi və telefon danışıqları ilə bağlı qeydiyyatın hərtərəfli aparılması işinə nəzarətin gücləndirilməsi;

9. Polis idarə, şöbə, bölmə və MSY-də müvafiq qeydiyyat jurnallarının və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması, sənədləşmə və ilkin tutma prosesinə nəzarətin gücləndirilməsi;

10. MSY-də saxlanma şəraitinin yaxşılaşdırılması işlərinin davam etdirilməsi.

11. Məhkumun sağlamlıq vəziyyətinə görə cəzanı çəkməsinə mane olan halları nəzərə alaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş “Məhkumların xəstəliyə görə cəza çəkməkdən azad edilmələri üçün əsas olan xəstəliklərin siyahısı”na yenidən baxılması;

12. Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi;

13. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş məhkumun xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi haqqında məsələyə o cümlədən Ombudsmanın təqdimatı əsasında baxılması ilə bağlı həmin Məcəllənin 511.2-ci maddəsinə müvafiq dəyişikliklərin edilməsi;

14. Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə ilə bağlı məsələyə, habelə Ombudsmanın vəsatəti əsasında baxılmasına dair Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 513.1-ci maddəsinə zəruri dəyişikliyin edilməsi;

15. Penitensiar Xidmətin istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində davam edən sıxlıq probleminin aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi;

16. Penitensiar müəssisələrdə sıxlıq probleminin tibbi xidmətlərə çatımla bağlı neqativ təsirlərinin aradan qaldırılması məqsədilə, xüsusən də istintaq təcridxanalarında saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, həm 94 tibbi heyət, həm də dərman və digər tibbi ləvazimatların müəssisənin saxlanma limitinə deyil, saxlanılan şəxslərin faktiki sayına uyğunlaşdırılması;

17. İnşası davam etdirilən penitensiar müəssisələrin tikintisinin sürətləndirilməsi, təmirə ehtiyacı olan yerlərdə müvafiq tədbirlərin görülməsi;

18. Saxlanma şəraitinin yaxşılaşdırılması baxımından Penitensiar Xidmətin 2 və 3 saylı istintaq təcridxanalarının yeni yerlərə köçürülməsi işinin sürətləndirilməsi;

19. Ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzalarını daha yüngül rejimli cəzaçəkmə müəssisələrində çəkmələri ilə bağlı xarici ölkələrin müsbət təcrübəsi də nəzərə alınmaqla, məntəqə tipli cəzaçəkmə müəssisələrinin əsasında ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulan ayrıca cəzaçəkmə müəssisələrinin yaradılması və təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzasının həmin müəssisələrdə çəkilməsinin qanunvericiliklə təsbit edilməsi.

20. Məhkumlar tərəfindən rejim pozuntusu hallarının azaldılması, habelə gələcəkdə belə şəxslərin cəmiyyətə reinteqrasiyasının uğurla gerçəkləşdirilməsi üçün kompleks tədbirlər həyata keçirməklə islah prosesinin təkmilləşdirilməsi;

21. İslah işləri çərçivəsində beynəlxalq təcübəyə əsaslanmaqla qanunvericiliyin verdiyi imkanlardan istifadə edərək, rejim pozuntularına görə cərimə təcridxanasına keçirilmə əvəzinə digər, ciddiliyinə görə daha yumşaq inzibati tənbeh tədbirlərinin (xəbərdarlıq, töhmət) seçilməsi;

22. Məhkumların və təqsirləndirilən şəxslərin müraciət imkanlarının artırılması üçün müvafiq qanunvericiliyə dəyişiklik edilməklə Ombudsman təsisatı ilə əlaqə saxlamaq məqsədilə onlara əlavə telefon danışığının verilməsi.

23. Qida qəbulundan imtina etməklə bağlı müraciətlərin penitensiar müəssisələrin rəhbərliyi tərəfindən dərhal qeydiyyata alınması, aclıq edən şəxslərə gündəlik həkim nəzarətinin gücləndirilməsi və bu sahədə vahid qeydiyyat sisteminin yaradılması;

24. “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, penitensiar müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsi işinin təşkili;

25. Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə kadr çatışmazlığının aradan qaldırılması məqsədilə pensiya yaşına çatmış həkimlərin və digər mütəxəssislərin həmin müəssisələrdə işlə təmin edilməsi mexanizmlərinin işlənib hazırlanması.

26. Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah olunması, şəxsiyyətinin inkişafı və azad olunduqdan sonra cəmiyyətə adaptasiyası məqsədilə “Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah edilməsi və cəmiyyətə adaptasiyası” üzrə proqramın qəbul edilməsi;

27. Yetkinlik yaşına çatmayan məhkumların, habelə xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş məhkumların ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edə bilmələri üçün mexanizmin hazırlanması.

28. Psixiatriya müəssisələrində müalicə alan şəxslərin vaxtında terapiyaya cəlb olunmaları üçün kadr çatışmazlığının aradan qaldırılması;

29. Psixiatriya müəssisələrində müalicənin farmako-terapiya ilə məhdudlaşdırılmaması, psixo-sosial reabilitasiya tədbirlərinin müasir standartlara uyğun təşkil olunması, pasiyentlərin müalicə planlarının tərtibatında iştirakının dəstəklənməsi, xüsusi istehsalat sahələrinin yaradılması, hər bir pasiyent üçün müalicə məqsədlərinin, terapiya üsullarının və müalicəyə cavabdeh olan əməkdaşların adlarının əks olunduğu fərdi müalicə planının tərtib olunması;

30. Penitensiar müəssisələrdə psixoloji yardımla bağlı işin təkmilləşdirilməsi və məhkumlarla işləmək bacarığına malik peşəkar psixoloqlara olan ehtiyacın təmin edilməsi məqsədilə psixologiya ixtisası üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisələrində “penitensiar psixoloq” ixtisası üzrə mütəxəssislərin hazırlanması;

31. Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində çalışan müvafiq mütəxəssislərin təkmilləşdirilməsi məqsədilə loqopediyaya aid effektiv seminarların təşkili və bu şəxslərin orada iştirakının təmin edilməsi;

32. Xüsusi ehtiyacları olan uşaqların istifadəsi üçün Brayl əlifbası ilə çap olunmuş dərslik probleminin aradan qaldırılması, çap prosesinin sürətləndirilməsi və ənənəvi dərsliklərlə eyni vaxtda hazır olaraq uşaqlara paylanılmasının təşkil edilməsi;

33. Narkoloji müalicə müəssisələrindəki sıxlığı və müalicə gözləyən şəxslərin sayının çoxluğunu nəzərə alaraq, bu müəssisələr şəbəkəsinin genişləndirilməsi, narkoloq və klinik psixoloqların sayının artırılması, yeni reabilitasiya mərkəzlərinin yaradılması, eyni zamanda narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir metodların tətbiq edilməsi;

34. Psixiatriya xəstəxanalarında və Narkoloji dispanserlərdə (mərkəzdə) müalicə olunan, müalicə müddəti bitmiş, lakin yaşayış yeri olmayan pasiyentlərin sosial xidmət müəssisələrinə köçürülməsi üzrə mexanizmin hazırlanması, eyni zamanda sosial xidmət müəssisələrində limitin (yaşayış yerlərinin) artırılması;

35. Penitensiar müəssisələlərdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleks proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi;

36. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün sosial adaptasiya və reabilitasiya tipli müəssisələrin respublikanın region və bölgələrində geniş şəkildə yaradılması.

**STATİSTİK GÖSTƏRİCİLƏR**

*Əlavə 1*

***Diaqram 1. 2024-cü ildə həyata keçirilən başçəkmələrin müəssisələr üzrə bölgüsü***




***Diaqram 2. MPM-in 2024-cü ildə həyata keçirdiyi başçəkmələrin sayı***



***Diaqram 3. MPM qismində həyata keçirilən başçəkmələrin illər üzrə sayı***




***Diaqram 4. MPM-in mətbuat açıqlamalarının sayı (illər üzrə)***



*Əlavə 2*

# İŞGƏNCƏLƏRƏ VƏ DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ YAXUD LƏYAQƏTİ ALÇALDAN RƏFTAR VƏ CƏZA NÖVLƏRİNƏ QARŞI KONVENSİYANIN

## FAKÜLTATİV PROTOKOLU

## Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəf-tarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

# I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və

səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

***Maddə 20***

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23*** Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

*Maddə 26*

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

*Maddə 27*

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

*Maddə 28*

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

*Maddə 29*

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

*Maddə 30*

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

*Maddə 32*

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

*Maddə 33*

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

*Maddə 34*

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

*Maddə 35*

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

*Maddə 36*

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

*Maddə 37*

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.